Xalqın qəzeti!

# Xalq qəzeti

№ 260 (30376) 29 noyabr 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

# Azərbaycana təzyiqlər qəbuledilməzdir

**Noyabrın 27-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**



Telefon söhbəti zamanı Prezident İlham Əliyev qeyd edib ki, ABŞ tərəfindən Azərbaycanla bağlı son bəyanatlar və atılan addımlar Azərbaycan-ABŞ münasibətlərinə ciddi zərər vurub.

Dövlətimizin başçısı 2023-cü il noyabrın 15-də ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin Avropa üzrə alt komitəsinin dinləmələrində ölkəmizlə bağlı səsləndirdiyi fikirlərin qərəzli olduğunu, həqiqəti əks etdirmədiyini və Azərbaycan tərəfindən rədd edildiyini bildirib.

Azərbaycan tərəfinin ABŞ-ın Azərbaycana münasibətdə yüksək səviyyəli ikitərəfli görüş və təmasları təxirə salması və "ikitərəfli münasibətlərimizdə "əvvəlki kimi" ola bilməz" bəyanatını nəzərə aldığı, bunu adekvat cavablandırdığı vurğulanıb.

Prezident İlham Əliyev Azərbaycan Xarici İşlər Nazirliyinin noyabrın 16-da bununla əlaqədar açıqlama verdiyini, Azərbaycan tərəfinin də öz növbəsində ABŞ-dan olan yüksək səviyyəli səfərləri ləğv etdiyini xatırladıb.

Dövlət katibi Blinken münasibətlərin normallaşdırılması məqsədilə dekabrda ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın Azərbaycana səfərinə icazə verilməsini xahiş edib. Prezident İlham Əliyev həmin təkliflə bir şərtlə razılaşıb ki, bu səfərdən sonra Azərbaycanın yüksək səviyyəli rəsmilərinin ABŞ-a səfərlərinə qoyulan əsassız qadağa aradan qaldırılsın. Dövlət katibi Blinken bunu qəbul edib.

Bununla yanaşı, qeyd olunub ki, sülh müqaviləsinin mətni ilə bağlı Azərbaycan tərəfinin 2023-cü il sentyabrın 11-də Ermənistana təqdim etdiyi təkliflər Ermənistan tərəfindən noyabrın 21-də cavablandırılıb. Beləliklə, Ermənistan öz cavabını 70 gün gecikdirib. Yetmiş günlük gecikdirmə bir daha nümayiş etdirir ki, Ermənistan sülh müqaviləsinin mətnindən danışıqlar prosesini uzatmaq üçün bəhanə kimi istifadə edir.

Danışıqlar zamanı tərəflər, həmçinin noyabrın 30-da Azərbaycan–Ermənistan şərti sərhədində keçiriləcək dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların növbəti görüşünə dair fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

## Avropanın "riyakarlıq şurası"

### Yaxud "məzlum Ermənistan" dramatizmi



**Qərb dünyası, sanki, Ermənistanı himayəyə götürüb, ona hər cür dəstək göstərir. Müxtəlif bəyanatlar, hərbi və humanitar yardımlar – hamısı bir-birini əvəzləməkdədir. Bu, azmış kimi, İrəvanı müdafiə edən məqalələr də yazılmaqdadır. Buna bir o qədər təəccüblənmirik. Artıq belə tərəfkeşliyə, saxta təəssübkeşlik dolu hərəkətlərə öyrəşikliyik. Elə riyakarlıq dolu digər əməllərə də, həmçinin.**

"Qoca qitə"nin özünü mütərəqqi sayan institutlarının ermənipərəstliyinə təəccüblənməsək də, haqqında söz açacağımız mövzu baxımından, Avropa Şurası kimi, bir növ, balans yaratmalı olan qurumun davranışını istisna saymalıyıq. Bəli, bilirik ki, bu təşkilat da son vaxtlar, belə demək mümkünsə, erməniləri müdafiə "trendinə" qoşulub. Mövcud xüsusdakı acınacaqlı durumun müxtəlif təzahür formalarının mövcudluğundan da xəbərdarıq. Ancaq indiki yanaşmaya ilk dəfədir rast gəlirik. Söhbət AŞ-nin saytında yer almış məqalədən gedir. O məqalədən ki, orada Ermənistanın dayanıqlılığının gücləndirilməsi yolları ətrafında söz açılır. Amma yalnız bundan yox. Çünki sözügedən məqalə həm də anti-Azərbaycan mahiyyət daşımaqda, Cənubi Qafqaz siyasi akvatoriyası müstəvisindəki aşkar təxribatçılıq motivlərinə söykənməkdədir.

*(ardı 3-cü səhifədə)*

# Ağ ev "val"ı dəyişir

**Daxildə revanşist-daşnak erməni lobbiçilərin və ermənipərəst konqresmenlərin, kənarda Avropa İttifaqının və Fransanın fitvasına gedən ABŞ rəhbərliyinin Azərbaycanla güc və hədə-qorxu dili ilə danışmağın faydasız olduğunu başa düşdüyü anlaşılır.**



ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin Azərbaycan Prezidenti İlham Əliyevə telefon zəngi rəsmi Vaşinqtonun Bakı ilə münasibətlərinə korrektələr etmək niyyətindən xəbər verir. Bu da təsadüfi sayıla bilməz. Çünki 2023-cü il noyabrın 15-də ABŞ Dövlət katibinin köməkçisi Ceyms Obrayenin Nümayəndələr Palatasının Xarici işlər komitəsinin Avropa üzrə alt komitəsinin dinləmələrində ölkəmizin ünvanına səsləndirdiyi fikirlər qərəzli və həqiqətdən uzaq olduğu üçün Azərbaycan tərəfindən rədd edilmişdi. Telefon söhbəti zamanı bu faktı Antoni Blinkenin nəzərinə çatdıran İlham Əliyev onu da xüsusi olaraq vurğulayıb ki, ABŞ tərəfindən Azərbaycanla bağlı son bəyanatlar və atılan addımlar Azərbaycan–ABŞ münasibətlərinə ciddi zərər vurub.

*(ardı 4-cü səhifədə)*

# Ağdərə rayonu yenidən təşkil edilir



**1993-cü il iyulun 7-də Xankəndidən 62 kilometr şimalda yerləşən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində beş inzibati rayondan biri olan və 1705 kvadratkilometrlik əraziyə malik Ağdərə rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi.**

İşğala qədər Ağdərənin 14 kəndində (Sırxavənd, Başirlər, Qaraşlar, Qaralar, Baş Güneypəyə, Orta Güney, Xatınbəyli, Manikli, Tellibinə, Narınclar, Çərəktar, İmarət-Qərvənd, Umudlu, Yeni Qaralar) və Gəncxana sovxoz qəsəbəsində 14 mindən çox azərbaycanlı yaşayıb.

İşğal altında olan dövrdə rayonun kəndləri Ağdam, Kəlbəcər, Tərtər rayonlarının inzibati tərkibində olub. Ağdərənin rayon tipli iki qəsəbəsi, 57 kəndi, 67 klubu, 51 kitabxanası, 30 orta məktəbi, 7 xəstəxanası, 1 texniki peşə məktəbi düşmən əsarətində saxlanılıb.

*(ardı 9-cu səhifədə)*

# Qarabağ erməniləri Hayastanda miskin durumdadırlar

**Azərbaycan Ordusunun sentyabrın 19-20-də Qarabağ iqtisadi rayonunun bütün ərazisində dövlət suverenliyini bərqərar etmək məqsədilə beynəlxalq hüquqa uyğun olaraq keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra erməni əhalinin könüllü şəkildə Ermənistana getməsi hazırda ermənipərəstlərin əlində ölkəmizə qarşı əsas "arqument"ə çevrilib. Onlar utanıbqızarmadan bunu "etnik təmizləmə", "məcburi köçürülmə" və sair adlarla qələmə verirlər.**



Halbuki, birincisi, Azərbaycan antiterror tədbirlərinin məcburiyyət qarşısında qalaraq keçirməli olmuşdu. Hadisələrin xronoloji ardıcıllığını izləyənlər bunu bilirlər. İkincisi isə tədbirlər beynəlxalq hüquqa və beynəlxalq humanitar hüquqa tam uyğun həyata keçirilib. Bu zaman mülki şəxslər və infrastruktur obyektləri hədəfə alınmayıb. Yeri gəlmişkən, Azərbaycan antiterror tədbirləri zamanı mülki əhalinin və obyektlərin zərər çəkməməsi məsələsində də dünyaya nümunə göstərib.

Hazırda da davam edən Rusiya–Ukrayna müharibəsinin gedişi zamanı şəhərlər xarabazara çevrilir, bütöv yaşayış məskənləri Yer üzündən silinir. Yaxud İsraillə HƏMAS arasındakı döyüşlər zamanı hündürmərtəbəli yaşayış binaları raket zərbələri ilə yerlə-yeksan edilir. Bu zaman əsasən mülki insanlar – qadınlar, uşaqlar və qocalar həyatlarını itirirlər.

*(ardı 9-cu səhifədə)*

# Bazarda ət bahalaşdıqca kolbasa-sosis ucuzlaşır...



Səhifə ⇨ 8

# HƏMAS – İsrail müharibəsi: atəşkəs 2 gün də uzadılıb



Səhifə ⇨ 11

# Orta Dəhliz – Xəzərdən keçən Avrasiya yolu

Səhifə ⇨ 7

# Albaniya Respublikasının Prezidenti Zati-aliləri cənab Bayram Beqaya

**Hörmətli cənab Prezident,**

Albaniya Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Diplomatik münasibətlərimizin qurulmasından ötən otuz ildə dost xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-Albaniya dostluq əlaqələri möhkəmlənmiş, qarşılıqlı maraq doğuran əməkdaşlığımız dinamik inkişaf etmişdir.

Keçən il Azərbaycanın Albaniyada Səfirliyinin təsis edilməsi, habelə həyata keçirdiyimiz qarşılıqlı səfərlər dövlətlərarası münasibətlərimizin yeni müstəviyə keçməsinə, müxtəlif sahələrdə, xüsusilə də energetika sektorunda əməkdaşlığımızın genişlənməsinə təkan vermişdir.

İnanıram ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan dostluq əlaqələrimizin gücləndirilməsi, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığımızın dərinləşdirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam edirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Albaniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 noyabr 2023-cü il**

# Mavritaniya İslam Respublikasının Prezidenti Zati-aliləri cənab Məhəmməd uld Şeyx əl-Qazuaniyə

**Hörmətli cənab Prezident,**

Mavritaniya İslam Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, xalqlarımızın rifahı naminə mövcud imkanlardan yararlanaraq dostluq münasibətlərimizin, həm ikitərəfli, həm də çoxtərəfli əsasda əməkdaşlığımızın inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 noyabr 2023-cü il**

# Milli Məclis Ermənistan parlamenti spikerini ifşa etdi



**Ermənistan parlamentinin spikeri Alen Simonyan noyabrın 28-də jurnalistlərə açıqlamasında növbəti dəfə regionda mövcud olan reallıqları təhrif edərək, həqiqətdən uzaq fikirlər səsləndirmişdir. Milli Məclis A.Simonyanın müsahibəsinin yalan üzərində qurulduğunu faktlara sübut edib.**

Simonyan Ermənistan tərəfindən Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 30 illik işğalı faktını yaddaşlardan silmək və Ermənistan tarixinin bu qara ləkəsini beynəlxalq ictimaiyyətin gündəmindən çıxarmaq "arzusunu" gələcəyə baxış adı altında pərdələməyə çalışır. Milli Məclisin cavabında qeyd olunduğu kimi, yaxşı olardı ki, Simonyan Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlının öz doğma torpaqlarından qaçqın və məcburi köçkün düşməsinə, Xocalı soyqırımının törədilməsinə, işğal dövründə 9 şəhər və yüzlərlə kəndin darmadağın edilməsinə görə üzr istəyərək, gələcək haqda danışmağa başlasın.

İşğal olunmuş torpaqlarda və Ermənistan ərazisində azərbaycanlılara məxsus yüzlərlə tarixi, mədəni və dini abidələri yerlə-yeksan edən, abidələrin və yaşayış yerlərinin adlarını dəyişərək, saxta tarix yazan monoetnik Ermənistanın parlamentinin spikerinin müxtəlif etnik qrupların mehriban və dinc şəkildə birgə yaşadığı, tarixi və mədəni irsinin dövlət səviyyəsində mühafizə edildiyi Azərbaycanı öz arşını ilə ölçməsi,əslində, onun həqiqi simasını ifşa edir.

Simonyanın Qazax rayonunun 7 kəndinin və Kərkinin hələ də Ermənistanın işğalı altında qalmasına primitiv düşüncə tərzi ilə hüquqi don geyindirməyə çalışması, əksinə, Azərbaycanı işğalda ittiham etməsi isə xəstə təfəkkürün təzahüründən başqa bir şey deyil.

Ermənistan rəhbərliyinin "Azərbaycanın müharibəyə hazırlaşması", "sülh danışıqlarından imtina etməsi" kimi beynəlxalq ictimaiyyəti aldatmağa yönəlik yalanları təkrarlamağa nə dərəcədə alışdığı artıq bir faktdır. Milli Məclis Simonyana bir daha xatırladıb ki, məhz Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra beynəlxalq hüququn prinsipləri əsasında Ermənistanla sülh müqaviləsinin imzalanması təşəbbüsü ilə çıxış edib. Ötən 3 il ərzində Ermənistan öz siyasi və hərbi təxribatları ilə sülh prosesini əngəlləməyə çalışıb. Hazırda regionda uzunmüddətli sülhün bərqərar olması üçün tarixi şans yaranıb. Azərbaycan hər iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin tanınması əsasında Ermənistanla sülhə hazır olduğunu dəfələrlə bəyan edib. Belə bir məqamda isə Ermənistan sülh müqaviləsinin mətni üzrə Azərbaycanın təkliflərinə cavabını uzun müddət gecikdirməklə, danışıqlar prosesini uzatmağa çalışır.

Ona görə də, Milli Məclis Ermənistan tərəfini bu cür təxribatçı və həqiqətdən uzaq bəyanatlar səsləndirməkdən çəkinməyə və sülhə töhfə verməyə çağırır.

***Ə.BƏDƏLOV***
***XQ***

# Ermənistan rəsmiləri İcma ilə dialoqa başlamalıdır

**Qərbi Azərbaycan İcması Ermənistan parlamentinin spikeri Alen Simonyanın guya Azərbaycan tərəfindən Ermənistanın 31 kəndinin tamamilə və ya qismən işğal edilməsi barədə absurd və böhtan xarakterli açıqlamasını kəskin şəkildə pisləyib.**

Qurumun bununla bağlı yaydığı açıqlamada deyilir: "İcma hesab edir ki, Ermənistan belə bir əsassız iddia ortaya atmaqla bir daha Azərbaycanla sülh müqaviləsinin imzalanmasında maraqlı olmadığını nümayiş etdirmişdir. Ermənistan bununla, həm də Azərbaycanın 8 kəndini işğal altında saxlamasını ört-basdır etməyə çalışır.

Ermənistan rəsmiləri qayıdışla bağlı gəlişigözəl sözlər demək əvəzinə, real addım ataraq bu istiqamətdə Qərbi Azərbaycan İcması ilə dialoqa başlamalıdır".

***XQ***

# Qarabağ Universitetinin yaradılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, dayanıqlı inkişafı və həmin ərazilərdə yüksək həyat səviyyəsinin təminatı üçün genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir.

Əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası istiqamətində müəyyənləşdirilmiş hədəflərin reallaşdırılmasında nəzərdə tutulan müasir yanaşmalar, o cümlədən qabaqcıl standartların, yüksək texnologiyaların tətbiqi və hər bir rayonun ixtisaslaşma sahəsinə müvafiq inkişafı yüksəkixtisaslı kadrların cəlb edilməsini şərtləndirir.

Qarabağ regionunda ali təhsil ənənəsi tarixən mövcud olmuşdur. Burada ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulmuş, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərmiş, ərazilərimizin işğalı dövründə isə fəaliyyətini dayandırmışdır.

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri regionda yüksəkixtisaslı kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisəsinin təşkili zərurətini meydana çıxarmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədilə **qərara alıram:**

**1.** Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs (bundan sonra – Universitet) yaradılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. iki ay müddətində:

2.1.1. Universitetin nizamnaməsini təsdiq edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.2. Universitetin fəaliyyətinin maliyyələşdirilməsi ilə bağlı zəruri tədbirlər görsün;

2.1.3. Universitetin Xankəndi şəhərində torpaq sahəsi, tədris və yataqxana binaları, idman meydançası və digər infrastruktur obyektləri ilə təminatı məsələlərini həll etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 noyabr 2023-cü il**

# İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının 3 illik fəaliyyətinin yekunlarına həsr olunmuş iclası keçirilib



**Noyabrın 28-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın 3 illik fəaliyyətinin yekunlarına həsr olunmuş iclası keçirilib.**

Qərargahın rəhbəri Samir Nuriyev iclası açaraq, Azərbaycan Respublikası Prezidentinin məqsədyönlü, ardıcıl və müdrik siyasəti nəticəsində 2020-ci ilin noyabrında torpaqlarımızın işğaldan azad edilməsi ilə ölkəmizin və bütövlükdə regionun yeni strateji inkişaf mərhələsinə qədəm qoyduğunu diqqətə çatdırıb. O qeyd edib ki, 2023-cü ilin sentyabrında həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağdakı Ermənistan silahlı qüvvələrinin birləşmələri tərk-silah edilib, onların hərbi infrastrukturu zərərsizləşdirilib, işğaldan azad edilmiş bütün ərazilərdə Azərbaycan Respublikasının Konstitusiya quruluşu və suverenliyi tam bərpa olunub. Əminliklə demək olar ki, bu gün Azərbaycan xalqı öz tarixinin ən şanlı və qürurverici dövrünü yaşayır.

Samir Nuriyev Qərargahın ötən 3 illik fəaliyyəti dövründə dövlətimizin başçısının verdiyi tapşırıqlara əsasən işğaldan azad olunmuş ərazilərdə irimiqyaslı bərpa-quruculuq layihələrinin həyata keçirildiyini, yeni şəhər və kəndlərin salınması istiqamətində işlərin sürətlə davam etdiyini diqqətə çatdırıb. Bu sahədə qarşıya qoyulmuş vəzifələrin icrasında səmərəlilik, hesabatlılıq, qurumlararası qarşılıqlı kommunikasiya, əlaqələndirilmə və operativlik Qərargahın fəaliyyətinin əsas prinsipləri olub.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, antiterror tədbirləri nəticəsində suverenliyin bərpa edildiyi ərazilərdə zəruri məsələlərin həlli istiqamətində görülən işlər, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində ərazilərdə həyata keçirilən işlərin cari vəziyyəti, geri qayıdan əhalinin məskunlaşmasının, təhlükəsizliyinin və dayanıqlı məşğulluğunun təmin edilməsi, azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadənin və rəqabətqabiliyyətli aqrar istehsalın təşkili ilə bağlı məruzələr dinlənilib.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ərazilərin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi sahəsində aparılan işlərə dair məruzə təqdim edilib.

Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələrinin iclasın gündəliyindəki məsələlərin yerlərdə əlaqələndirilməsi və müvafiq ərazilər üzrə görülən işlərin cari vəziyyəti barədə məlumatları dinlənilib.

İclasın sonunda Azərbaycan Respublikasının Prezidenti tərəfindən qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində müvafiq tapşırıqlar verilib.

# ABŞ, Almaniya və Fransa diplomatları Azərbaycan XİN-ə çağırılıb

**Noyabrın 28-də Amerika Birləşmiş Ştatlarının və Almaniyanın müvəqqəti işlər vəkilləri, habelə Fransanın fövqəladə və səlahiyyətli səfiri ayrı-ayrılıqda Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıblar.**

Görüşlərdə bu ölkələrdə qeydiyyatda olan təşkilatların iştirakı ilə "AbzasMedia" xəbər portalının qeyri-qanuni maliyyə əməliyyatları həyata keçirdiyi, eləcə də sözügedən ölkələrin səfirliklərinin də bu fəaliyyətə cəlb olunduğu diqqətə çatdırılıb və bu fəaliyyətə ciddi etiraz bildirilib.

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin, "FreedomNow", "New Democracy Fund" və digər təşkilatların qrant verilməsi qaydalarını pozaraq maliyyə resurslarının Azərbaycan ərazisinə qanunsuz yolla transferini həyata keçirdikləri, "AbzasMedia"nın fəaliyyətinə qanundan kənar töhfələr verdikləri qeyd olunub.

Qrant fəaliyyəti və qrant müqavilələri haqqında Azərbaycanın qanunvericiliyinə əsasən qrant müqavilələrinin müvafiq prosedura uyğun olaraq dövlət qeydiyyatına alınmasının tələb olunduğu, qeydiyyatı həyata keçirilməyən layihələrə maliyyə ayrılmasının ölkə qanunvericiliyinin ciddi pozuntusu olduğu vurğulanıb.

Bununla yanaşı, beynəlxalq təcrübəyə uyğun olaraq, Media haqqında Azərbaycan Respublikasının Qanununa əsasən yerli media subyektinin xarici ölkələrin fiziki və ya hüquqi şəxsləri, habelə xarici ölkələrin dövlət qurumları tərəfindən maliyyələşdirilməsinə yol verilmədiyi xatırlanıb.

Sözügedən ölkələrin səfirliklərinin və onlara məxsus təşkilatların ölkəmizin ərazisində qeyd edilən qanunvericiliyə zidd hərəkətləri Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasının da pozuntusu olduğu qeyd edilib.

Azərbaycan tərəfi ölkəmizin qanunvericiliyinə zidd olan və ölkənin daxili işlərinə qarışmaq məqsədi daşıyan bu fəaliyyəti şiddətlə qınayıb və sözügedən faktlarla əlaqədar milli qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər görmək hüququnu özündə saxladığı diqqətə çatdırılıb.

***XQ***

# Azərbaycan nümayəndələri BMT-nin sessiyasında

**Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyevin başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Keniyanın paytaxtı Nayrobi şəhərindəki baş qərargahında keçirilən üçüncü sessiyasında iştirak edib.**



Sessiya çərçivəsində dünya üzrə insanyönümlü "ağıllı" şəhərlərə dair tövsiyə xarakterli beynəlxalq təlimat sənədinin tərtib edilməsi və "UN-Habitat"ın 2026-2029-cu illəri əhatə edəcək strateji planının hazırlanması istiqamətində yol xəritələrinin icrası müzakirə edilir.

***XQ***

# Avropanın “riyakarlıq şurası”

## Yaxud “məzlum Ermənistan” dramatizmi

(əvvəli 1-ci səhifədə)

Əlqərəz, məqalədə bildirilir ki, avropalılar Ermənistanın daxili siyasi sabitliyini qoruyub saxlamaqla və onun müdafiə qabiliyyətini gücləndirməklə yanaşı, gərginliyin qarşısını almaq üçün bütün tərəflərlə diplomatik əlaqə saxlamalıdırlar. Məqalədəki “avropalılar” ifadəsinə diqqət yetirin. Deməli, Ermənistanı müdafiə qitənin ideoloji kazusu şəklində qoyulur. İstər-istəməz Orta əsr “səlib yürüşləri”nin İsa Peyğəmbərin (ə.) qəbrinin kafirlərdən xilası şüarını yada salırıq. Nəzərə alaq ki, əsl məqsədi qarət və talançılıq, Şərqin zəngin torpaqları hesabına varlanmaq olan bu yürüşlər də ideoloji qiyafəyə bürünmüşdü. Deməli, Ermənistanı müdafiə də məfkurə davası şəklinə gətirilməkdədir. Bunu edən “köhnə qitə”nin hansısa adi təşkilatı olsaydı, anlayışla qəbul edərdik. Amma ortada Avropa Şurası var. O təşkilat ki, Azərbaycan da onun üzvüdür.

Bəli, bu qurumun saytındakı məqalədə bildirilir ki, Azərbaycanın bir ay davam etmiş blokadasından sonra bir neçə gün ərzində anklavın 100 minə yaxın sakini Ermənistana qaçıb. Burada Qarabağı nəzərdə tutan “anklav” ifadəsinə diqqət yetirək. Anklav bir dövlətin ərazisindəki başqa dövlətə məxsus ərazidir. Avropa Şurası nə demək istəyir? Yəni, hesab edir ki, Qarabağ Ermənistanın Azərbaycanla əhatə olunmuş ərazisidir?



***

Qarabağ ermənilərinə Ermənistanda sığınacaq verilməklə, böhranın dərhal aradan qaldırıldığının vurğulandığı məqalədə, eyni zamanda, bildirilir ki, Azərbaycan irəliləməyə qərar verərsə, Ermənistanın təhlükəsizliyi üçün başqa problemlər yarana bilər. Bu, nə deməkdir? Əlbəttə, Qarabağa Ermənistanın anklavı kimi yanaşan məqalə müəllifləri Azərbaycanın ərazini işğal etdiyi düşüncəsindədirlər və onlar “iştah yedikcə gələr” məntiqi ilə hesab edirlər ki, Bakı hücumlarına ara verməyəcək. Yəni, Qarabağdan sonra növbə Ermənistanındır. Elə buna görə, daha doğrusu, “eskalasiyanın qarşısını almaq üçün Avropa İttifaqı ölkənin sosial dayanıqlılığını və müdafiə qabiliyyətini gücləndirmək üçün daha fəal işləməli, paralel surətdə diplomatik fəaliyyətini gücləndirməlidir”.

***

Əlbəttə, hazırda Qərb dünyasının Ermənistanı və erməniləri müdafiə tezislərində birinci məqam erməni dövlətçiliyini Azərbaycanın işğalından qorumaqdırsa, ikinci özünü qabarıq göstərən məsələ anti-Rusiya xəttinin seçilməsidir. Avropa Şurasının saytındakı məqalənin müəllifləri də “ənənəvi” şparqalkaya istinadı yaddan çıxarmayıblar. Məqalədə bildirilib ki, “Qarabağda dislokasiya olunmuş Rusiya “sülhməramlı” kontingentinin zəif fəaliyyəti, eləcə də 2021 və 2022-ci illərdə Azərbaycanın Ermənistan ərazisinə hücumundan sonra Moskvanın erməni müttəfiqinə dəstək vermək istəməməsi və nəhayət, sentyabrın 19-da Azərbaycanın həmləsinə heç bir cavab verməməsi, bir çox erməninin Rusiyanın təhlükəsizlik dəstəyindən şübhələnməsinə səbəb oldu.

Yeqin, Qarabağdakı Rusiya sülhməramlı kontingenti barədə söz açılarkən, “sülhməramlı” sözünün dırnaq işarəsində yazıldığına diqqət yetirdiniz. Yəni, Moskvanın rolu elə bu ifadə ilə də heçə endirilir. Digər tərəfdən, ümumən, məsələnin qoyuluşunda primitivlik və təxribat motivi var. Birincisi, Rusiyanın müttəfiqi Ermənistanı darda qoyması fikri aşılanır. Daha dəqiq desək, Kremlin müttəfiqlik öhdəliklərinə əməl etməməsi. İkincisi, Azərbaycan Ermənistan ərazisinə hücum etməyib. Ölkəmiz yalnız erməni silahlı qüvvələrinin təxribatının qarşısını alıb, təxribat nöqtələrini zərərsizləşdirib, habelə şərti sərhəddəki strateji nöqtələri ələ keçirib ki, gələcək hərbi təxribatların qarşısının alınması səmərəli olsun. Bunu işğal kimi dəyərləndirmək isə ancaq ermənipərəst ritorikanın zay məhsuludur. Üçüncüsü, Azərbaycan sentyabrın 19-da özünün qanuni ərazilərində konstitusyon hüquqlarını bərpa etmək üçün lokal xarakterli antiterror tədbirləri reallaşdırdı. Buna qarşılıq Rusiya sülhməramlı kontingenti nə edə bilərdi? Bəlkə Azərbaycan ərazisində ölkənin hərbi birləşmələrinə qarşı döyüşməli idi?

***

Məqalədəki daha bir təxribatçı məqama diqqət yetirək. Bildirilir ki, Prezident İlham Əliyev, guya, mütəmadi olaraq, Qərbin rəhbərlik etdiyi danışıqlar formatında hansısa məsələdə razılığa gəlmək istəmədiyinə dair siqnallar göndərir və bunun əvəzində Rusiya və Türkiyənin iştirakı ilə nizamlanmanın tərəfdarıdır: “Belə bir ssenaridə Türkiyə, Azərbaycan və Rusiya Ermənistanın baş naziri Nikol Paşinyanı güzəştə getməyə, o cümlədən, quru “dəhlizinin” yaradılmasına məcbur etmək üçün Avropa İttifaqı və ABŞ-ı istisna edən formatda birləşə bilər. Bundan sonra Paşinyan zəifləyəcək və Ermənistanın daxili sabitliyi daim təhdid altında olacaq. Bu, ola bilsin, daxili sabitliyin pozulmasına yol açacaq və ölkəni xarici müdaxilələrə qarşı daha həssas edəcək”.

Göründüyü kimi, məqalədə məqsəd Azərbaycan–Ermənistan münasibətləri müstəvisində geosiyasi trek formalaşdırmaqdır. Əlbəttə, ön planda “məzlum Ermənistan” obrazını yaratmaq dayanır. Üstəlik, Azərbaycan, Türkiyə və Rusiya antipot qiyafəsində Qərb dünyasına qarşı qoyulur. Sanki, bu “üç əjdaha” birləşib Ermənistanı udmaq istəyir. Məqalə deyil, tam bir nağıl ssenarisidir. Ən biabırçı məqam bu nağılın Avropa Şurasının saytına yol tapmasıdır.

***

Yeri gəlmişkən, nağılların birində deyilir ki, gözəl qızı əjdahaya ərə verirlər, amma o, durumla barışmaq istəmir. Axırda gözəl qızın əjdahanı sevməkdən başqa əlacı qalmır. İndiki halda, AŞ-nin saytında yayımlanmış məqalədə Ermənistan həmin “gözəl qız”dır. Ölkənin “daxili sabitliyinin daim təhdid altında” qalması isə onun məcburi izdivaca məhkum edilməsidir. Görünür, Avropada Ermənistanın Qərbdən uzaqlaşmasından qorxurlar. Əlbəttə, İrəvanın buna getməsi mümkündür. Amma təkcə ona görə yox ki, baş nazir Nikol Paşinyan administrasiyası özünün yarıtmaz siyasəti səbəbindən daimi təzyiq altındadır və Qərbin ona dəstək adı altında etdikləri sabun köpüyündən başqa bir şey deyil. O səbəbdən ki, erməni xisləti üçün belə “gedişlər” və xəyanət çox adi haldır.

***

Guya Türkiyə və İsraildən hərbi dəstək aldığı üçün Azərbaycanın Qarabağdakı hücuma hazırlaşmasının üç həftə çəkdiyinin vurğulandığı məqalədə ölkəmizin Ermənistanın Sünik bölgəsinə, yəni Zəgezura hücumunun reallaşmasının da təxminən eyni vaxt tələb etdiyi iddia olunub və bildirilib ki, birinci ssenari kimi, ikinci də İrəvan üçün dramatik nəticələr doğuracaq: “Ona görə ki, onun kövrək demokratiyası daxili narazılıqlar və Rusiyanın təzyiqi ilə təhdid ediləcək”.

Bəli, Ermənistanın “demokratiya qalası” obrazı formalaşdırılır. Əvvəldəki “səlibçilik” məntiqi artıq antidemokratik qüvvələrin demokratlara hücumu ritorikası ilə əvəzlənir. Bu yerdə növbəti təxribata baş vurulur. Bildirilir ki, Aİ regional aktorlara yaxın qonşuluğundakı sərhədlərin dəyişdirilməsinə icazə verərsə, onun etibarı əhəmiyyətli dərəcədə sarsılacaq, qurum çox ziyan görəcək və bu onun Ukraynanın ərazi bütövlüyünə sadiqliyini gözdən salacaq.

Üstəlik, Zəngəzur üzərindən quru dəhlizinin hərbi, yoxsa danışıqlar yolu ilə yaradılmasından asılı olmayaraq, orada Rusiya qoşunlarının nəzarətinin gerçəkləşməsi, Avropa üçün ciddi risklər formalaşdırır. “Bu, Türkiyə və Azərbaycanın Rusiyanın dəstəyi ilə Avropanı Mərkəzi Asiya və Çinlə əlaqələndirən əsas marşrutlardan biri olan Qara dənizi Xəzər dənizinə birləşdirən dəhlizə faktiki nəzarətini şərtləndirəcək. Avropa İttifaqı qısa, orta və uzunmüddətli çağırışları həll etməklə, belə bir ssenarinin qarşısını almaq üçün hərəkətə keçməlidir” kimi fikirlərin yer aldığı məqalədə Aİ-nin, ümumən Qərb dünyasının Ermənistan dirənişi baxımından üç hədəf müəyyənləşdirilir. Bunlardan birincisi, hərbi eskalasiyanın qarşısını almaqdır. İkinci vəzifə Ermənistanın müdafiə qabiliyyətinin gücləndirilməsidir. Mövcud xüsusda ölkənin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı təmsilçiliyi qabardılmaqla, bu təmsilçiliyin İrəvanın müdafiə qabiliyyətinin artırılmasına dəstəkdən imtina üçün bəhanə qismində qiymətləndirilməsinin zəruriliyi vurğulanır. Məqalədə Aİ üçün müəyyənləşdirilmiş üçüncü hədəf isə Azərbaycan–Ermənistan sülh nizamlanmasına dəstək məqsədi ilə tədbirlər görməkdir.

***

Sonda bir daha vurğulayaq ki, hazırda bütövlükdə Qərb Ermənistanı müdafiə trendinə qoşulub və mövcud prosesdə əsas məqam dünyanın diqqətini Ermənistan üzərinə yönəltməklə, Cənubi Qafqaz müstəvisindəki qlobal maraq və mənafelərin təmin edilməsidir. Haqqında söz açdığımız məqalənin məzmunundan da göründüyü kimi, bunun üçün mütərəqqi dəyərlər tapdanır, normalar gözlənilmir.

**Ə.RÜSTƏMOV**
**XQ**

# ABŞ-ın Türkiyəyə Qarabağ şərtindəki amirlik amili

## Vaşinqton bu gün də Ankaraya qarşı “erməni kartı” ilə oynayır

**Dünən ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevə və Ermənistanın baş naziri Nikol Paşinyana zəng edərək, ölkəsinin Bakı-İrəvan sülh tənzimləməsinə önəm verməsindən, danışıqları dəstəkləməsindən söz açıb. Yəni, cənab Blinken son zamanlar ənənəvi olaraq səsləndirdiyi fikirləri yenidən dilə gətirib. Söhbətimiz, bilavasitə, bu barədə deyil. Nə də ümumən Qərbin Azərbaycanla Ermənistan arasındakı sülhyaratma prosesində iştirakından söz açmaq niyyətindəyik. Məqsədimiz Vaşinqtonun davamlı olaraq özünü göstərən riyakarlığı barədədir. Fikrimizi əsaslandırmaq üçün Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) sözçüsü Ömər Çəlikin bir neçə gün əvvəlki açıqlaması üzərində dayanacağıq.**



***

Məlum olduğu kimi, cənab Çəlik ABŞ-ın F-16 qırıcı təyyarələrini Türkiyəyə vermək üçün ölkəyə şərt qoyduğunu vurğulamışdı. Şərt isə Azərbaycan imiş. Daha doğrusu, sən demə, Birləşmiş Ştatlar Türkiyədən Azərbaycana Qarabağın azad edilməsi üçün verdiyi dəstəyi kəsməsini tələb edibmiş.

Əlbəttə, ilk baxışdan, ağıla gəlməyən yanaşmadır. O boyda ölkənin tələbinə baxın. Ancaq qətiyyən təəccüblənmirik. Hazırda kollektiv Qərbin ermənipərəstliyindəki yüksək fazanı nəzərə alsaq, Türkiyəyə qarşı belə bir sərsəm iddianın irəli sürüldüyünə qətiyyən şübhə yeri yoxdur.

***

Əvvəla, Türkiyə istər 44 günlük müharibə zamanı, istərsə də ondan sonra daim Azərbaycanın yanında dayansa da, bu, yalnız mənəvi və siyasi dəstək xüsusunda özünü göstərmiş hadisədir. Doğrudur, qardaş ölkənin pilotsuz uçuş aparatları Azərbaycan Ordusunun arsenalında mühüm yeri tutmaqdadırlar. Ancaq Ordumuzda hansı ölkənin silahlarından yoxdur ki? Necə deyərlər, puluna minnət. Biz Ermənistan kimi miskin durumda deyilik ki, kimlərinsə alətinə çevrilib silahlandırılaq! Öz vəsaitimiz hesabına silah almışıq və onu da haqq işimiz naminə istifadə etmişik. Edəcəyik də.

Belə çıxır ki, ABŞ Azərbaycanın haqq işini əngəlləmək yolu tutubmuş və buna görə də Türkiyəyə təzyiq göstəribmiş. Əslində, məsələnin özü də tanış mənzərədir. İş ondadır ki, indi də Qərb, o cümlədən ABŞ Türkiyə vasitəsilə Azərbaycan–Ermənistan danışıqlarına təsir göstərməyə çalışır. Hesab edir ki, Ankara Ermənistan bazarına şirniklənib Bakını hansısa məsələlərə razı salmaq istəyəcək. Üstəlik, Vaşinqtonda belə düşünürlər ki, Türkiyə regional güc kimi Zəngəzur dəhlizinin Ermənistan ərazisindən, İrəvanın yurisdiksiyası əsas götürülməklə, keçməsi istiqamətində də Azərbaycanı razı salmaq potensialındadır. Çox güman, mövcud xüsusda qardaş ölkəyə ünvanlanmış müəyyən qapalı mesajlar da var.

***

Elə AKP-nin ali təmsilçisi Ö.Çəlikin fikirləri də qapalı mesaj təsiri bağışlamaqdadır. Bu mesajın dar siyasi auditoriya çərçivəsində irəli sürüldüyü aydındır. Heç şübhəsiz, cənab Çəlikin indi onun barəsində söz açmasında da müəyyən səbəblər var. Hər halda mümkündür ki, Türkiyə beynəlxalq aktorlara Azərbaycanın onun üçün necə böyük əhəmiyyət kəsb etdiyini bir daha göstərmək niyyətindədir. Elə Birləşmiş Ştatlar rəsmilərinin də diqqəti yenidən bu məsələyə yönəltmələrində böyük fayda var. Bəlkə məsələnin mahiyyətini duyub “erməni sevdasından” əl çəkərlər. Daha doğrusu, Ermənistanı alətə çevirib Cənubi Qafqazda qlobal oyunlar qurmağı kənara qoyarlar...

Əlqərəz, cənab Çəlikin açıqladığı məsələ ABŞ-ın nəinki haqq və ədalətə, eyni zamanda, müttəfiq və tərəfdaş anlayışına baxışını ifadə edən, kifayət qədər, ciddi məqamdır. Deməli, ölkə üçün bu anlayış yoxdur. Çünki Birləşmiş Ştatlar özünü hegemon sayır. Elə hesab edir ki, hamı ilə təzyiq dilində danışmaq kimi müstəsna səlahiyyəti, yaxud imtiyazı var. Görəsən nədən? Ölkə iqtisadi və hərbi qüdrətinəmi güvənir? Əlbəttə, güvənməsi normaldır, ancaq, bu, o deməkdirmi ki, hərbə-zorbalıq edə bilər? Məgər, Birləşmiş Ştatlar hər öküz üçün konserva qutusu aqibətinin labüdlüyünü görmürmü? Yoxsa, ABŞ Vyetnam müharibəsində məğlubiyyətə uğrayıb rüsvayçılıqla üzləşəndə, dünyanın super gücü deyildi? Eyni statusda idi, ancaq böyük uğursuzluq yaşadı. Deməli, dünyada heç də hər şeyi gücün həll etmədiyi anlar da olur. Bəlkə, Ağ ev rəsmiləri gücün siyasətlə vəhdət təşkil etməli olduğuna dair Amerika fikir adamlarının, mütəfəkkirlərinin yazdıqları kitabları oxumayıblar? Nə desən mümkündür. Görünür, ABŞ, necə deyərlər, mizan-tərəzini itirib.

Bəli, indiki durumda heç bir ölkənin, o cümlədən ABŞ-ın Türkiyə ilə təzyiq dilində danışacaq əzmi yoxdur. Elə Azərbaycanla da. Bunu Vaşinqtonda nə qədər tez dərk etsələr, bir o qədər yaxşıdır. Yeri gəlmişkən, bu dərketmə Qərbin durmadan əzizlədiyi Ermənistan üçün də faydalıdır. Bilavasitə Birləşmiş Ştatların F-16 və F-35 qırıcı təyyarələrini Türkiyəyə verməkdən imtinasına gəlincə, bunun konkret səbəbləri var. Əlbəttə, üzdə olan və populyar səbəb hər kəsə yaxşı məlumdur. Türkiyəyə “Patriot” raketləri verməyən ABŞ ölkənin öz müdafiəsi üçün Rusiyadan S-400 hava hücumundan müdafiə sistemləri almasına qarşı çıxmış, mövcud səbəbdən Ankaranı F-35 istehsal proqramından çıxarmışdı.

Ancaq burada başqa bir səbəb də var. Bir sıra hərbi ekspertlər çox inamla bildirirlər ki, Türkiyə artıq istər F16-lar, istərsə də F-35-lər üçün lazım olan ehtiyat hissələrinin böyük qismini özü istehsal edir. Bu isə ölkənin həmin komponentlər üzrə milli döyüş təyyarəsi istehsalını gerçəkləşdirməsi deməkdir. Son illər qardaş ölkənin hərb sənayesinin, xüsusən də qırıcı təyyarə istehsalı sahəsindəki uğuru da haqqında söz açdığımız irəliləyişin bariz göstəricisidir. Heç şübhəsiz, ABŞ-da bundan xəbərdardırlar. Axı, Birləşmiş Ştatların müttəfiqi Türkiyəyə münasibətdəki ikiüzlülüyünün arealı genişdir. Ona görə məsələyə, yəni ümumən Ankaranın güclənməsinə münasibətdə qısqanclıq hökm sürür. Deməli, Azərbaycana yardımla bağlı duruma fokuslanmaq Vaşinqton üçün yalnız bəhanə və siyasi gediş mahiyyəti daşıyıb. Həm də uğursuz gediş.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Ağ ev “val”ı dəyişir

## Təhdid və hədələrə Bakıdan sərt mövqe görən Vaşinqton əvvəlki ampluasına qayıdır

(əvvəli 1-ci səhifədə)

### Azərbaycana təzyiq faydasızdır

Dövlətimizin başçısı A.Blinkenə Azərbaycan XİN-in noyabrın 16-da Konqresdəki anti-Azərbaycan dinləmələri ilə bağlı açıqlama verdiyini xatırladaraq, bu müstəvidə rəsmi Bakının mövqeyini tam açıqlığı ilə Ağ ev rəsmisinin diqqətinə çatdırıb.

Məhz Azərbaycan XİN-in məlum bəyanatı, onun ardınca Bakının Ermənistan və Azərbaycan arasında sülh danışıqlarındaı ABŞ-ın vasitəçiliyindən imtinası supergücü tutduğu yanlış mövqedən geri çəkilməyə məcbur etdi. Bakı bununla həm də bir həqiqəti Vaşinqtonun nəzərinə çatdırmış oldu ki, heç kəs, heç bir qüvvə Azərbaycanla hədə və təzyiq dili ilə danışa bilməz. Bu aksiom Azərbaycanın Avropa İttifaqı, Fransa ilə münasibətlərində də öz təsdiqini tapıb. Yəqin Qərbin ermənipərəst dairələrinin qarşısında Bakının nümayiş etdirdiyi qətiyyət və prinsipiallıq, ədalətli mövqeyini sona qədər israrla müdafiə etmək bacarığı okeanın o tayındakıların da diqqətindən yayınmayıb.

İndi Ağ ev Azərbaycanla münasibətlərinə səbəb–nəticə əlaqələri, təsir–əks təsir münasibliyi kontekstdən çıxış edərək baxmağa məcbur oldu. Bəli, Blinkenin telefon zəngini Vaşinqtonun Bakı ilə təhdid və hədə dilində danışmağın səmərəsizliyini başa düşməsi kimi dəyərləndirmək olar. “Demokratiyanın beşiyi” sayılan supergücün bu niyyətində nə dərəcədə səmimi olduğu yaxın vaxtlarda üzə çıxacaq. Hər halda, Vaşinqtonun Ermənistanla bağlı Azərbaycana münasibətdə hərbi ritorikadan “diplomatik leksikona” keçid aldığı göz qabağındadır.

### Tələb yox, xahiş qəbul olunur

ABŞ Senatı və Konqresinin bugünədək qəbul etdiyi qərarların Prezident tərəfindən təsdiqlənmədiyinə dair xeyli nümunə var. 15 noyabr dinləmələrində Konqresin alt komitəsinin Azərbaycana qarşı “Azadlığa dəstək Aktı”na 907-ci düzəlişin qüvvədə saxlanması qərarının da Ağ evdə təsdiqlənəcəyi artıq sual altına düşür. Necə ki, ABŞ-ın Azərbaycana münasibətdə yüksək səviyyəli ikitərəfli görüş və təmasları təxirə salması, “ikitərəfli münasibətlər əvvəlki kimi ola bilməz” xarakterli bəyanatını nəzərə alan Bakı bunu qarşı adekvat cavab vermişdi. Prezident İlham Əliyevlə telefon söhbətinin gedişində Dövlət katibi Antoni Blinken dövlətimizin başçısından ikitərəfli münasibətlərin normallaşdırılması məqsədilə dekabrda köməkçisi Ceyms Obrayenin Azərbaycana səfərinə icazə verilməsini xahiş edib. İlham Əliyev Blinkenin bu təklifi ilə bir şərtlə razılaşıb ki, həmin səfərdən sonra Konqresin Azərbaycanın yüksək çinli rəsmilərinin ABŞ-a səfərlərinə qoyulan əsassız qadağa aradan qaldırılsın. Dövlət katibi Prezidentimizin şərtini qəbul edib.

Yəni, bu jesti ilə İlham Əliyev Azərbaycanla bərabərhüquqlu tərəfdaş kimi davranan, diplomatik etiketə riayət edən hər bir ölkə ilə əməkdaşlığa hazır olduğunu növbəti dəfə nümayiş etdirmiş oldu. Yeri gəlmişkən, Konqresdəki dinləmələrdə Qarabağı tərk etmiş ermənilərlə bağlı ölkəmizin ünvanına heç bir fakta və sübuta söykənməyən ittihamlar səsləndirən həmin Ceyms Obrayen dünən keçirdiyi mətbuat konfransında “Hər iki tərəfin bir-biri ilə birbaşa və vasitəçilərlə danışıqlar aparması bizi ruhlandırır. Azərbaycan və Ermənistan arasında sülhə nail olmaq üçün real imkan görürük” – formasında “yumşalmış mövqe” nümayiş etdirib.

Kommunikasiyaların qarşılıqlı şəkildə açılması məsələsinə toxunan C.Obrayen bir az da irəli gedərək, Mərkəzi Asiyadan ticarət yolunun Azərbaycan və Ermənistandan Türkiyəyə keçərsə, bunun həmin marşrutun üzərində yerləşən bütün ölkələrin inkişafına əhəmiyyətli təkan olacağını söyləyib. Məlum telefon danışığına münasibətini bildirən Obrayen Vaşinqtonla Bakı arasında mövcud fikir ayrılıqları və Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahimlə son görüşün məzmunu barədə açıqlama verməkdən yayınıb.

### İrəvan yenə bəhanə axtarır

Kaliforniyada güclü erməni lobbisinin mövcudluğu, onun anti-Azərbaycan siyasətinə ölkənin qanunverici orqanlarında “züytutanların” olduğunu nəzərə almaqla deyə bilərik ki, ABŞ dövlətinin mövqeyini heç də Senat və Konqres ifadə etmir. Bu səlahiyyət və missiyanın Prezidentə və Dövlət Departamentinə məxsus olduğu hamıya bəllidir. İndiki məqamda Ağ evin parlamentin “günahını yumağa çalışması”, Azərbaycanla münasibətləri normallaşdırmaq cəhdləri başadüşüləndir. Axı, ABŞ-ın Cənubi Qafqazda strateji maraqları var. Ağ ev həmin maraqları reallaşdırmağın tək yolunun bölgədə güc və söz sahibi sayılan Azərbaycandan keçdiyinin artıq fərqindədir. Yəqin Vaşinqton isteblişmenti Qafqazın nə Yaxın Şərq, nə də Şərqi Avropa olmadığını da tam anlayıb.

İlham Əliyev Antoni Blinkenlə telefon söhbətində, həmçinin İrəvan və Bakı arasında birincinin günahı ucbatından dalana dirənmiş sülh danışıqlarına da toxunub. Azərbaycanın Ermənistanla ikitərəfli dialoqa açıq olduğunu söyləyən dövlətimizn başçısı qeyd edib ki, sülh müqaviləsinin mətni ilə bağlı Bakının 2023-cü il sentyabrın 11-də İrəvana təqdim etdiyi təklifləri Ermənistan tərəfi noyabrın 21-də cavablandırıb. Yəni, Ermənistanın cavabı yetmiş gün gecikdirməsi bir daha onu göstərir ki, qarşı tərəf sülh müqaviləsinin mətnindən danışıqlar prosesini uzatmaq üçün bəhanə kimi istifadə edir. “ABŞ Dövlət katibi Prezident İlham Əliyevin Azərbaycan və Ermənistan arasında davamlı və şərəfli sülh sazişi bağlamaq istəyini alqışlayıb. Dövlət katibi on illərlə uzanan münaqişənin həm azərbaycanlıların, həm də ermənilərin iztirabına səbəb olduğunu qeyd edib və sülhün regiona gətirəcəyi faydaları vurğulayıb”. ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller bu sözləri Bakı və Vaşinqton arasında telefon danışığını şərh edərkən söyləyib. Miller Dövlət katibinin telefon danışığında Azərbaycanla mövcud güclü əlaqələrin perspektivi ilə yanaşı, son zamanlar ikitərəfli münasibətlərdə narahatlıq doğuran məsələlərin də müzakirə olunduğunu qeyd edib.

Aydın məsələdir ki, Ağ ev rəsmisi bu zaman son vaxtlar ABŞ–Azərbaycan münasibətlərində müşahidə olunan gərginliyin əsas səbəbkarının və baiskarının məhz Ermənistan olduğunu deməyi “unudub”.

### Cənubi Qafqaz böyük güclərin poliqonu deyil

Postsovet məkanında böyük oyunların ssenari müəllifi kimi çıxış etdiyi şübhə doğurmayan Ağ evin Azərbaycanla münasibətlərində səhnə arxasında saxlamağa çalışdığı ikiüzlü yanaşmasını nəzərdən qaçırmaq olmaz. Bu yanaşma bəzən Vaşinqtonun Türkiyə və Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələrinə münasibətində də özünü büruzə verir. Cənubi Qafqazı Rusiyanın və İranın təsir dairəsindən çıxarmağı, bölgədə özünün hegemonluğunu yaratmağı hədəfləyən ABŞ məqsədinə çatmaqdan ötrü Ermənistandan “mövsümi alət” kimi istifadə etməkdənsə, Azərbaycanla bərabər və faydalı tərəfdaşlıq əlaqələrinə malik olmanın vacibliyini anlamış kimi görünür. Amma bir faktı da unutmaq olmaz ki, Vaşinqton postsovet məkanı sayılan bölgəyə tək deyil, avropalı şərikləri, xüsusilə, NATO-dakı müttəfiqləri vasitəsilə daxil olmağa çalışır. Bu zaman Vaşinqton həm şimal, həm də cənub qonşuları ilə normal və balanslaşdırılmış siyasətə sadiq qalan Azərbaycanın mənafeyinə toxuna biləcək addımlardan yan keçməli olduğunu unutmamalıdır. NATO-çuların bölgəyə gəlişini isə nə Rusiya, nə də İran arzulayır. Məhz bu müstəvidə Bakının Vaşinqtonla münasibətlərində sonadək aydınlaşdırmağı vacib saydığı incə məqamlar var. Yaxın və uzaq ölkələrlə sülhə və əməkdaşlığa açıq Azərbaycan heç bir halda böyük güclərin Qarabağ kartından “münasibətlərə aydınlıq gətirmələri” üçün istifadə etmələrinə yol verməyəcək. Eləcə də, qitələrarası nəqliyyat və enerji habına çevrilmiş, yüz milyardlarla dollar qazancın dövr edəcəyi və həm də bununla supergücləri özünə cəlb edən Azərbaycan Cənubi Qafqazı daha bir hərbi qarşıdurmanın poliqonuna çevirmək istəyənlərin arzularını gözündə, niyyətlərini ürəklərində qoyacaq. Bundan ötrü Azərbaycanın gücü və iradəsi yetər. Elə Vaşinqtondan Bakıya edilən telefon zəngi bu gücün və iradənin etirafı kimi qəbul olunmalıdır.

***İmran BƏDİRXANLI***
***XQ***



#### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

**ABŞ-ın Azərbaycana qarşı səsləndirdiyi bəyanatlar, hədələr tamamilə məntiqsiz və mənasız idi. Kimlərinsə Azərbaycanı bu yolla özünə tabe etdirmək cəhdləri boşa çıxdı. Rəsmi Bakı birmənalı şəkildə dedi ki, əgər bizimlə normal münasibət saxlamaq niyyətin yoxdursa, super dövlət olmağına baxmayaraq, bizim də sənə ehtiyacımız yoxdur. Bu zaman anladılar ki, Azərbaycana hədələrlə, mənasız qərarlarla təsir göstərmək qeyri-mümkündür. Açığı, Vaşinqtonun bu bölgədə maraqları heç də Ermənistanla deyil, Azərbaycanla bağlıdır. Bəli, Ağ ev İrəvandan Bakıya qarşı alət kimi istifadədə maraqlıdır. Burada Avropa İttifaqı, Rusiya amilləri də var. Azərbaycan, sadəcə olaraq, bu vasitəni darmadağın etdi. Daha ondan Bakıya qarşı istifadə etmək səmərəsizdir. Deməli, reallıq Vaşinqtona özünün Cənubi Qafqaz siyasətinə korrektələr etməsini şərtləndirir. Yəni, Azərbaycanla münasibətləri dialoqdan hədə müstəvisinə keçirməməlisən.**

**Antoni Blinken praqmatik siyasətçidir. Anladı ki, erməni lobbiçilərin könlünü almaqdan ötrü qırmızı xətti keçiblər. ABŞ-dakı ermənilərin, eləcə də ermənipərəst konqresmenlərin xoşuna gəlmək üçün atdığı addımı indi minimuma endirməyə, Bakı ilə kommunikasiyanı saxlamağa çalışır. Blinkenin İlham Əliyevə zəngi məhz buna hesablanıb. Obrayen də Konqresdəki məlum çıxışından fərqli “mahnı oxuyur”. Ermənistan–Azərbaycan arasında ikitərəfli dialoqu alqışladığını bildirir. Axı Qarabağ erməniləri məhz İrəvanın yaramaz siyasəti nəticəsində bölgəni tərk etdilər. İddialarının əksinə olaraq, Bakının orada etnik təmizləmə aparmaq planı olmayıb. Bakı bununla həm də nümayiş etdirdi ki, bu bölgədə Azərbaycanla hesablaşmadan, sağlam və düzgün diplomatik münasibətlər qurmadan nəyəsə nail olmaq mümkün deyil.**

#### Ekspert rəyi



**Fikrət SADIXOV,**
**siyasi analitik**

**Antoni Blinkenin zəngi ona işarədir ki, Vaşinqtonda Cənubi Qafqazda böyük qüvvə kimi sülhün əldə olunmasının məhz Azərbaycandan asılı olduğunu başa düşüblər. Eyni zamanda, Ağ evdə əyləşənlər bununla Ermənistanı məcburiyyət qarşısında müdafiə etdiklərini boyunlarına almış olurlar. İndi belə bir mənzərə yarana bilər ki, Konqresin alt komitəsində Qarabağ məsələsinin müzakirəsi zamanı onlar öz mövqelərini bildirsələr də, Ağ evin gözlədiyi prioritetlər mövcuddur. Əslində, bunun həqiqətə nə dərəcədə uyğun olduğunu yaxın gələcək göstərəcək. İntəhası, bu, heç də o demək deyil ki, bir telefon zəngindən sonra Bakı Vaşinqtonun ayağına gedəcək. Yəni sülh danışıqlarının Virciniya platformasında iştirakını davam etdirəcək.**

**Əgər Konqres Azərbaycanın yüksək çinli məmurlarının ABŞ-a səfərlərinə qadağa qoyulması barədə qərar qəbul edirsə, əlbəttə ki, bu, dövlətimizin maraqları ilə daban-dabana ziddir. Azərbaycan bundan sonra da, heç nəyə baxmayaraq, özünün maraqları çərçivəsində hərəkət edəcək. Düşünürəm ki, cənab Blinken Bakının bununla bağlı mövqeyini Azərbaycanın rəhbərinin dilindən eşidib. Təbiidir ki, Ağ ev rəsmisi də bundan düzgün nəticə çıxarmalıdır.**

REPLİKA

# Ermənistan prezidentinin “Ostap Benderliyi”

## *Xaçaturyanın qəzəbə tuşgəlmə səbəbləri*

**Baş nazir Nikol Paşinyanın kölgəsində qalan Ermənistan prezidenti Vaaqn Xaçaturyan ayda-ildə bir dəfə üzə çıxması ilə gündəm yaradıb. Əlbəttə, söhbət onun özünü mənfi tərzdə göstərməsindən gedir. Bu mənada Xaçaturyan prezident yox, “12 stul”un məşhur personajı Ostap Benderdir. Ostap Bender qəzetlərin onun atın altına düşüb əzilməsi barədə yazmasından qürrələnmişdi. Yəqin, erməni prezident də eyni hissləri keçirməkdədir - Ermənistanda media ondan yazır, ancaq həqarətlə.**



***

Bəli, aydındır ki, erməni jurnalistlər sualları ilə Paşinyanın əlində oyuncağa çevrilmiş Xaçaturyanı çətinə salıblar. Ümumən, ikincinin erməni mediasında yayılmış ürkək açıqlamasında iki aspekt var. Birincisi, Qarabağ erməniləri və bölgənin artıq canını tapşırmış separatçı rejimi, ikincisi Qarabağın Azərbaycan ərazisi olması.

Birinci aspektdən başlamazdan əvvəl bildirək ki, Azərbaycanın Qarabağda bu il sentyabrın 19-da keçirdiyi lokal xarakterli uğurlu antiterror tədbirlərindən sonra orada illərlə qərarlaşmış separatçı rejim özünü buraxdığını elan etmişdi. Rejimin rəhbəri Samvel Şahramanyan bununla bağlı “fərman imzalamışdı”. Məlum olduğu kimi, bundan sonra Qarabağdan Ermənistana kütləvi köç başlamışdı. Onu da yada salaq ki, bir müddət əvvəl həmin S.Şahramanyan təzyiqlər qarşısında qalaraq, bildirmişdi ki, heç kəsin “Dağlıq Qarabağ Respublikasını” ləğv etmək hüququ yoxdur, çünki bu quruluş, guya, ümumxalq referendumu ilə yaradılıb. Söhbət 1991-ci ildə keçirilmiş və Qarabağın yalnız erməni sakinlərinin qatıldıqları saxta “referendum”dan gedir.

Qeyd edək ki, “separatçıbaşı” bu fikirlərini bildirən zaman İrəvanda onun rəhbərlik etdiyi “quruluşa” ikiotaqlı mənzil-qərargah verilmişdi. Görünür, çoxları bu qərargahı dövlət aparatı kimi görürlərmiş. V.Xaçaturyana sual da məhz bundan qaynaqlanıb. Prezident isə bütün “ümidlərin” üstündən xətt çəkib və əslində, doğru olanı edib. Amma...

***

Hazırda Ermənistandakı bir sürü başıpozuq revanşist V.Xaçaturyanı məlum açıqlamasına görə qınamaqdadır. Söhbət onun separatçı rejimin “dövlət institutlarının” fəaliyyət göstərməsinə ehtiyacın duyulmadığına dair fikirlərindən gedir: “Ermənistanda “Artsax” dövlət institutları fəaliyyət göstərəcək? Onlar nə edəcəklər, hansı funksiyanı yerinə yetirəcəklər?. Ermənistan Respublikası var, onun institutları fəaliyyət göstərir. Ermənistan “Artsax” ermənilərinin hüquqlarını qoruyur”.

Ermənistanın Qarabağ ermənilərinin hüquqlarını necə qoruduğu aşkardır. Paşinyan administrasiyası onları alətə çevirib yaxşı pul qazanmaqla məşğuldur. Ölkəyə Qarabağın erməni əhalisinə yardım adı altında dünyanın müxtəlif yerlərindən külli miqdarda vəsait daxil olmaqdadır. Görünür, elə buna görə Paşinyan bir neçə gün öncəki canlı yayımında bildirmişdi ki, Qarabağ ermənilərinin bölgəyə qayıdışı qeyri-realdır. Kim o qədər valyuta axınından imtina edər ki? Demək çətindir ki, Nikol həmin axından ölkə prezidentinə də xırda-mırda nə isə verir, ya yox, amma ikinci də söylədikləri ilə erməni sakinlərin Qarabağa dönüşü məsələsini şübhələndirməkdədir. Halbuki, ona ünvanlanmış sual kifayət qədər konkret məzmun daşımışdı: Ermənistan Respublikası “Artsax” sakinlərinin geri qayıtmalarına necə töhfə verir?” Hər ehtimala V.Xaçaturyanın cavabını da xatırladaq: “Bu, artıq müzakirə mərhələsindədir”.

Göründüyü kimi, Ermənistan prezidenti nə dediyini özü də bilmir. Heç şübhəsiz, barəsində danışdığı müzakirələrdən də xəbərsizdir. Görünür, bu səbəbdən jurnalistlər sualları ilə onu bir qədər də çıxılmaz vəziyyətə salıblar. Nəticədə Xaçaturyan məcbur olub, belə demək mümkünsə, paşinyanlıq etmək qərarına gəlib. Deyib ki, Ermənistan Qarabağı hələ 1991-ci ildə Azərbaycanın tərkib hissəsi kimi tanıyıb. Paşinyanlıqdan söz düşmüşkən, Nikol da 44 günlük müharibədən sonra bu fikri bir dəfə dilə gətirmiş və gətirməyi ilə də tənqidlərə tuş gəlməyi bir olmuşdu. Opponentləri ona haqlı ritorik sual ünvanlamışdılar: Əgər 1991-ci ildə Ermənistan Azərbaycanın müstəqilliyini tanımışdısa, ölkə nə üçün Azərbaycanla iki müharibə aparmışdı? Elə indi də erməni jurnalistlər V.Xaçaturyana, təxminən, eyni sualı ünvanlayıblar. Amma bir qədər fərqli tərzdə. Onlar ölkə prezidentindən nəyə görə Azərbaycanın otuz il müddətində Qarabağı almadığını soruşublar. Xaçaturyan isə suala əsl erməni kimi cavab verib. Təxminən belə: Alaydılar, yəqin ala bilməyiblər.

***

Qeyd edək ki, Ermənistan prezidentinin bu cavabı nəinki Ermənistanın, bütövlükdə dünya erməniliyinin Qarabağ direnişinin nə qədər saxta və mənasız olduğundan xəbər verməkdədir. Belə çıxır ki, bölgə ilə bağlı qurulmuş bütün ideoloji təbliğatlar sabun köpüyündən başqa bir şey deyilmiş. Ən əsası isə Xaçaturyanın bu tərzdə fikir bildirməsi, aşkar işğalçılıq mahiyyətinin yenidən təsdiqidir. Bəli, bir daha sübut olunur ki, Qarabağ Ermənistan üçün yalnız və yalnız ərazi iddiasına köklənmiş sərsəm avantüradır. Mövcud durumda Xaçaturyanın yüksək dövlət rəsmisi kimi verdiyi cavab isə miskinlikdən başqa bir şey deyil. “Alaydılar, ala bilməyiblər” tipli yanaşma əclafcasına səslənmiş fikirdir. Əslində, Ermənistan prezidenti adını daşıyan şəxs özündə cəsarət tapmalı və həqiqəti deməli idi. O, etiraf etməli idi ki, ölkəsi otuz il ərzində böyük səhvə yol verib.

Bu yerdə yada bir müddət əvvəl dünyasını dəyişmiş məşhur erməni hüquq müdafiəçisi Georgi Vanyanın fikirləri düşür. Ermənilərin azərbaycanlılarla dostluq şəraitində yaşamalarının fəal təbliğatını aparan Vanyan Qarabağ münaqişəsinə görə həmvətənlərinin üzr istəməli olduğunu bildirirdi. Qeyd edək ki, o, belə pozitiv yanaşmasına görə ölkəsində təhqir və təqib edilirdi. Bu cür nalayiq rəftardan canını qurtarmağa çalışan Vanyan Gürcüstana köçmüşdü. Elə orada da vəfat etmişdi. Görünür, Xaçaturyan haqqında söz açdığımız hüquq müdafiəçisinin taleyini yaşamaq istəmədiyindən, özünü axmaq yerinə qoymağa üstünlük verib.

***R.ƏVƏZ***
***XQ***

Prezident sərəncam imzalayıb

# Qarabağ Universiteti bölgənin elmi-mədəni mərkəzi olacaq

**Prezident İlham Əliyevin bununla bağlı dünən imzaladığı sərəncamda bildirilir ki, Qarabağ regionunda ali təhsil ənənəsi tarixən mövcud olmuşdur. Burada ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulmuş, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərmiş, ərazilərimizin işğalı dövründə isə fəaliyyətini dayandırmışdır.**



Sənəddə daha sonra qeyd edilir ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, həmin bölgələrin yenidən qurulması, dayanıqlı inkişafı və yüksək həyat səviyyəsinin təminatı üçün genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Zəruri tədbirlərdən biri də "Qarabağ Universiteti"nin yaradılmasıdır. Qarabağda yüksəkixtisaslı kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisəsinin təşkili azadlığına qovuşmuş ərazilərin iqtisadi potensialı, eləcə də əmək bazarının tələbləri baxımından son dərəcə vacibdir.

Sərəncamla Nazirlər Kabinetinə 2 ay müddətində yeni universitetin nizamnaməsini təsdiq etmək, onun fəaliyyətinin maliyyələşdirilməsi ilə bağlı zəruri tədbirlər görmək, ali məktəbin Xankəndi şəhərində torpaq sahəsi, tədris və yataqxana binaları, idman meydançası və digər infrastruktur obyektləri ilə təminatı məsələlərini, eləcə də sərəncamdan irəli gələn digər məsələləri həll etməklə bağlı tapşırıqlar müəyyən edilib.

Torpaqlarımızın işğaldan azad edilməsi, Qarabağa qayıdışla bağlı cəmiyyətdə arzu, rəy və təkliflər sırasında bölgədə universitet yaradılması da tez-tez səslənirdi. Nəhayət, Qarabağı xalqımıza qaytarmış qalib Komandan, dövlət başçısı cəmiyyətin bu istəyini də gerçəyə çevirdi. Redaksiyamıza ölkəmizdən və xaricdən daxil olmuş operativ materiallarda müxtəlif peşə sahiblərinin bu xəbərlə bağlı sevinci və dövlət başçısına minnətdarlığı ifadə olunub.

**Millət vəkili Ceyhun Məmmədov bildirib ki, hazırda ən önəmli məsələlərdən biri 44 günlük "Zəfər yürüşü" ilə qazanılmış qələbənin möhkəmləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə reinteqrasiya, bərpa və quruculuğu sürətləndirməkdir:**

– Bu gün qarşımıza mühüm hədəf və məqsədlər qoymuşuq. Bölgələrdə yeni universitetlərin yaradılması Bakıda sıxlığın qarşısını nisbətən almağa kömək edə biləcək. Xankəndidə təsis edilən Qarabağ Universitetində bütün sahələr üzrə mütəxəssislərin yetişdirilməsinə isə ayrıca önəm verməliyik. Geniş kampuslu müasir təhsil müəssisəsinin yaradılmasına ehtiyac var. Beynəlxalq səviyyəli bir universitetin yaradılması üçün dövlət başçısı İlham Əliyev hökumətə zəruri tapşırıqlar verib. İnanırıq ki, bu tədbirləri sürətlə həyata keçirməklə bir neçə dildə fəaliyyət göstərəcək universtitet yaradılacaq, xarici ölkələrdən də bu ali məktəbə tələbələr cəlb ediləcək.

Bu gün hər bir azərbaycanlının ürəyi Qarabağla döyünür. Əminəm ki, gənclər Qarabağ Universitetində təhsil almaq istəyəcəklər, çünki hər birimizin istəyi Qarabağın azad edilməsi idi. Arzumuza çatmışıq və çox önəmli mərhələyə daxil olmuşuq. Bu, yeni imkanlar və fürsətlər yaradacaq. Azərbaycan gəncləri isə Qarabağ Universitetinə daha böyük maraq göstərəcəklər. Xankəndidə müasir təhsil müəssisəsi yaradacağımıza inanıram.

**Milli Məclisin deputatı Arzu Nağıyev isə deyib ki, Qarabağ Universiteti gələcəkdə perspektivli ali təhsil müəssisələri sırasında olacaq:**

– 44 günlük Vətən müharibəsində qazanılmış böyük qələbədən sonra əsas məsələ işğaldan azad edilmiş ərazilərə böyük qayıdışın təmin olunmasıdır. Azərbaycan işğal dövründə dağıdılmış maddi-mədəni irsi, tarixi abidələri, təhsil ocaqlarını və yaşayış yerlərini bərpa etməklə bu torpaqların kimə məxsus olduğunu bütün dünyaya bir daha sübut edir.

Böyük Qayıdış Dövlət Proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərə qayıdacaq sakinlərin ev, iş məsələlərinin həlli ilə yanaşı, təhsil almaq hüququnun təmin edilməsinə də ciddi fikir verilir. Ona görə də Qarabağ və işğaldan azad olunmuş digər ərazilərdə müxtəlif təhsil ocaqlarının yaradılması da mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri hesab olunur.

Ümumiyyətlə, tarixən Qarabağda elmə-təhsilə xüsusi qayğı göstərilib və daim bu məsələ diqqətdə saxlanılıb. Bu baxımdan ali təhsil müəssisəsinin ilk olaraq məhz Xankəndidə yaradılması xüsusilə vacib idi. Bu addım həm də regionda yüksək ixtisaslı kadrların hazırlanması baxımından olduqca əhəmiyyətlidir. Qarabağın sürətlə məskunlaşması və yüksək inkişafı baxımından Xankəndi Universiteti önəmli missiya daşıyır, gələcəkdə isə perspektivli ali təhsil müəssisələri sırasında yer alacaq.

Deyilənlərə əlavə olaraq bildirək ki, regionda modern universitet modelinin bənzərsiz nümunəsi olacaq Qarabağ Universiteti bölgədə, eləcə də ölkəmizdə insan kapitalını formalaşdıracaq yeni ali təhsil müəssisəsi kimi həyatımıza daxil olur. Bəs Qarabağ Universiteti yaradılarkən hansı qlobal trend və çağırışlar nəzərə alınmalıdır?

**Kembric Universitetinin professoru, soydaşımız Qərib Mürşüdov bununla bağlı bildirib:**

– Xankəndidə yeni universitetin yaradılması çox müdrik və gərəkli bir addımdır. Bu, həm Qarabağ rayonlarının inkişafına təkan verəcək, həm də bu təhsil və elm müəssisələrinin böyük şəhərlərdən kənara çıxarılmasına imkan yaradacaq. Mənim əsas marağım və təcrübəm texniki elmlərlə bağlı olduğu üçün Qarabağ Universiteti barədə fikirlərim bu istiqaməti əhatə edir. Mən Qarabağda bir güclü universitet və beynəlxalq elm-təhsil mərkəzi görmək istərdim. Universitetin elmi konfrans mərkəzləri Şuşada yerləşə bilər.

Dünyada bir neçə qlobal problem var. Bunlara enerji, iqlim dəyişikliyi, səhiyyə və insanlar ilə texnologiya arasında məsafənin böyüməsi kimi məsələlər aiddir. Mən bura həmçinin müxtəlif ölkələrdə tarixin pis öyrədilməsini və bu istiqamətdə ətraflı tədqiqatın olmamasını da əlavə edərdim. Qafqazda bu problem özünü daha qabarıq göstərir. Yeni universitet bu istiqamətlərin bir neçəsini nəzərə ala bilər. Həmin istiqamətlərin hər birinə əsas təsir edən kompüter elmləri, statistika və maşın öyrətmə sahələridir.

Ona görə ən birinci istiqamət bu sahələr olsa, onlar ətrafında müxtəlif istiqamətləri inkişaf etdirmək olar. Biotibbi mərkəzin yaradılması da yaxşı nəticələr verər. Bu, həm də güclü biologiya, təbabət fakültələri və xəstəxana olmasını tələb edir. Yeni universitetdə tədqiqata əsaslanan təhsil güclü mütəxəssislərin yetişdirilməsinə imkanlar yaradar. Əgər bu istiqamətdə getmək mümkün olarsa, onda texnologiya sənayesi və təhsilin inkişafı eyni zamanda həyata keçirilə bilər.

**Kanadanın Vaterloo Universitetinin professoru İlham Axundov qeyd edib ki, Kanada universitetlərinin bu bölgədə iştirakını təmin edə bilərik:**

– Qloballaşma dövründə universitetlərin formalaşması və transformasiyası bir çox cəhətdən qlobal trend və çağırışlar nəzərə alınmaqla baş verir. Universitetlər tələbələrini bu gün üçün yox, yaxın gələcək üçün hazırlamalıdırlar. Qarabağda yaradılan universitetin müasir reallıqlar dövründə əsas missiyası və hədəflərinə gəlincə, vacib məqsədlərdən biri kimi bölgəyə qayıdışın miqyas və perspektivini nəzərə alaraq bu yeni universitet üçün aşağıdakı iki optimal yolu təklif edirik: Meqa-layihə, həmçinin kollec və universitet təhsilinin yeni üstünlüklərindən faydalanaraq çevik bir təhsil proqramı hazırlamaq; 2 il kollec + 2 il universitet. Kolleci müvəffəqiyyətlə bitirən tələbələr universitetdə təhsillərini davam etdirirlər. İlk açılış proqramları isə texnoloji və maliyyə sektorları ola bilər.

**Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini Nadir İsrafilov da Qarabağ Universitetinin yaradılmasını sevinclə qarşılayıb və yüksək qiymətləndirib:**

– Qarabağda şəhərcikləri olan universitet yaradılır ki, tələbələr orada həm oxusunlar, həm də rahat yaşasınlar. Qarabağın sosial-iqtisadi inkişaf perspektivləri ilə bağlı vahid strategiya çərçivəsində çoxsahəli bir universitet nəzərdə tutulur. Bundan başqa, Qarabağda həmişə əkinçilik və maldarlıq inkişaf edib. Bu sahələrdə də kadr hazırlamaq lazımdır. Qarabağda universitetin açılması ixtisaslı kadrlar hazırlığını paytaxtdan bölgələrə yönəltmək işinə də ciddi dəstək olacaq.

Qarabağda təkcə ali təhsili deyil, həm də peşə təhsilini inkişaf etdirmək vacibdir. Texniki məktəblərdə və kolleclərdə kənd təsərrüfatı, inşaat və iqtisadi peşələrə tələbat olacaq, gələcəkdə turizm xidmətləri, tibb və s. sahələrdə kadrlara ehtiyac duyulacaq. Ümumiyyətlə, regionun coğrafi mövqeyi, digər regional xüsusiyyətlər nəzərə alınmalıdır.

**Təhsil üzrə ekspert Elçin Əfəndi Qarabağda universitetin yaradılmasının əhəmiyyətinə toxunaraq deyib ki, bu layihə bölgənin sürətli inkişafına təkan verəcək:**

– Biz Qarabağda elə bir ali məktəb yaratmalıyıq ki, beynəlxalq arenada rəqabətə davamlı ola bilsin. Bunun üçün peşəkar professor-müəllim heyəti formalaşdırılmalı, universitetin maddi-texniki bazası ən son texnologiyalar əsasında qurulmalıdır. Eyni zamanda, rəqabətqabiliyyətli ixtisasların açılması təmin edilməlidir. Universitetə peşəkar müəllimlər cəlb edilməli, əsasən Türkiyə və Avropa ölkələrində təhsil almış yüksəkixtisaslı kadrlara üstünlük verilməlidir.

**XQ**

# Azərbaycan nümayəndə heyəti Türkmənistanda



**Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyətinin Türkmənistana səfəri çərçivəsində iki ölkə arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 7-ci iclası keçirilib.**

Tədbirdə ölkələrimiz arasında güclü dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi diqqətə çatdırılıb. İkitərəfli münasibətlərdə mühüm rol oynayan iqtisadi-ticarət sahəsində intensiv inkişafın müşahidə olunduğu vurğulanaraq bildirilib ki, ötən il Türkmənistanla ticarət dövriyyəsi 5 dəfədən çox artıb, 2023-cü ildə də artım tendensiyası davam edib. Qeyd olunub ki, tədarük olunan məhsulların çeşidini genişləndirməklə ticarət dövriyyəsini daha da artırmaq üçün böyük potensial var. Bu baxımdan Türkmənistanla sənayenin müxtəlif sahələri, investisiya, enerji, gömrük, nəqliyyat, kənd təsərrüfatı, qida təhlükəsizliyi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və s. üzrə əməkdaşlıq imkanlarının yüksək olduğu diqqətə çatdırılıb.

Birgə Hökumətlərarası Komissiyanın həmsədri, Türkmənistanın Nazirlər Kabinetinin sədr müavini Batır Atdayev vurğulayıb ki, ölkələrimiz arasında müxtəlif sahələr üzrə qarşılıqlı faydalı əməkdaşlığın gələcək inkişafı üçün yaxşı perspektivlər var və Türkmənistan əlaqələrin dərinləşməsinə önəm verir.

Tədbirin sonunda Azərbaycan–Türkmənistan Birgə Hökumətlərarası Komissiyanın 7-ci iclasının yekunlarına dair protokol imzalanıb. Sənəddə ticarət, sənaye, energetika, nəqliyyat, aqrar və digər sahələrdə tərəfdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti "Agro Pack Turkmenistan 2023" beynəlxalq sərgisinin açılış mərasimində iştirak edib.

***

Aşqabadda Dövlət Neft Şirkətinin (SOCAR) Türkmənistandakı nümayəndəliyinin açılışı olub. Mərasimdə SOCAR-ın Müşahidə Şurasının sədri, iqtisadiyyat naziri Mikayıl Cabbarov, Türkmənistan Prezidentinin neft-qaz məsələləri üzrə müşaviri Aşırqulu Beqliyev, SOCAR-ın prezidenti Rövşən Nəcəf və iki ölkənin səfirləri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə ofisdə yaradılan şəraitlə tanış olublar.

Tədbirdə çıxış edən Mikayıl Cabbarov iki ölkə arasında əlaqələrin inkişafında Prezident İlham Əliyevin və Prezident Sərdar Berdiməhəmmədovun xüsusi rolunu vurğulayıb. Qeyd olunub ki, SOCAR-ın Aşqabadda nümayəndəliyinin açılması Türkmənistanla uzunmüddətli fəaliyyətin möhkəmləndirilməsinə, ölkələrimizin enerji sektorunda ortaq maraqlarının reallaşmasına inamın təzahürüdür. Cari ilin Azərbaycan xalqı üçün əlamətdar olduğunu qeyd edən nazir "Heydər Əliyev İli" çərçivəsində SOCAR-ın xaricdə ikinci nümayəndəliyinin açılmasının xüsusi əhəmiyyət daşıdığını ifadə edib.

Türkmənistan Prezidentinin neft-qaz məsələləri üzrə müşaviri Aşırqulu Beqliyev tədbirdə çıxış edərək nümayəndəliyin açılışı münasibətilə təbriklərini çatdırıb. O, nümayəndəliyin ölkələrimiz arasında enerji sektorunda əməkdaşlığın daha da genişləndirilməsinə dəyərli töhfə verəcəyinə əminliyini ifadə edib.

SOCAR-ın prezidenti Rövşən Nəcəf Türkmənistanda SOCAR-ın nümayəndəliyinin fəaliyyətə başlamasının əlamətdar hadisə olduğunu diqqətə çatdıraraq SOCAR və Türkmənistanın enerji şirkətləri arasında mövcud əməkdaşlıqdan bəhs edib.

***

Aşqabadda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO və Türkmənistanın Ticarət və Sənaye Palatasının birgə təşkilatçılığı ilə Türkmənistan-Azərbaycan biznes-forumu keçirilib.

Tədbirdə hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, sənaye, tikinti, logistika, qida sənayesi, kənd təsərrüfatı, kimya, maliyyə və digər sahələrdə fəaliyyət göstərən 60-a yaxın şirkət nümayəndəsi iştirak edib.

Biznes-forumda iqtisadiyyat naziri Mikayıl Cabbarov Türkmənistan və Azərbaycan arasında iqtisadi-ticarət münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini vurğulayıb. Bildirilib ki, investisiyaların təşviqi və qarşılıqlı qorunması, ikiqat vergitutmanın aradan qaldırılması, dövlət əmlakının idarə edilməsi, kiçik və orta sahibkarlıq sahəsində əməkdaşlığa dair mövcud sazişlər davamlı və səmərəli iqtisadi tərəfdaşlıq üçün möhkəm zəmin formalaşdırıb.

Türkmənistanın Nazirlər Kabinetinin sədr müavini Batır Atdayev Azərbaycanla iqtisadi-ticarət əlaqələrinin davamlı inkişafı üçün işgüzar dairələr arasında biznes əməkdaşlığının intensivləşməsinin vacibliyini ifadə edib.

**XQ**

# Arxiv sənədləri Türkiyədən Naxçıvana gətirilib



**Türkiyə arxivlərində Naxçıvan barədə qorunub saxlanılan sənədlər toplanaraq muxtar respublikaya gətirilib. Bununla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsində təqdimat keçirilib.**

Mərasimdə AMEA Naxçıvan bölməsinin sədri, akademik İsmayıl Hacıyev toplanan sənədlərin mühüm əhəmiyyətindən və materialların qorunub-mühafizə olunmasında arxivlərin rolundan danışıb. Alim qeyd edib ki, arxiv sənədlərinin tarixi faktların dəqiqləşdirilməsində, təhriflərin aradan qaldırılmasında rolu olduqca mühümdür. Buna görə də Naxçıvanla bağlı xarici arxiv sənədlərinin toplanması məqsədilə ötən ay bölmənin 2 əməkdaşı Türkiyənin Ankara şəhərində olub. Onlar axtarışlar nəticəsində 3 min səhifədən artıq 500-ə yaxın sənəd əldə ediblər.

Əvvəlki illərdə AMEA Naxçıvan Bölməsinin əməkdaşlarının London, Sankt–Peterburq və Tbilisi arxivlərindən materiallar topladığını bildirən bölmənin sədri gələcəkdə bu istiqamətdə nəzərdə tutulan işləri diqqətə çatdırıb. Daha sonra Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qədim və Orta əsrlər şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyev Türkiyə arxivlərindən böyük laborant Əli Tağıyevlə birgə əldə etdikləri sənədlər, həmin sənədlərin ümumi məzmunu və mahiyyəti haqqında məlumat verib.

Təqdimatda slayd nümayişi ilə toplanan sənədlərdən bəziləri haqqında geniş məlumat verilib. Bildirilib ki, Türkiyədəki arxivlərdən Naxçıvan tarixinin bütün dövrləri ilə bağlı materiallar toplanıb. Bu sənədlərdən ən qədimi XII əsrə aiddir.

Sonda akademik İsmayıl Hacıyev yeni arxiv materiallarını elektron variantda Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinə təqdim edib. İdarə rəisi Mehman Məmmədov təqdim edilən arxiv materiallarına görə minnətdarlıq edib. Mərasimdə yeni sənədlərin Naxçıvanın tarixi, mədəniyyəti, müxtəlif tarixi dövrlərdəki sosial-iqtisadi həyatı ilə bağlı araşdırmalara töhfə verəcəyinə əminlik ifadə olunub.

**XQ**

# Fövqəladə hallar könüllülərinin təqdimatı

**Noyabrın 28-də Fövqəladə Hallar Nazirliyi tərəfindən "Heydər Əliyev İli"nə həsr edilən fövqəladə hallar könüllülərinin təqdimat mərasimi keçirilib.**



Nazir, general-polkovnik Kəmaləddin Heydərov fövqəladə hallar könüllülərinin təqdimat mərasiminin xalqımızın və dövlətimizin tarixində çox əlamətdar vaxta – Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə təsadüf etdiyini məmnuniyyət hissi ilə qeyd edib.

Nazir bildirib ki, Ulu öndər Heydər Əliyev respublika rəhbərliyinə gəldiyi ilk dövrlərdən öz siyasətində daim gənclərə qayğı göstərib, sağlam gəncliyi milli inkişaf strategiyamızın tükənməz mənbəyi adlandırıb.

K.Heydərov qeyd edib ki, Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən hərtərəfli dövlət qayğısı ilə əhatələnmiş Azərbaycan gəncliyi bu gün cəmiyyətin inkişafında fəal sosial təbəqəyə çevrilməklə dövlətimizin parlaq gələcəyi üçün böyük səylə çalışır, sabitliyin, dinamik inkişafın qorunub saxlanılmasında yaxından iştirak edir.

Nazir vurğulayıb ki, gənclərə daim qayğı ilə yanaşan Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın dövlət gənclər siyasətinin həyata keçirilməsində göstərdiyi fədakarlıq, bilavasitə onun təşəbbüsü və rəhbərliyi ilə reallaşdırılan möhtəşəm layihələr müsbət nəticələrini verir.

Sonra Azərbaycan Gənclər Fondunun icraçı direktor vəzifəsini müvəqqəti icra edən Qədir Xəlilov Azərbaycan könüllülərinin fəaliyyəti barədə ətraflı məlumat verərək, "fövqəladə hallar könüllüləri proqramı"nın həyata keçirilməsinin könüllülər hərəkatının inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Daha sonra "Fövqəladə Hallar Könüllüləri" proqramının təqdimat və təlimləri barədə videoçarx nümayiş olunub, proqramın loqo və könüllülərin geyim formasının təqdimatı keçirilib. Fövqəladə hallar könüllülərini təmsil edən Ayla Aslanlı və Emin Ocaqverdiyev respublikamızda könüllülər hərəkatının yaradılmasında göstərilən diqqət və qayğıya görə dövlət başçısına təşəkkürlərini bildiriblər.

**XQ**

# “Azərbaycan hər şeyə sahib olmaq iqtidarında, Ermənistan isə hər şeyi itirmək riski ilə üz-üzədir!

**“Caliber.az” saytının siyasi təhlilçisi və eksperti Orxan Amaşovun ABŞ Dövlət Departamentinin keçmiş xüsusi müşaviri Pol Qoblla müsahibəsi**





**Orxan Amaşov: − Salam! Azərbaycan-Ermənistan sülh prosesi dayandırılıb: İndi Bakı Qərbin vasitəçiliyindən getdikcə daha çox məyus olur, İrəvan isə Moskva platformasında müzakirələrdə iştirak etmək istəmir. Qərblə Rusiya arasında qarşıdurma Cənubi Qafqaza adladığı belə bir vaxtda bəzi ekspertlər iddia edirlər ki, tərəflər arasında birbaşa ikitərəfli danışıqlar ən yaxşı və optimal həll yoludur. Əlbəttə, bunu söyləmək reallaşdırmaqdan daha asandır. Bugünkü qonağım ABŞ Dövlət Departamentinin keçmiş müşaviri Pol Qobldur.**

**Sizi görmək çox xoşdur, necəsiniz?**

**Pol Qobl:** – Yaxşı, sağ olun!

***− Çoxdandır görüşmürük. Sizinlə 2022-ci ilin iyunundakı son müsahibəmi yaxşı xatırlayıram. Əlbəttə, o zaman yerlərdəki şərait bugünkündən əsaslı şəkildə fərqlənirdi. İndi isə çox şey dəyişib. Başlıca dəyişiklik isə odur ki, sentyabrın 20-də Azərbaycan Qarabağın qalan ərazilərində də özünün suverenliyini bərpa etdi. 2025-ci ilə iki il qalmış, 2023-cü ildə siz Azərbaycan tərəfinin belə qəti tədbirlər həyata keçirəcəyini görə bilirdinizmi?***

− Əgər bir tərəfdən Azərbaycanın, digər tərəfdən Ermənistanın gücləri arasındakı disproporsiyanı nəzərə alsaq, bu imkan həmişə olub. Sonralar isə daha çox imkanlar oldu. Görünür, dünya ictimaiyyəti Rusiya-Ukrayna münasibətlərindən və Yaxın Şərqdəki vəziyyətdən belə qənaətə gəldi ki, güc tətbiq etmək tamamilə məqbuldur. Bu da yəqin idi ki, əgər Rusiya Ukraynaya müdaxilə etməsəydi və ya Yaxın Şərqdə müharibə alovlanmasaydı, Bakı öz ünvanına deyiləcək daha az tənqidlə qarşılana biləcək addımlar atmaqda çətinlik çəkərdi. Bu haqda çox danışmışam və yazmışam ki, əgər Ermənistan ciddi güzəştlərə getməsə, Azərbaycan son nəticədə yalnız güclərin disproporsiyasına görə yerlərdə qalib gələcək. Ona görə də bu baş verəndə mən təəccüblənmədim. Ermənistanın hər hansı addımı atmaq istəmədiyi və Ermənistanın beynəlxalq səviyyədə dəstəyi itirməsi faktını nəzərə alsaq, aydın idi ki, Azərbaycan bunu edəcək. Prezident Əliyev bunlardan istifadə etdi.

***− Siz belə bir iddia ilə razısınızmı ki, indi 2023-cü ilin noyabrına olan vəziyyətdə Qarabağ məsələsi həll edilib? Əlbəttə, Qarabağ ermənilərinin geri qayıtması və Qərb tərəfdən Azərbaycana təzyiqlər məsələsi qalır. Amma əsasən məsələ həll olunub. Siz bu fikirlə razısınızmı?***

– Yox, məsələ hətta sözdə də deyil. Nəzərə alaq ki, 100 min erməni Qarabağdan Ermənistana və başqa ölkələrə gedib, buna qədər isə 700 min azərbaycanlı oradan qaçmağa məcbur olub və indi geri qayıtmaq istəyir. Bu, gələcəyə kölgə salacaq. Düşünürəm, biz burada münaqişənin yalnız bir mühüm fazasının başa çatmasından danışırıq. Bütün bu çətinliklər 30 il əvvəl Azərbaycan ərazisində yaradılmış “Artsax” deyilən qurumla bağlı olub və bu çətinliklər hələ uzun müddət bizimlə qalacaq. Hər iki tərəfdən itkilər verən insanlar, onların doğmaları bununla, sadəcə barışmağa hazırlaşmırlar. Mən hesab etmirəm ki, biz yeni hərbi qarşıdurmadan və ya Azərbaycan ərazisində ermənilərin nəzarətində olmuş ərazilərin bərpa edilməsindən danışırıq. Əgər bütün bunlar Qarabağ münaqişəsinin bitməsi anlamına gəlirsə, o zaman deyə bilərik ki, bəli, biz buna nail olduq. Yox əgər kimsə desə ki, Qarabağ münaqişəsilə bağlı bütün məsələlər bitdi, bu doğru deyil. Mən dəfələrlə demişəm ki, Qarabağ münaqişəsi Cənubi Qafqazda xalqların və ərazilərin nizamlanması ilə bağlı olan böyük problemin bir hissəsi olub. Həll olunmamış problemlərdən biri Zəngəzur dəhlizi məsələsidir.

***– Biz bu haqda sonra danışacağıq...***

– Düşünürəm bütün bunlar Qarabağ böhranı ilə əlaqədardır. Bu, “Artsax”ın ərazisindən daha böyük ərazidir.

***– Yəni Siz deyirsiniz ki, münaqişənin bir fazası başa çatıb və tezliklə yenisi başlayacaq. 1990-cı illərin əvvəllərində, daha dəqiq desək, 1992-ci ilin yanvarında – Siz ABŞ Dövlət Departamentinin sovet millətləri üzrə xüsusi müşaviri vəzifəsindən istefa verəndən dərhal sonra Dövlət Departamentinə Qarabağ məsələsinin həllinin üç variantını təqdim etmisiniz. Birincisi, ermənilərin Qarabağdan çıxarılması, ikincisi, iki dövlət arasında döyüşlərin dayandırılması üçün Ermənistanla Azərbaycan arasında böyük səddin çəkilməsi, üçüncüsü isə, Qarabağın Ermənistana verilməsi. Sonra isə müxtəlif səbəblərə görə bu variantların həyata keçirilməsinin mümkün olmadığını bildirib, onlardan imtina etmisiniz. Daha sonra da hansısa bir plan – Qobl planı – Zəngəzurla Qarabağı dəyişməyi təklif etmisiniz. Yəni Zəngəzuru Azərbaycana, Qarabağı isə Ermənistana versinlər. Əlbəttə, indi ərazi dəyişdirilməsi qəbuledilməzdir, çünki artıq Azərbaycan Qarabağa tam şəkildə nəzarət edir. Sizin bütün planlarınızda, o illərdə Qarabağ ermənilərinin Azərbaycanın yurisdiksiyası altında yaşaması sıfıra bərabər olub. Bununla bağlı fikirlərinizdə bir dəyişiklik olubmu?***

– Bu, 30 il əvvəl olmuşdu. Həm də bu, o zaman Qarabağa gəlməyi planlaşdırılan o vaxtkı dövlət katibi üçün yazılmışdı. Amerikalılar bütün məsələləri həll etməyi sevirlər. Əgər siz onlara deyirsinizsə, hansısa problem var, o zaman onların birinci sualı belə olur: biz onu necə həll edə bilərik? Ona görə də mən çalışırdım mümkün həlləri təqdim edim. Mən həmişə bilirdim ki, bunu həll etmək çox çətin olacaq. 1980-ci illərin sonu və 90-cı illərin əvvəllərində mən düşünmürdüm ki, azərbaycanlılar Ermənistanın böyük bir əhalisini öz əraziləri olan Qarabağda qəbul edə bilərlər. Etimadla bağlı problemlərin yarana biləcəyi tamamilə normaldır, ola bilərdi və ermənilər əraziləri tərk edə bilərdilər. Mən çalışırdım bunları təklif edim və həyata keçirim: əgər siz fikrinizi əsaslandırmaq istəyirsinizsə ki, 1991-1992-ci illərdə çoxları necə etmək istəyirdilər ki, Qarabağ Ermənistan ərazisi olsun və ya Ermənistanın nəzarətində olsun, o zaman bilməlisiniz, Ermənistanın istədiyinə nail olmaq üçün yeganə bir üsulu var idi, o da Azərbaycana onun həmişə istədiyi bir təklifi etmək – Azərbaycan “materiki” ilə Naxçıvan arasındakı Zəngəzur dəhlizini vermək. Bu haqda isə SSRİ dağılandan heç iki həftə keçməmiş yazılmışdı, o zaman real olmayan dəyişikliklər dövrü idi. Əgər ermənilər Qarabağın Ermənistanın anklavı kimi tanınmasını və ya Ermənistanın tərkibində və onun nəzarətində olmasını istəyirdilərsə, onda İrəvan Bakıya onun həmişə istəyində olduğunu təklif etməli idi. Düşünürəm, 1992-ci ildə bundan daha düzgün yanaşma tapmaq çox çətin olardı. Bu haqda da mən o essedə yazmışdım, lakin əksər insanlar onun ancaq son iki abzasını oxuyurdular.

***– Bu 3 min 300 sözdən ibarət olan esse idi.***

– Gerçəklik belədir ki, zaman ötdükcə böyük neft və qaz ehtiyatlarına sahib olan Azərbaycan get-gedə güclənəcək, inkişaf etmiş sənayesi və təbii sərvətləri olmayan Ermənistan isə daha da zəifləyəcək. 90-cı illərdə həmin yanaşma Ermənistan üçün özünün sabitliyini və Qarabağdakı mövqeyini qorumaq üçün yeganə vasitə idi. Çünki sonra Azərbaycan olduğu mövqedə qalmayacaqdı və gələcəkdə elə tədbirlər görərdi ki, etnik ermənilər özləri regiondan çıxıb gedər və bu da Qarabağdakı erməni qurumlarının məhvinə səbəb olardı, həm də gələcəkdə hansısa məqamda Azərbaycan güc vasitəsilə Zəngəzuru aça bilərdi. Ermənistan isə buna qarşı heç nə çıxara bilməyəcəkdi. 1992-1993-cü illərdə ərazi dəyişikliyinin baş verməməsi səbəbindən biz indi elə bir vəziyyətdəyik ki, Azərbaycan hər şeyə sahib olmaq iqtidarında, Ermənistan isə hər şeyi itirmək riski ilə üz-üzədir.

Mən o adamlardanam ki, 44 günlük müharibədə tam imkanı ola-ola irəli getməyib dayandığı və Stepanakerti (Xankəndini) almadığı üçün Prezident Əliyevi alqışladım. Əlbəttə Azərbaycan bunu edə bilərdi, erməniləri özü qovmadı. Bu özünü saxlamağı bacaran güc kimi Azərbaycana etimad gətirdi. Bu alqışalayiq idi. Ancaq indi Azərbaycan bunu etdi və Stepanakerti (Xankəndini) aldı. Bu da 100 min erməninin regiondan kütləvi axınına səbəb oldu. İndi sual belədir: Zəngəzur dəhlizi necə olacaq? Sizin hansı marşrutunuz var? Mən başa düşürəm ki, yeni hadisələr üzündən mənim 1992-ci ildəki ideyam artıq ikinci plana keçir, ancaq 1992-1993-cü illərin hadisələrində əks olunan məntiq inandırıcı olaraq qalır, ancaq qəbuledilməzdir.

Əgər indi Ermənistan ciddi güzəştlərə getmirsə, son nəticədə o daha təcrid edilmiş vəziyyətə düşəcək. Ermənistanın Sünik vilayətindən deyil, İrandan keçəcək marşrut haqqında bütün bu danışıqlar Ermənistanı daha çətin vəziyyətdə qoyacaq. Bütün tarix bax, budur. Mən yazdıqlarımı danmıram. Sadəcə, elə hesab edirəm ki, 30 ildən sonra bu plan artıq yersizdir.

***– Azərbaycanın rəsmi mövqeyi ondan ibarətdir ki, o heç vaxt Qarabağ ermənilərinin çıxıb getməsinə çağırış etməyib. Əksinə, onları qalmağa çağırıb, bəyan edib ki, onlar qayıda bilərlər. Siz Qərbdə çox populyarlaşan və Ermənistanın ürəkdən qəbul etdiyi bir rəvayət səsləndirdiniz ki, Qarabağ bölgəsi üzərində suverenliyini bərpa etdikdən sonra Azərbaycan ermənilərin Sünik, azərbaycanlıların isə Zəngəzur adlandırdıqları əraziləri ələ keçirmək niyyətindədir. Bu, çox məşhur bir rəvayətdir. Sizcə, bu rəvayətin mahiyyəti Azərbaycanın niyyətləri ilə bağlıdır, yoxsa Rusiya ilə? Çünki açıq-aydın görünür ki, Qərb Ermənistanı dəstəkləmək istəsə də, rəvayətə görə, Azərbaycanın bunu Türkiyənin köməyi və Rusiyanın hərəkətsizliyi ilə edəcək. Sizcə, bu rəvayət kimə işarə edir – Azərbaycana, yoxsa Rusiyaya?***

– Baş verənlərin hamısı Moskvanın necə hərəkət etməsilə bağlıdır. Hər şey Rusiyanın Ukraynaya təcavüzündən sonra Qərblə onun arasındakı qarşıdurma ilə bağlıdır. Bu, aydındır. Məsələ ondadır ki, Cənubi Qafqazda hansı marşrut açılmalıdır? 2020-ci ilin noyabr ayındakı üçtərəfli bəyanat razılaşma yox, sadəcə bəyanat idi. Əgər o həyata keçirilsəydi, Ermənistan böyük fayda əldə edərdi: nəqliyyatla bağlı vəziyyəti yaxşılaşardı. Əgər marşurut İrandan keçərsə, onun Rusiya ilə sıx münasibətlərini, xüsusən də Türkiyə və Qərbə qarşı sıx əməkdaşlıq etməsi nəzərə alınsa, Ermənistanın da Qərblə əməkdaşlığa hazır olması o deməkdir ki, Tehran və Moskva açıq və ya gizli koordinasiyada Azərbaycanın Qərb-Şərq marşrutundan istifadəsinə meydan oxuya bilər. Ermənistan da çox şey itirəcək, çünki o Rusiya ilə əlaqə qurmaq üçün lazım olan marşrutu əldə edə bilməyəcək. Bu, ola bilsin ki, Ermənistanın Moskvadan daha da uzaqlaşacağına, əvəzində Fransanın ona təsirinin artmasına gətirib çıxaracaq.

Mən Qarabağ böhranının həll olunduğunu deyə bilmirəm, çünki bu münaqişənin gələcəkdə də davam etdirilməsi üçün başqa imkanlar görürəm. Bəlkə də buna Qarabağ münaqişəsi deməyəcəklər, amma fakt budur ki, Cənubi Qafqazda geosiyasi vəziyyəti Rusiyanın sovet dövründəki, hətta ondan əvvəlki dövrdəki davranışı müəyyən edir. Ona görə də bu, hələ uzun müddət bizimlə qalacaq.

***– Məşhur “Qobl planı” özünəməxsus bir həyat qazanıb. İlkin ideya mübadilə ehtiva edirdi, lakin sonra Ermənistan–Azərbaycan danışıqları zamanı biz bu planın müxtəlif aspektlərdə bəzi təzahürlərini və reinkarnasiyasını müşahidə etdik. Məsələn, 2021-ci ildə Azərbaycan Laçın və Zəngəzur dəhlizlərinin eyni iş rejimi ideyasını irəli sürdü. Orada mən “Qobl planı”nın bəzi elementlərini gördüm və elə indi də çox maraqlı hadisələr baş verir. Azərbaycan bildirir ki, Qarabağ erməniləri qayıda bilər, lakin onlar Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər. Həmçinin Qərbi Azərbaycan düşüncəsi də var ki, bu da 80-ci illərin sonlarında müasir Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz ata-baba yurdlarına könüllü və ləyaqətlə qayıtmasını nəzərdə tutur. Deməli, Zəngəzur və Qarabağ məsələləri bir-birinə bağlıdır. Eyni fenomeni görmüsünüzmü?***

– Olar, əlbəttə, “Qobl planı” məntiqini buna tətbiq etmək olar. Amma mən hesab edirəm ki, bu, Cənubi Qafqazın dərin ərazi və demoqrafik strukturunun bir hissəsidir. Biz Cənubi Qafqazda xalqların, ərazilərin nizamlanmasının şahidi olduq. İndi Azərbaycan, Ermənistan və Gürcüstan sovet dövründəkindən qat-qat monoetnikdir. Bu, doğum səviyyəsi, azlıqların getməsi və s. ilə şərtlənir. Biz həmçinin Moskvanın, məsələn, Cənubi Osetiya və Abxaziyada, müvəqqəti də olsa sərhədləri yenidən müəyyənləşdirməyə çalışdığını da görmüşük. Ermənistan isə bunu “Artsax”ın köməyi ilə etməyə çalışdı. Moskvanın sovet dövründə etdiyi geosiyasi fərqlər məhz bunlardır. Buna təəccüblənməyə dəyməz.

Nəzərə alın ki, siz bir şey etsəniz, qarşı tərəf də cavab olaraq nəsə edəcək, danışıqlar adətən belə gedir. Əgər insanlar bütün problemlərin həlli üçün geosiyasi model kimi “Qobl planı”nı tətbiq etsəydilər – hərçənd onlar bunu indi də edə bilərlər – lakin planın müəllifi bunu etməzdi. Haqqında danışılmamış mühüm hadisələrdən biri 1991-ci ildə baş verdi. O zaman biz bu ölkələrin etnik zəmində necə yenidən qurulduğunu gördük. Rusiya istisna olmaqla, hər bir postsovet respublikası etnik cəhətdən 1991-ci ildə olduğundan daha da etnikləşdi. Biz postsovet dövründə məhz belə nizamlanmanı gözləyirdik, lakin bu hələ də başa çatmayıb, etnik mübahisələr davam edir. Onların bir çoxu beynəlxalq diqqəti cəlb edə bilməyib, məsələn, Tacikistan, Qırğızıstan və Özbəkistan, Özbəkistanda Qaraqalpaqstan məsələsi var və s.

Rusiya Cənubi Qafqazda baş verən bütün hadisələrdə maraqlıdır. Hətta Rusiyanın Ukraynaya təcavüzünü də bura əlavə edə bilərsiniz, çünki Moskvanın Şərqi Ukraynanın tarixinə yanaşmasını nəzərə salın, – orada ruslar yaşayır, deməli, bura Rusiya ərazisidir. Biz hər yerə yayılan geosiyasi tendensiyanın şahidi oluruq. Cənubi Qafqazda gördüklərimiz isə unikal təcrübə deyil, yalnız bir alt qrupdur. Bununla bağlı başqa bir şey də söyləyəcəyəm, hərçənd o qədər də oxşar deyil.

1992-1993-cü illərdə Ermənistanın qələbəsindən sonra yüz minlərlə azərbaycanlı öz evlərini tərk edib. Mən 90-cı illərin sonlarında Bakı ətrafındakı qaçqın düşərgələrində olmuşam. Heç bir ölkə, heç bir hökumət bu qədər qaçqını görməyi dana bilməz və onların geri qayıtması təmin edilməlidir. Yetərincə diqqət verilməyən məqamlardan biri də ondan ibarətdir ki, torpaqlarından qoparılan insanlar 25 ildən artıqdır qaçqın düşərgələrində yaşayırlar və təbii, yaşadıqları yerlərə qayıtmaq istəyəcəklər. Əgər Azərbaycan hökuməti bunu həyata keçirə bilsə, o zaman ölkənin gələcəyini müəyyən etmiş olar.

***– Necə bilirsiniz, sizcə, Azərbaycanın Zəngəzur dəhlizinin əvəzinə İran marşrutuna yan alması, Ermənistanda qarşılıqlı münasibətə səbəb olan bir taktika növüdürmü? Zəngəzur dəhlizi Bakı üçün çox vacibdir, biz bunu başa düşürük. Axı bu, Azərbaycanı Naxçıvanla birləşdirən əsas marşrutdur. İrandan keçən marşrut isə alternativdir. Sualım belədir: siz bunu Ermənistan tərəfindən qarşılıqlı münasibətə səbəb olmaq üçün taktiki tədbir hesab edirsinizmi?***

– Düşünürəm ki, bəli, bu, ikili məna daşıyan taktikadır, yəni bu, İrəvana təzyiq göstərmək və onu güzəştə getməyə, o cümlədən Sünik – Zəngəzur vasitəsilə nəqliyyat əlaqələrinə məcbur etmək üçün nəzərdə tutulub. Məncə, bu, daha əhəmiyyətli dərəcədə taktikadır. İnanmıram ki, hər hansı azərbaycanlı Zəngəzur dəhlizinin Ermənistanın tərkibində qalmasını məqbul saysın. Düşünürəm, onlar hesab edirlər ki, Azərbaycan onu öz tərkibinə daxil etməlidir. Azərbaycanda, hətta hakimiyyətdə belə, Ermənistanın bir müddət əvvəl türk-müsəlman sivilizasiyasının bir hissəsi olmadığını söyləyən və Ermənistanın özünün mövcudluğu məsələsini gündəmə gətirənlər var. Bunlar marjinal səslərdir, lakin bu, Azərbaycanın bölünməz ölkə olması, bölünməməsi, Azərbaycanın Bakıdan Türkiyəyə Naxçıvandan keçən birbaşa marşruta sahib olması konsepsiyasıdır. Bu, azərbaycanlı düşüncəsi üçün son dərəcə vacibdir. Düşünürəm ki, onların Arazdan keçən alternativ yoldan necə danışması da müəyyən mənada taktikaya bənzəyir. Elə bilirəm, insanlar çətin ki, - “Zəngəzur Azərbaycanın bir hissəsinə çevrilməlidir” konsepsiyasından uzaqlaşsınlar. Bu, siyasətin aparıcı qüvvəsinə çevriləcək. Amma bu o demək deyil ki, siz ora qoşun göndərməyə hazırlaşırsınız. Mən İrandan keçməklə Naxçıvana getmək üçün viza almaqdan ötrü İran səfirliyində növbəyə duran azərbaycanlıları gördüm. Düşünmürəm ki, hər hansı Azərbaycan siyasətçisi bunun davam etməsini istəsin.

Tehran Azərbaycanla Naxçıvan arasında maneəsiz, vizasız gediş-gəlişə icazə verəcəkmi? İcazənizlə söyləyim ki, mən buna çox şübhə edirəm və tutarlı səbəbim var. Bəli, bunu zamanla yoluna qoymaq olar. Amma Tehranın öz gündəmi var və onun Azərbaycan və Türkiyə ilə münasibətləri pisləşə bilər. Bu isə gələcəkdə istənilən tərəf üçün çox riskli olacaq. Ona görə də, İran öz ərazisindən keçən marşrutdan Bakı və Ankaraya qarşı istifadə edə bilər. Əgər o bunu etsə, problem həll olunmayacaq. Düşünürəm ki, Azərbaycanda bunu çox gözəl başa düşürlər, ona görə də onların bu marşrut haqqında dedikləri bir növ taktikadır, çünki bu, Bakının uzunmüddətli hədəflərini əks etdirmir.

***– Bəli, əlbəttə, Bakı Naxçıvana birbaşa, maneəsiz çıxış əldə etmək istəyir, amma düşünmürəm ki, hökumət hər hansı ekstraterritoriallıq ideyası irəli sürsün. Əgər xatırlayırsınızsa, 2023-cü ilin əvvəlində Prezident Əliyev Almaniyada demişdi ki, biz Laçın yolunun girişində SBM (Sərhəd-buraxılış məntəqəsi) yaratmaq istəyirik, Ermənistan da Zəngəzur dəhlizinin hər iki başında sərhəd məntəqələri yarada bilər. Mənim nöqteyi-nəzərimə görə, bu, bir növ Azərbaycanın mövqeyinin dəyişdiyinin göstəricisi idi. Əvvəlcə biz dəyişmiş ekstraterritoriallıqdan danışdıq. Təbii ki, dinamika da daim dəyişir. Baxaq görək, gələcəkdə nə baş verəcək.***

***Sizdən bu yaxınlarda ABŞ Konqresində keçirilən dinləmələr barədə soruşmaq istərdim. Dövlət katibinin köməkçisi Ceyms O'Brayen Azərbaycan Xarici İşlər Nazirliyinin bəlli reaksiyasına səbəb olan açıqlamalar verib. Sizcə, Ermənistan–Azərbaycan sülh prosesi kontekstində Vaşinqtonun tutduğu hazırkı mövqe, həqiqətən, faydalıdırmı? Aydındır ki, Azərbaycan Qərbin, xüsusən də Amerikanın vasitəçiliyinə şübhə ilə yanaşacaq. Biz yaxşı xatırlayırıq ki, Ermənistan–Azərbaycan sülh prosesində Vaşinqtonda aparılan danışıqlar çərçivəsində bir çox mühüm razılaşmalar əldə olunub. Onlar iki istiqamətə bölünmüşdü – Qarabağ erməniləri ilə daxili dialoq və Bakı ilə İrəvan arasında hökumətlərarası danışıqlar. O zaman–2023-cü ilin əvvəlində Brüssel prosesi kollapsa düşmək həddində idi. Məhz onda Vaşinqton çox mühüm rol oynadı. Dövlət katibi Blinken Azərbaycan və Ermənistanın dövlət başçıları arasında görüş təşkil etdi. Növbəti aylarda Ermənistan–Azərbaycan sülh prosesində Vaşinqtonun rolunu necə görürsünüz?***

– Düşünürəm ki, uzunmüddətli perspektivdə ABŞ dünya gücüdür və belə də qalacaq. Qısamüddətli perspektivdə Birləşmiş Ştatlar diqqətini başqa məsələlərə yönəldib. Amma gəlin xatırlayaq, Bakı ətrafa baxır və deyir: Moskva 2020-ci ilin noyabrından, bəyanatı imzalayandan sonra ciddi vədlər verib, amma heç nə etməyib. Rusiyanın Cənubi Qafqazda təsiri zəifləyib. Hesab edirəm ki, Bakının Moskvaya və ya Vaşinqtona deyil, Türkiyəyə baxması təəccüblü deyil. Düşünürəm, hazırda diqqətdən yayınan belə bir fakt var: Rusiya danışıqları təşkil edəndə özü orada iştirakçıya çevrilir, Vaşinqton danışıqlar təşkil edəndə isə bu ölkələrin bir-biri ilə danışmasına imkan yaradır. Vəziyyət tamamilə fərqlidir. Birləşmiş Ştatların hər şeyin həll olunmalıdır kimi konkret bir gündəliyi yox idi. Bakının özü artıq güclənən regional oyunçu kimi çıxış edir, beynəlxalq aktorların rolu isə zəifləyir. Mən gələcəkdə də belə davam edib-etməyəcəyini bilmirəm.

Amma gəlin baxaq görək, nə baş verir. Azərbaycan öz ərazisinə nəzarəti bərpa etdi və beynəlxalq ictimaiyyətdən heç nə eşidilmədi. 100 min erməni Qarabağı tərk etdi. Əgər Rusiya–Ukrayna müharibəsi və ya Yaxın Şərqdə müharibə olmasaydı, o zaman bəlkə də daha ekspressiv çağırışlar, nələrsə etmək lazım olduğuna dair narahatlıqlar ifadə olunardı. Amma indi hamı bununla barışıb.

Mən Vladimir Putinin düşündüyü və söylədiyi kimi çoxqütblü dünyaya doğru irəlilədiyimizə inanmıram. Düşünürəm ki, dünya daha da mürəkkəbləşəcək. Əgər biz dünya müharibəsinə doğru getsəydik, regional güclər təkbaşına hərəkət edəcəkdilər. Əgər Bakı Vaşinqtondan məyusdursa, bu o demək deyil ki, o, Moskvanın tərəfinə keçəcək. Mən belə düşünmürəm. Mənə elə gəlir ki, Bakı hamıdan məyus olub və təkbaşına hərəkətə keçmək qərarına gəlib. Bununla belə, Bakı və Ankara öz hərəkətlərini sıx təmasda əlaqələndirirlər. Bu aydındır. Arazdan keçən marşrut ideyasının təşəbbüskarı məhz Türkiyə Prezidenti oldu və Bakı da bu təşəbbüsün ardınca getdi. Türkiyə ilə İran arasındakı gərgin münasibətləri nəzərə alsaq, bu da çox maraqlıdır. Əksinə yox, ən azı ictimaiyyətə açıqlanmadı. Əliyevlə Ərdoğan Naxçıvanda görüşəndə bir ağızdan danışdılar. Düşünürəm ki, vəziyyət Vaşinqton və ya Moskvadan çox az asılıdır, daha çox regional güclər və regiondakı amillər əsas rol oynayır. Həmişə beləmi olacaq? Yəqin ki, yox. Söyləyə bilmərəm ki, yaxın bir neçə ay ərzində böyük dəyişikliklər olacaq. Biz Zəngəzur dəhlizi ətrafında mübahisəyə regional oyunçuların çox vacib olduğu regional mübahisə kimi baxacağıq. Mən fransızların Ermənistanda nəsə edəcəyinə, onların nəyəsə təsir edə biləcəklərinə tam əmin deyiləm. Amma ermənilərin və fransızların nə düşünməsindən asılı olmayaraq, proseslərin davam edəcəyinə inanıram.

*(ardı var)*

# Sığorta bazarı davamlı inkişaf edir

## İlin əvvəlindən daxilolmalar 28 faizədək yüksəlib



**Bu gün ölkəmizin sığorta bazarında dinamik inkişaf nəzərə çarpır. Bu uğuru maliyyə sistemi qarşısında qoyulan çeviklik, rəqabətqabiliyyətlilik və innovativlik kimi vəzifələrin davamlı şəkildə həyata keçirilməsi şərtləndirir.**

Başqa sözlə, sığorta bazarı iştirakçıları üçün əlverişli mühitin yaradılması, şirkətlərin kapitallaşması, aktivlərin sağlamlaşdırılması, məlumatların mübadiləsi qaydasının təkmilləşdirilməsi, müştərilərin hüquqlarının müdafiəsi üzrə etibarlı mexanizmlərin yaradılması kimi istiqamətlərdə tədbirlərin görülməsi sözügedən sahədə tədricən yüksək göstəricilərin əldə edilməsinə zəmin yaradır.

Hazırda sığorta bazarının orta dövr (2025-ci ilədək) üçün inkişafı məqsədilə qarşıda bir sıra vəzifələr durur. Həmin vəzifələr sırasında mövcud bazarın ümumi biznes həcminin artırılması, bunun üçün mövcud könüllü sığorta məhsullarının təkmilləşdirilməsi və yeni məhsulların yaradılması tədbirlərinin gerçəkləşdirilməsi xüsusi diqqət çəkir. Bütün bunlarla yanaşı, sözügedən sistemdə hüquqi bazanın genişləndirilməsi və təkmilləşdirilməsi, icbari sığorta növlərinin artırılması üzrə fəaliyyətin sürətləndirilməsi də əsas hədəflərdən biridir.

Xatırladaq ki, Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra sığorta sistemində müəyyən layihələrin icrasına başlanıb. Bu istiqamətdə yeni şirkətlər yaradılıb, onların bir qismi formalaşma dövründə zamanın tələblərinə cavab vermədiyindən bazarı tərk edib, digərləri isə beynəlxalq səviyyəyə uyğunlaşaraq bugünümüzə gəlib çatıb.

Mövcud sığorta strukturlarında bazarda sabit mövqeyə malik olmaq üçün idarəetmənin təkmilləşdirilməsi, müasir informasiya texnologiyası proqram təminatının reallaşdırılması, risklərin idarəedilməsi kimi məsələlər diqqətdə saxlanılır. Eyni zamanda, biznesin müasir təşkili və idarəedilməsi, xidmət keyfiyyəti, marketinq araşdırmaları ilə bağlı layihələrin icrası da daim önə çəkilir. Sığorta şirkətlərində maliyyə-investisiya fəaliyyətini genişləndirmək, kapitalı artırmaq və dayanıqlığı gücləndirmək, qanunvericilik tələblərinə ciddi yanaşmaq, habelə elektron uçot və hesabat sistemlərini müasirləşdirmək, şəffaflıq və ədalətlilik kimi məsələlər də prioritet istiqamətlərdir.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, 2023-cü ilin yanvar–oktyabr aylarında Azərbaycanda sığorta yığımları 27,8 faiz artaraq 1 milyard 19 milyon manata çatıb. Bu dövrdə ümumi sığorta ödənişlərinin həcmi isə 26,7 faiz artaraq 455 milyon manata yüksəlib.

Yeri gəlmişkən, sığorta yığımlarında artım dinamikasının daha yüksək olması bazarın zərərliyinə də təsir edib. Belə ki, 2022-ci ilin yanvar-oktyabr aylarında sığortaçılar topladıqları hər 100 manatın 45 manatını ödənişə yönləndirmişdilərsə, cari ilin eyni dövründə bu rəqəm 44,6 manata kimi azalıb.

2023-cü ilin 10 ayı ərzində Azərbaycanda beş həyat sığorta şirkəti vasitəsilə toplanan sığorta yığımlarının həcmi isə 425 milyon 81 min manata bərabər olub. Bu göstəricinin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 30 faiz və ya 97 milyon 969 min manat çoxdur. Xatırladaq ki, keçən ilin yanvar-oktyabr aylarında həyat sığorta şirkətləri 327 milyon 112 min manat sığorta haqqı toplaya bilmişdi. Bu dövrdə yaşam sığortasının həyat sığortasında bazar payı 92,5 faiz enib. Belə ki, ötən ilin eyni dövründə bu göstərici 93 faiz təşkil etmişdi.

Hesabat dövründə həyatın yaşam sığortası üzrə ödənişlər isə 26,6 faiz artaraq 249 milyon 929 min manata çatıb. Ötən ilin 10 ayında bu sığorta növü üzrə ödənişlər 197 milyon 402 min manat təşkil edib.

Qeyd edək ki, həyatın yaşam sığortası yığımları adətən 3-5 illik dövrü əhatə edir. Əmək haqqının bir hissəsini hər ay həyatın yaşam sığortasına yönəldən işçilər müqavilənin sonunda əlavə edilmiş faizlə yanaşı, hər ay ödənilməli olan vergi və sosial sığorta ödənişlərini geri ala bilirlər.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən bildirildiyinə görə, hesabat dövründə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 4,2 milyard manatdan çox olub. Bu mənbədən daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 14,4 faiz və ya 533 milyon manat artıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 2022-ci ilin eyni dövrü ilə müqayisədə 15,3 faiz artaraq 2,7 milyard manat təşkil edib.

Xatırladaq ki, hesabat dövründə işsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrünə nisbətən 15,8 faiz artaraq 148,7 milyon manata yüksəlib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar isə 15,5 faiz artıb və 110 milyon manat təşkil edib.

İcbari tibbi sığorta haqları üzrə daxilolmalar ötən 10 ay ərzində 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 15,6 faiz yüksələrək 765 milyon manat olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 16,8 faiz artıb və 539 milyon manat təşkil edib.

***V.BAYRAMOV***
***XQ***

# 4 ildə "yaşıl güc"lər 30 faizə çatacaq



**Energetika nazirinin müavini Samir Vəliyevin mediaya bildirdiyinə görə, 2027-ci ilin sonunadək 1870 MVt həcmində "yaşıl güc"lərin ölkənin enerji sisteminə inteqrasiyası nəticəsində bərpaolunan enerji payının 33 faizə çatdırılacağı planlaşdırılır.**

O qeyd edib ki, ölkənin ümumi elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istehsal olunan güc hazırda 1688 MVt-dır ki, bu da ümumi gücün təqribən 20 faizini təşkil edir. Nazir müavini sözlərinə onu da əlavə edib ki, bu məqsədlərə nail olmaq üçün ölkənin energetika sektorunda islahatlar aparılır. Bundan başqa, Energetika Nazirliyi və BƏƏ-nin "Masdar" şirkəti arasında bağlanan icra müqavilələrinə əsasən, quruda sənaye miqyaslı 1 QVt gücündə günəş, 1 QVt gücündə külək, dənizdə isə 2 QVt gücündə inteqrasiya edilmiş külək və "yaşıl hidrogen" layihələrinin reallaşdırılması nəzərdə tutulur.

Xatırladaq ki, Azərbaycanın əsas məqsədi işğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji mənbələri yaratmaqdır. Bu istiqamətdə işlər aparılır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında günəş enerjisi layihələri həyata keçirmək üçün əlverişli potensial var.

***XQ***



# 10 ayda 33 milyard kubmetrə yaxın qaz ixrac olunub

**Bu ilin yanvar-oktyabr aylarında ölkəmizdəki magistral qaz kəmərləri ilə 32 milyard 963,9 milyon kubmetr "mavi yanacaq" ixrac olunub ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 4 faiz çoxdur.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, hesabat dövründə Azərbaycandan ixrac olunan təbii qazın 55,2 faizi Cənubi Qafqaz boru kəmərinin payına düşüb. Bu kəmərlə qaz ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 6,6 faiz artaraq 18 milyard 209,8 milyon kubmetr təşkil edib.

***XQ***

# Bank sektorunun mənfəəti 18 faiz artıb

**Bu ilin yanvar-oktyabr aylarında Azərbaycanın bank sektorunda 908 milyon manat xalis mənfəət əldə edilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 18 faiz çoxdur.**




Azərbaycan Mərkəzi Bankından XQ-yə verilən məlumata görə, 10 ay ərzində bankların əməliyyat gəlirləri 3 milyard 948,7 milyon manat, əməliyyat xərcləri isə 2 milyard 536,9 milyon manat təşkil edib. Bu göstəricilər üzrə artım isə əvvəlki ilin eyni dövrünü müvafiq olaraq 24,1 faiz və 25,3 faiz üstələyib. Hesabat dövründə bank sektorunun xüsusi ehtiyatlara ayırmaları 268,4 milyon manat, gözlənilməz gəlirləri 2,6 milyon manat, mənfəət vergisi ödəmələri isə 237,8 milyon manat olub.

Bu ilin əvvəlindən banklar tərəfindən, ümumilikdə, 2 milyard 37,8 milyon manat məbləğində mənfəət vergisi ödənilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 34 faiz və ya 59,8 milyon manat çoxdur.

Qeyd edək ki, 31 oktyabr 2023-cü il tarixində ölkədə fəaliyyətdə olan bankların cəmi aktivləri 46 milyard 146,6 milyon manat, cəmi öhdəlikləri 40 milyard 233 milyon manat, balans kapitalı 5 milyard 913,6 milyon manat təşkil edib. Oktyabr ayında bankların cəmi aktivləri və cəmi öhdəlikləri müvafiq olaraq 1,4 faiz və 1,8 faiz artıb.

***XQ***

# Orta Dəhliz – Xəzərdən keçən Avrasiya yolu

## Bu marşrutla daşımalar 3 dəfə çoxalaraq 2030-cu ildə 11 milyon ton olacaq

**Hazırda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM və ya Orta Dəhliz) səmərəli fəaliyyət göstərir və infrastrukturun inkişafı məqsədilə önəmli layihələr həyata keçirilir. Bu gün beynəlxalq ekspertlər tərəfindən dəhlizin nadir coğrafi mövqeyi yüksək dəyərləndirilərək onun Avropa və Asiyanı birləşdirən həyati körpü rolu oynadığı vurğulanır.**

Bununla yanaşı, dəhlizin Mərkəzi Asiyanın resursla zəngin regionlarını Avropanın sənaye mərkəzləri ilə əlaqələndirdiyi və bu nəqliyyat platformasından regiondakı bütün ölkələrin faydalandığı diqqətə çatdırılır. Xatırladaq ki, ölkəmizin tərəfdaşları ilə birlikdə nəqliyyat infrastrukturunun tam ötürücülük gücü ilə fəaliyyətini təmin etmək üçün praktik işlər görülür. Azərbaycan hökuməti tərəfindən dəhlizlərin inkişafına vəsait ayrılması, respublikamızda avtomobil və dəmir yollarının müasir səviyyədə qurulmasına xüsusi əhəmiyyət verilməsi, həmçinin əsaslı təmirin aparılması bunun bariz ifadəsidir.




Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Assosiasiyası Sinqapurla birlikdə Orta Dəhlizin iştirakçılar arasında məlumat mübadiləsinin yaxşılaşması, həmçinin sərhəd keçidlərinin sürətləndirilməsi məqsədi daşıyan rəqəmsallaşması konsepsiyasının yaradılmasına başlayıb. Assosiasiyanın baş katibi Haydar Abdikerimovun mediaya bildirdiyinə görə, dəhlizin rəqəmsallaşması üzrə layihələrin də Sinqapurun aparıcı şirkətləri ilə həyata keçiriləcəyi qərara alınıb.

Qarşıdakı beş il ərzində dəhlizin infrastrukturuna və proseslərin səmərəliliyinin artırılmasına 5 milyard avro investisiya qoyulacaq. Marşrut Mərkəzi Asiya istehsalçılarının Türkiyə, Şimali Afrika və Cənubi Avropa ölkələri istiqamətindəki dünya bazarları ilə inteqrasiyasında mühüm rol oynayacaq.

Marşrutun əsas məqsədi isə Çin, Qazaxıstan kimi ölkələrdən, Xəzər dənizi ilə Azərbaycan, Gürcüstan, Türkiyə, Ukrayna, Polşa və Rumıniya ərazisindən yük tranzitinin təmin olunmasından ibarətdir.

Dünya Bankının (DB) Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Antonella Bassani bu beynəlxalq maliyyə qurumunun Orta Dəhliz boyunca yerləşən ölkələrin hökumətlərinin və digər çoxtərəfli təşkilatların tərəfdaşlığı ilə marşrutun inkişafına dəstək göstərməyə hazır olduğunu bildirib. O, dəhlizin təkcə həyat qabiliyyətli deyil, həm də marşrut boyu yerləşən ölkələrin iqtisadiyyatları üçün mühüm önəm daşıdığını vurğulayıb.

DB nümayəndəsinin sözlərinə görə, Azərbaycan, Gürcüstan və Qazaxıstan digər ölkələrlə birlikdə dəhlizin təşviqi ilə bağlı baxışlarının razılaşdırılmasında mühüm irəliləyişə nail olub.

Qeyd edək ki, Orta Dəhliz Çin və Avropa İttifaqı (Aİ) ölkələrinin konteynerlərlə dəmir yolu yükdaşımaları şəbəkələrini Mərkəzi Asiya, Qafqaz, Türkiyə və Şərqi Avropa ölkələri vasitəsilə birləşdirir. Çoxtərəfli, multimodal nəqliyyat infrastrukturu Xəzər dənizi və Qara dənizin bərə terminallarını Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyə, Ukrayna və Polşanın dəmir yolu sistemləri ilə əlaqələndirir. Orta Dəhliz, eyni zamanda, Çindən Türkiyəyə, eləcə də, Avropa ölkələrinə və əks istiqamətdə yük axınının artmasına səbəb olur. Dəhlizlə hərəkət edən qatarlar yükləri Çindən Avropaya orta hesabla 20-25 gün ərzində çatdırır və bu, qeyd olunan nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biridir.

Yeri gəlmişkən, DB-nin bu günlərdə yayılan hesabatında da Orta Dəhlizin gələcək fəaliyyət istiqamətləri haqqında müsbət proqnozlar verilib, Qazaxıstan, Azərbaycan və Gürcüstanın Orta Dəhliz ticarət marşrutunun diversifikasiyasında mühüm rol oynadığı diqqətə çatdırılıb. Bununla bərabər, hesabatda təchizat zəncirlərinin yönləndirilməsində, ölkələrarası ticarətin dayanıqlığının artırılmasında və bir sıra ənənəvi regional ticarət tərəfdaşlarından asılılığın azaldılmasında dəhlizin əhəmiyyətli təsiri xatırladılıb.

DB-nin hesabatında daha sonra qeyd olunub ki, marşrutun inkişafı məqsədi daşıyan xüsusi strategiya nəticəsində Qazaxıstan, Azərbaycan və Gürcüstan istehsal fəaliyyətlərinin kütləviliyini təşviq etməklə ixrac həcmini və məhsulların əlavə dəyərini artıra bilər. Belə bir imkan isə 2021-2030-cu illər üçün üç ölkənin yük bazasında ümumi potensialın 90 milyon tona (+44 faiz) yüksəlməsini, bunun isə 70 milyon tonunun Qazaxıstandan əlavə ixracın payına düşəcəyini şərtləndirər.

Hesabatda, həmçinin bildirilir ki, Orta Dəhlizin istismara verildiyi ssenaridə Xəzər dənizi vasitəsilə daşımaların həcminin 2030-cu ildə 11 milyon tona çatacağı gözlənilir. Bu isə 2021-ci ilə nisbətən 3 dəfə artım deməkdir. Xəzər dənizi vasitəsilə yükün təxminən 4 milyon tonunun konteyner vasitəsilə aparılacağı proqnozlaşdırılır. Konteynerlərin isə 1,5 dəfə artması gözlənilir. Eyni zamanda, təkmilləşdirmələrin həyata keçirilmədiyi təqdirdə daşıma tələbatının proqnozlaşdırılan artımdan 35 faiz aşağı olacağı qeyd edilir.

DB dəhliz vasitəsilə gübrə kimi yüksək əlavə dəyərli məhsul daşımalarının təxminən iki dəfə artacağını proqnozlaşdırır. Bundan əlavə, daha çox daşınacaq mallara metal məmulatları, hazır qida məhsulları, maşınlar və kimyəvi maddələr daxildir. Hazırda Şimal marşrutu ilə aparılan müəyyən malların da qismən Orta Dəhlizlə daşınacağı gözlənilir. Bununla bərabər, xammalın payının 60 faizdən 53 faizə endiriləcəyi, neft və neft məhsullarının, eləcə də qara və əlvan metalların əvvəllər olduğu kimi, Xəzər dənizi vasitəsilə daşımaların mühüm hissəsini təşkil edəcəyi proqnozlaşdırılır.




Adıçəkilən beynəlxalq maliyyə qurumunun hesabatında diqqətçəkən bir məqama da toxunulur. Bank mütəxəssislərinin fikrincə, Orta Dəhlizdə fəal iştirak Azərbaycanın regional ticarət və tranzit qovşağı kimi mövqeyini gücləndirməklə yanaşı, həm də ölkəni Asiya və Avropa üçün strateji tərəfdaş kimi tanıdır. Eyni zamanda, bu dəhlizin inkişafı ilə bağlı uğurlu strategiyanın davam etdirilməsi və zəruri investisiyaların qoyulması 2030-cu ilədək Azərbaycan, Gürcüstan və Qazaxıstan arasında ticarətin 37 faiz, bu ölkələrlə Aİ arasında isə ticarətin 28 faiz artmasına gətirib çıxara bilər.

Orta Dəhliz üzrə ən böyük həcmdə artım Çin və Avropa arasındakı ticarətdə gözlənilir. 2030-cu ilə qədər dəhliz vasitəsilə Çin və Avropa arasındakı ticarət 5,3 faizə qədər artacaq. Bu isə AB-Çin ticarətinin təxminən, 1 faizi həcmindədir.

Xatırladaq ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Hazırda marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

***M.YAQUBZADƏ***
***XQ***

# Bazarda ət bahalaşdıqca kolbasa-sosis ucuzlaşır...

## Bu qayçı alıcıların cibini və cəmiyyətin sağlamlığını kəsir

**Qida təhlükəsizliyi ilə bağlı neqativ hallar səngimək bilmir. Hazırda ölkədə müxtəlif ərzaq mallarının istehsalından tutmuş satışınadək çoxsaylı nöqsanlara rast gəlmək mümkündür. Keyfiyyətsiz mallar isə müxtəlif yollarla dükan-bazarlara, hətta iri marketlərə yol tapan keyfiyyətsiz ərzaqlar isə həm iştahamızı korlayır, həm də sağlamlığımıza və necə deyərlər cibimizə ciddi ziyan vurur. Düzdür, bu sahədə müvafiq dövlət qurumları bu sahəyə müdaxilə etsələr də, bir sıra neqativ halların qarşısını almağa nail olsalar da, keyfiyyətsiz məhsulların satışı azalmaq əvəzinə, günbəgün artır.**

Ölkədə istehlakçılara daha ucuz qiymətə təklif olunan qida məhsulları sırasında kobasa və sosislərin mənşəyi məlum olmayan ətlərdən, həmçinin digər məhsullardan hazırlanması haqqında mütəmadi məlumatlar yayılsa da, vəziyyət əvvəlki axarı ilə davam edir. Müvafiq qurumlar tərəfindən aparılan tədbirlərin ciddi nəticələri isə, hələlik, nəzərə çarpmır.



Hazırda ölkədə standartlara uyğun, müasir tələblərə cavab verən 20-dən çox kolbasa və sosiska istehsalı müəssisəsi fəaliyyət göstərir. Bununla yanaşı, bazarda, küçə və yol qıraqlarında mənşəyi və istehsal ünvanı bəlli olmayan məhsulların satılması belə bir qənaətə gəlməyə imkan verir ki, bu sahədə gizli fəaliyyət göstərən sexlər də az deyil. Həmin sexlərdə isə, əsasən, ucuz və keyfiyyətsiz ətlərdən istifadə olunur. Əhali ölkədə qida məhsullarının təhlükəsizliyinin qorunması ilə bağlı dövlət siyasətinin mövcudluğuna arxayın olaraq, necə deyərlər, gözüyumulu, harada və necə gəldi, bu məmulatları alır. Belə ki, hazırda paytaxtın 8-ci Kilometr bazarı ətrafında, eləcə də bir sıra metrostansiyaların çıxışlarında üzərində etiketi olmayan qızardılmış, rəngi ilə diqqəti cəlb edən kolbasaların satılması hallarına daha çox təsadüf olunur. Kiloqramı, təqribən, 4-5 manata təklif edilən bu cür kolbasalar istehlakçıların marağına səbəb olur. Ona görə də çoxları bu cür məhsullara üstünlük verir. Əhali arasında maarifləndirmə tədbirlərinin lazımi səviyyədə olmamasının nəticəsidir ki, heç kəs aldığı məhsulun mənşə sertifikatını tələb etmir.

Belə məhsulların qiyməti ilə keyfiyyəti isə çox zaman üst-üstə düşmür. Qida Təhlükəsizliyi Hərəkatının rəhbəri, sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynovanın sözlərinə görə, istehlakçıların çox hissəsi satılan məhsulun qiymətinin baha olmasını onun keyfiyyətliliyi ilə əlaqələndirir və bu cür kolbasa və sosisləri faydalı hesab edərək onun alışına üstünlük verir. Halbuki bu yanaşma aldadıcıdır, nə xarici, nə də yerli məhsulların keyfiyyətini şərtləndirir. Ümumiyyətlə, məhsulda keyfiyyət göstəricisi qiymət amili olmamalıdır.

M.Hüseynova bildirir ki, bazarda 1 kiloqram keyfiyyətli ətin qiyməti 14-20 manat arasında dəyişir. Amma, necə deyərlər, gözdən, könüldən iraq yerlərdə bəzən 4-5 manata ət məhsullarının satışına rast gəlinir. Çox güman ki, həmin məhsullar xəstə və ya ölü heyvanların ətindən hazırlanır. Əslində, bazara kiloqramı 14-20 manata çıxarılan ətdən belə ucuz qiymətə – 400 qramlıq "Halal" kolbasanın istehlakçıya 6-7 manata təqdim olunması ağlabatan görünmür. Bu da mövcud qiymətin məhsulun heç maya dəyərini ödəməməsi ilə bağlı müəyyən şübhələrə yol açır. Mütəxəssisin fikrincə, bu, ümmun sistemini aşağı salan, bağırsaqların hərəkətliliyini azaldan və müəyyən xəstəliklərə yoluxmaq risklərini gücləndirən məhsulun keyfiyyət göstəricisindən xəbər verir.

Sağlam qidalanma üzrə mütəxəssis, eyni zamanda, əvvəllər bu cür kolbasaların ev şəraitində hazırlandığını, məhsulun 80 faizinin ət, həmçinin ədviyyatlar təşkil ediyini vurğulayaraq belə məhsulların soyuducuda uzun müddət saxlanılmasının mümkünlüyünü və delikates kimi istifadə olunduğunu da diqqətə çatdırır.

Qeyd edək ki, kolbasa və sosislərin istehsalı zamanı bir sıra hallarda texnoloji proseslərə də ciddi əməl edilmir. Məhsulun hazırlanmasında az miqdarda ətlə bərabər, heyvanın digər hissələrindən, məsələn, qığırdaqlarından təmizlik prinsipinə laqeyd yanaşılmaqla istifadə olunur. Bu kimi narahatlıq doğuran məqamlara aydınlıq gətirən M.Hüseynova deyir ki, xaricdən ixrac edilən kolbasa məhsullarının istehsalı zamanı istehlaka yararsız heyvan ətlərinin qalıqlarından və ya xəstə heyvanların ətindən istifadə olunur, tərkibinə isə monosoidum qulitamad adında Çin duzu kimi tanıdığımız maddə qatılır. Belə bir təhlükəli qatqıya üstünlük verilməsinin isə məhsulun dadlandırılması və uzun müddət saxlanılması məqsədi daşıdığını bildirən qida ekspertinin sözlərinə görə, kolbasa və sosislərin tərkibinə qatılan monosoidum qulitamad, həm də istehlakçılarda dərin asılılıq yaradır, alıcıları davamlı olaraq həmin məhsuldan istifadə etməyə alışdırır.

Yeri gəlmişkən, ətin baha satılması müqabilində kolbasaların nə üçün ucuz olması sualına cavab verən ekspertlərin bir qismi isə bildirir ki, buna səbəb məhsulun hansısa yollarla əldə olunan keyfiyyətsiz ətlərdən istehsal edilməsidir. Kolbasa və sosislərə qəsdən hansısa bakteriya, virus, zərərli maddələr vurulmur. Çox güman ki, ölmüş heyvan ətindən istifadə edilir, bu zaman təbii ki, müəyyən qatqılar, alternativ məhsullar əlavə edilir. Bu vasitəyə bəzən də kolbasanın saxlanma müddətini uzatmaq, müxtəlif dad, ətir vermək, maya dəyərini aşağı salmaq üçün əl atılır. Belə hallar da, şübhəsiz, yalnız ciddi ekspertizanın nəticəsində aşkarlana bilər.

Kolbasa və sosislərin istehsal edildiyi müəssisələrdə xammalın saxlandığı soyuducu və dondurucu anbarlar da qida təhlükəsizliyinin tələblərinə cavab vermir. Müvafiq qurumların araşdırmaları əsasında məlum olur ki, bəzi istehsal müəssisələrində tam antisanitariya vəziyyəti hökm sürür, işçilərin geyimləri müasir tələblərə cavab vermir. Hətta bəzi sexlərdə istehsal prosesi zamanı istismara yararsız, köhnə avadanlıqlardan istifadə olunur. Bununla yanaşı, kolbasa və sosislərin, eləcə də digər oxşar məhsulların istehsalında istifadə edilən ətin saxlanma şəraitinə, temperatur rejiminə əməl olunmur. Bütün bunlar isə son nəticədə məhsulun keyfiyyətinə ciddi təsir göstərir.

Bir məqamı da qeyd edək ki, bəzi istehsalçılar məhsulun tərkibi ilə bağlı müxtəlif yanlış məlumatlarla istehlakçıları aldatmağa çalışır, hətta buna nail də olurlar. Belə ki, məhsulun üzərindəki etiketlərdə onun hazırlanmasında kərə yağından istifadə edildiyi bildirilsə də, yoxlama zamanı bunun bitki və bitki spred yağı olması aşkarlanır. Kolbasa və sosislərin müəyyən qisminin üzərində məhsulun istehsal və son istifadə tarixləri göstərilmir, hətta bəzən taraların üzərində yazılan tarixlə məhsulun üzərindəki tarix arasında uyğunsuzluq nəzərə çarpır. İstehlakçıların aldadılmasından söhbət düşmüşkən, bəzi sahibkarlar "halal" adı altında, əslində, haram işlərə əl ataraq donuz ətindən hazırlanmış kolbasa və sosisləri ticarət şəbəkələrinə göndərirlər.

Qeyd edək ki, qida təhlükəsizliyi ilə bağlı neqativ hallar ekspertlər, eləcə də Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən vaxtaşırı olaraq mediada yayılsa da, aparılan monitorinqlərin mənfi nəticələri elan olunsa da, bunun qarşısını almaq müşkülə çevrilir. Mənşəyi məlum olmayan ətlərdən, həmçinin digər məhsullardan hazırlanan keyfiyyətsiz kolbasa və sosislərin istehsalının dayandırılması, yaxud bu sahədə çalışan iş adamlarının cərimələnməsi, aşkarlanan nöqsanlarla bağlı qanunvericiliyin tələblərinə uyğun müvafiq tədbirlər görülməsi, nəhayət, müxtəlif ticarət markası ilə kolbasa və sosislər hazırlayan istehsal sahələrinin fəaliyyəti üzrə qida təhlükəsizliyi qeydiyyatının ləğv olunması kimi tədbirlər də digərlərinə "dərs" olmur.



Belə halda sual yaranır: əhalinin sağlamlığının qorunması və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi üçün müəyyən tədbirlərin nəticəsiz qalması, başqa sözlə, istehlakçı hüquqlarının pozulmasının davamlı xarakter alması nə ilə bağlıdır? Yaxud qida təhlükəsizliyində ciddi narahatlıq doğuran qanunsuz halların qarşısının alınması istiqamətində hansı qəti addımlar atılmalıdır? Fikrimizcə, Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun rəyində bu suallarla bağlı müəyyən məqamlara aydınlıq gətirilir.

### Ekspert rəyi

**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**



Neçə illərdir, əhali tərəfindən ət və ət məhsulları ilə bağlı Azad İstehlakçılar Birliyinə müraciətlər ünvanlanır. Həmin müraciətlərdə istehlakçılar bu növ məhsulların markalanması, çeşidi, qiyməti və s. barədə suallar verirlər. Əksər hallarda istehlakçılar ət məhsullarının: kolbasa və sosislərin qiymətinin ətin qiymətindən dəfələrlə ucuz olmasının səbəbi ilə maraqlanırlar. Yeri gəlmişkən, yadıma SSRİ dönəminin məşhur bir məsəli düşür. O zaman kolbasa nədir, sualının bir cavabı var idi. Deyirdilər ki, kolbasa sudur, duzdur və bir də vicdan. Vicdan dedikdə, ət nəzərdə tutulurdu. Yəni kolbasa istehsalı zamanı çox vaxt yanaşma belə idi ki, nə qədər istəyərsən, o qədər qarışdırarsan, istəməzsən, heç qarışdırmazsan. Vaxtilə xalq arasında işlədilən bu ifadə bugünlərdə daha çox aktuallıq kəsb edir.

Hər şeydən əvvəl qeyd etmək istəyirəm ki, Azərbaycan hökuməti biznes qurumları üçün son dərəcə rahat şərait yaradıb. İndi heç bir dövlət məmuru hər hansı bir biznes qurumundan rüşvət tələb edə bilməz. Belə olan təqdirdə biznes qurumlarının gəlirləri, vergiləri ödəmək şərtilə, tam özlərinə qalır. Lakin təəssüflər olsun ki, biznes qurumları, o cümlədən ət və ət məhsullarının istehsalçıları və belə malların Azərbaycana idxalı ilə məşğul olanlar bu vəziyyətdən sui-istifadə edirlər. Bəziləri hökumətin yaratdığı bu rahat, toxunulmazlıq mühitini düzgün, adekvat qiymətləndirmir və ya qiymətləndirmək istəmir. Belələri bazara standartlara uyğun olmayan, insan sağlamlığı üçün zərərli olan ət məhsulları çıxarırlar.

Əgər biz müasir supermarketlərə nəzər yetirsək, burada da müxtəlif kolbasa, sosislərin və ət məhsullarının çoxsaylı çeşidlərini görərik. Onların böyük bir hissəsi xaricdən gətirilir.Təəssüflər olsun ki, marketlər kənardan gətirilən kolbasa və sosislərə daha geniş yer verir, nəinki yerli istehsala. Hansı ki, daxili bazarda Rusiyadan, Belarusdan və digər ölkələrdən gətirilən ət və ət məhsullarından daha keyfiyyətli, ekoloji cəhətdən daha təmiz məhsullar mövcuddur. Ancaq marketlər kimlər çox pul verirlərsə, onlara daha çox yer ayırırlar.

İstehlakçılar birmənalı şəkildə bilməlidirlər ki, bütün hallarda müəyyən standartlara, sanitar-gigiyenik normalara uyğun olmayan kolbasa və sosiska istehsalçıları istisna olmaqla, müasir tələblərə cavab verən istehsal müəssisələrinin məhsulları xaricdən gətirilən istənilən məhsuldan qat-qat üstündür. Belə ki, xaricdən gətirilən məhsullar daha çox kimyalaşmış olsa da, daha yaxşı etiketlənir, daha yaxşı dada və qoxuya malik olduğu üçün çoxsaylı istehlakçı cəlb edir. Həmin məhsullar uzun məsafə qət etdiyi üçün müəyyən risklərlə üzləşə, müəyyən müsbət temperatur rejiminə düşə bilər. Bu səbəbdən yolda yenidən dondurulması mümkündür. Bunların qarşısı alınsın deyə, həmin məhsullar daha çox kimyalaşmaya məruz qalır. Əgər biz yerli istehsal olan kolbasa və sosislərlə xaricdən gətirilən məhsulların etiketləri arasında müqayisə aparsaq, görərik ki, onların istehsal tarixi və yararlılıq müddəti tam fərqlidir. Xaricdən gətirilən məhsulların istehsal tarixi ilə yararlılıq müddəti arasında zaman fərqi daha böyükdür. İstehlakçılar birmənalı şəkildə bilməlidirlər ki, hansı məhsulun buraxılma tarixi ilə yararlılıq müddəti arasında məsafə kiçikdirsə, onlar daha təmizdir. Üstəlik, maya dəyəri ucuz başa gəlsin deyə, yerli məhsullar kimyalaşmaya daha az məruz qalır.

Eyni zamanda, yerli kolbasa və sosislərin istehsalında ən çox yaşlı heyvan ətlərindən, eləcə də Hindistandan gətirilmiş camış ətindən istifadə olunur. Yeri gəlmişkən, camış inəkdən daha sağlam, baytarlıq dərmanlarına daha az məruz qalan bir heyvan cinsidir. Hazırda Hindistandan Azərbaycana külli miqdarda camış əti ixrac olunur. Ölkəmizdə kolbasa və sosislərin istehsalında bu ətdən geniş istifadə edilir. Təəssüflər olsun ki, uzun illər yerli istehsalçılar camış ətini məmulatın üzərində mal əti kimi qeyd ediblər. Əslində bu elə də ciddi qanun pozuntusu deyil. Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) məsələyə müdaxiləsi nəticəsində belə halların qarşısı alınıb. Artıq yerli kolbasa və sosiska istehsalçıları məhsulun üzərində onun camış ətindən hazırlandığını qeyd edirlər.

Yaşlı heyvanların əti son dərəcə bərk olduğundan yeməyə yararlı olmur. Ona görə də yaşlı, uzun illər süd, bala vermiş heyvanlar sonradan istehsal müəssisələrinə göndərilir. Onların əti isə istehsalçılara 5-6 manata başa gəlir. Yerli müəssisələrin istehsalı olan kolbasa və sosislərin qiymətinin aşağı olması da, əsasən, bu amillə bağlıdır. Bununla belə, Azad İstehlakçılar Birliyinin apardığı tədqiqatlar göstərir ki, xaricdən gətirilən kolbasa və sosislərdə ətin miqdarı çox az olur. Əksər hallarda məhsula heyvanın yeliyini, beynini və digər submərhsullarını, eləcə də kifayət qədər nişasta, soya unu və digər komponentlər qarışdırırlar. Bununla yanaşı, müxtəlif kimyəvi üsullarla məhsulu dadlı və yaxşı qoxulu edərək onun cəlbediciliyinə nail olurlar. Bu zaman məhsulun diqqətçəkən şəkildə etiketlənməsi də istehlakçıların marağına səbəb olur.

Çox təəssüflər olsun ki, AQTA bu seqmentin bütün sektorlarının əhatə edə bilmir. Hesab edirəm ki, tarladan və ya fermadan istehlakçının masasına qədər qida zəncirində iştirak edən bütün subyektlər AQTA-da qeydiyyatdan keçməlidirlər ki, qurum onlarla müəyyən maarifləndirmə işi apara, eləcə də lazımi nəzarət tədbirləri həyata keçirə bilsin. Lakin markalanmayan və əslində təhlükəli olan ət məhsulları istehsalçılarının əksəriyyəti AQTA-da qeydiyyatdan keçməyiblər. Eyni zamanda, ölkədə yoxlama prosedurları lazımi səviyydə deyil. Düşünürəm ki, yoxlayıcı qurum qarşı tərəfə bir həftə öncə nəyi, nə məqsədlə araşdıracağını bildirməməlidir. Qeyd etdiyim kimi, hökumətin biznes qurumları üçün yaratdığı rahat şəraitdən sui-istifadə halları, eləcə də xaricdən gətirilən və yerli standartlara uyğun istehsal olunmuş məhsullardan keyfiyyətcə çox-çox geri qalan, antisanitariya şəraitində istehsal olunan yerli məhsullar bazarda haqsız rəqabət mühiti yaradır. Bundan isə bütün qaydalara uyğun məhsul istehsal edən yerli sahibkarlar əziyyət çəkirlər.

Standartlara uyğun məhsul istehsal edən müəssisələr isə öz bazarlarını qorumaq üçün heç bir addım atmırlar. Bunun da səbəblərindən biri budur ki, onlar birləşib öz bazarını qorumaq üçün müəyyən təşəbbüs göstərərlərsə, o zaman supermarketlər onları boykot edə, şəbəkədən çıxara bilər. Yeri gəlmişkən, Azad İstehlakçılar Birliyi Nazirlər Kabinetinə marketlərlə təchizatçılar arasında münasibətləri tənzimləyən bir hüquqi sənədin hazırlanması ilə bağlı dəfələrlə müraciət ünvanlayıb. Təəssüf ki, hazırda belə bir sənədin mövcud olmaması səbəbindən marketlər təchizatçılarla istədikləri kimi davranır, istənilən vaxt onları şəbəkədən çıxara bilirlər. Hətta bəzi marketlər təchizatçılara olan külli



məbləğdə borcları vaxtında qaytarmır. Belə olan təqdirdə istehsalçılar həmin vəsaitdən öz müəssisələrinin inkişafı üçün istifadə edə bilmirlər.

Belə qaydaların olmamasına görədir ki, hazırda bazarda ət və ət məhsullarının satışı ilə bağlı böyük xaos hökm sürür. Az qala, addımbaşına istehlakçıların hüquqlarının pozulması, onların aldadılması hallarına rast gəlinir. Bütün keyfiyyətsiz məhsulların həyatımızda mənfi izləri vardır. Yeri gəlmişkən, Hippokrat deyirdi ki, biz nə yeyiriksə, oyuq. Yediyimiz qidaların içində ət və ət məhsullarının payı çox olduğundan onların keyfiyyətinə xüsusi diqqət yetirilməlidir. Düşünürəm ki, hökumət bu sahədə ciddi iş aparmalı, xüsusən də AQTA-nın əsasnaməsinə dəyişiklik edilməlidir.

Ölkədə təhlükəli ətlərin kolbasa və sosiska məhsulları istehsalı müəssisələrinə, dönərxanalara gedən yolu bağlanmalıdır. Düzdür, Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsi regionlardan paytaxta gətirilən at, eşşək və ya ölmüş heyvanların ətlərinin Bakıya daşınması hallarını ifşa edir, ekspertiza aparır, cinayət işi açır, adamlar həbs olunur. Eyni zamanda, Azad İstehlakçılar Birliyi də 30 ilə yaxındır ki, anormal vəziyyəti izləyir, bu yolları təqib etməyə çalışır. Lakin bu sahədə lazımi nəticə əldə edilmir. Bütün hallarda istehlakçılar bazarda keyfiyyətsiz ət və ət məhsulları ilə rastlaşdıqda mütləq Qida Təhlükəsizliyi Agentliyinə müraciət etməlidirlər.

Yeri gəlmişkən, bu yazıda ekspertlərin istehlakçılara keyfiyyətli məhsul seçimi ilə bağlı tövsiyələrini də diqqətə çatdırırıq. Bildirilir ki, kolbasa məmulatlarının istehsalında məhsulun tərkib hissəsinin düzgün seçimi əsas şərtdir. Belə ki, kolbasa istehsalında mal, dana və donuz ətinə üstünlük verilsə də, qoyun, quş və digər ət növlərindən, həmçinin müxtəlif qida qatqılarından, duz, şəkər, ədviyyatlardan da istifadə olunur. Məhsulun çəhrayı-qırmızı rəngdə olması istehsal prosesində həmin xam məhsulların düzgün ardıcıllıqla istifadəsini göstərir və bu, keyfiyyətin əsas amillərindən biridir. Qəhvəyi və ya bozumtul rəngin formalaşması isə məhsulun korlandığından və ya tezliklə təhlükəli vəziyyətə düşəcəyindən xəbər verir.

Sosislərin istehsalında da texnoloji prosesin pozulması məhsulun keyfiyyətinə gətirib çıxarır. Ekspertlər bildirirlər ki, keyfiyyətli sosis elastik olmalıdır. Məhsula yüngül təzyiq edildikdə qısa müddət ərzində öz əvvəlki formasına qayıtmalıdır. Əks halda, bu, sosisin tərkibində zülal və qatqı maddələrinin miqdarının çox olmasını göstərir. Eyni zamanda, sosisin qabığı bütöv, hamar və quru olmalıdır. Qabıqda zədə, selik, ərp yolverilməzdir və farşa tam şəkildə yapışmalıdır. Amma istehlaka yönəldilən bu növ məhsullarda vurğulanan tələblərə çox vaxt əhəmiyyət verilmir.

***Mirbağır YAQUBZADƏ,***
***Vaqif BAYRAMOV***
***XQ***

# Qarabağ erməniləri Hayastanda miskin durumdadırlar



(əvvəli 1-ci səhifədə)

Zənnimizcə, bu məqamda Prezident İlham Əliyevin fikirlərindən iqtibas gətirmək yerinə düşər. Noyabrın 20-də İraq Prezidenti Əbdüllətif Camal Rəşidlə görüşdən sonra mətbuata verdiyi bəyanatda dövlətimizin başçısı deyib: "Bizim səbrimiz bu ilin sentyabrında tükəndi və biz beynəlxalq hüquqa tam riayət edərək öz suveren ərazimizdə antiterror tədbirləri apardıq. Bu tədbirlər 24 saatdan az davam etdi və mülki əhali arasında itkilər olmadı. Düşünürəm ki, indi Yaxın Şərqdə müşahidə etdiklərimizə münasibətdə bu antiterror tədbirləri mülki əhali arasında hərbi əməliyyatları itkisiz necə aparmaq lazımdır nöqteyi-nəzərdən bir örnək hesab olunmalıdır".

Maraqlıdır ki, Qarabağdan köçən ermənilər özləri də Ermənistanın media qurumlarına bölgəni könüllü tərk etdiklərini bildiriblər. Onların açıqlamaları ermənipərəst dairələrə verilən ən tutarlı cavab hesab oluna bilər. Məsələn, "Azadlıq Radiosu"nun erməni xidmətinin ("Radio Azatutyun") hazırladığı "Azərbaycanlılar bizi saxladıb deyirdilər ki, getməyin, qalın!" sərlövhəli reportajda dörd uşaq anası Məryəm Şekyan deyib ki, azərbaycanlılar "Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsində onları maşından düşürüb dilə tuturdular ki, getməyin: "Bizi saxladıb deyirdilər ki, hara tələsirsiniz, getməyin, qalın, inteqrasiya edin. Sizə dəyməyəcəyik. Biz onlara cavab vermirdik, sadəcə, tez bir zamanda həmin məntəqədən keçib getmək istəyirdik. Onlara bir kəlmə belə demədik. Onlar da sənədlərimizə baxmadı. Sadəcə, maşınımızı yoxlayıb buraxdılar".

Qarabağda yaşamış digər ermənilər də müsahibələrində oxşar fikirlər səsləndiriblər. Etiraf ediblər ki, Azərbaycan onların gedişini arzulamırdı. Eyni zamanda, bildiriblər ki, Bakı ən yüksək səviyyədə Qarabağın erməni sakinlərinə Azərbaycan vətəndaşlığını qəbul etməyi və orada qalmağı təklif edib. Həmin açıqlamaları dinlədikdə bu qənaət hasil olur: Azərbaycandan heç kim ermənilərə zülm etməyib, onları "etnik təmizləmə"yə məruz qoymayıb, məcburi köçkünə çevirməyib, indiki miskin həyatı yaşamağa məcbur etməyib. Əgər bunu edən olubsa, o da keçmiş separatçı xunta rejiminin "qlavar"ları və Ermənistandakı "Qarabağ klanı" olub. Atalar "yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır" – deyiblər. Ancaq xaricdəki anti-Azərbaycan dairələri "YouTube" videohostinqindəki etiraf videolarını görmək istəmirlər. Sözsüz ki, bu da onların qərəzli olmasından irəli gəlir. Qoy, onlar özlərini görməzliyə vursunlar. Biz də öz işimizi görərək, bəzi erməni sakinlərin müsahibələrindən çıxarışlar edib diqqətə çatdırırıq.

Qayane Ambarsumyan: "Biz Azərbaycan sərhəd buraxılış məntəqəsindən normal keçdik. Onlar bizə şirniyyat, çörək və su təklif edirdilər. Bizə çox humanist yanaşırdılar. Sentyabrın 25-də Xankəndi ətrafında yanacaqdoldurma məntəqəsində baş verən yanğın zamanı çox sayda həlak olanlar və yaralananlar oldu. Azərbaycanlı həkimlər onlara kömək göstərdilər. Xəsarət alanların bir çoxunu Şuşaya apardılar, qalanlarını Xankəndidə müalicə etdilər. Yanacaqdoldurma məntəqəsindəki yanğını məhz azərbaycanlı yanğınsöndürənlər söndürdülər. Siz soruşursunuz ki, bütün baş verənlərdə kim təqsirkardır. Əlbəttə, bizim hakimiyyət. Bu gün biz onların təqsiri ucbatından əziyyət çəkirik. Qarabağ erməniləri qaraçı taboruna çevrilib".

Arevik Yervandyan bildirib ki, Qarabağda qalan və Azərbaycana reinteqrasiya etmək istəyən ermənilər var. Ancaq onların sayı azdır: "Bunlar əsasən yaşlı insanlardır. Onlar bildirirlər ki, getməyə yerləri yoxdur".

Lilit Manukyan isə deyib: "Azərbaycan hərbçiləri bizdən soruşurdular ki, Qarabağı niyə tərk edirsiniz? Onlar bildirirdilər ki, hər şey yaxşı olacaq. Sonra yenə soruşurdular ki, kimsə sizi getməyə məcbur edir? Onlar tərəfdən hər hansı istehza hiss etmirdik. Bizə yaxşı münasibət bəsləyirdilər. Onların suallarına nə cavab verəcəyimizi bilmirdik".

Şamiram Arakelyan Qarabağa qayıtmaq istəyini bu sözlərlə ifadə edib: "Orada qalmağı çox istərdim. Əgər qayıtmağın və orada yaşayışı davam etdirməyin mümkün olduğunu desələr, əlbəttə, qayıdarıq. Həkəri körpüsündə Azərbaycan sərhədçiləri bildirirdilər ki, sizi buradan getməyə kimsə məcbur edir? Biz bildirirdik ki, yox. Deyirdilər ki, bəs nə üçün gedirsiniz? Bizim ermənilər yoxdur, rus problemimiz yoxdur. Əvvəllər biz azərbaycanlılarla bir yerdə yaşayırdıq və heç bir problemimiz yox idi. Bilmirəm yenidən birgə yaşamaq alınacaqmı? Baxaq, görək nə olacaq".

Diqqətə çatdırdığımız bu açıqlamalardan da göründüyü kimi, ermənilər Qarabağı öz xoşları ilə tərk ediblər. Onlar yenidən qayıdış arzusunda olduqlarını da gizlətmirlər. Artıq Qarabağ ermənilərinin ilə yerli ermənilər arasında münasibətlərin yumşaq desək, hamar olmadığı barədə məlumatlar yayılmaqdadır. Xüsusilə Qarabağdan könüllü köçən ermənilərin uşaqları Ermənistanda məktəblərdə kütləvi şəkildə bullinqə (UNİCEF bullinqi uşaqların incidilməsinə səbəb olan ixtiyari və təkrar olaraq törədilmiş aqressiv davranış kimi tövsif edib – S.H.) məruz qalırlar. Hüquq müdafiəçisi, Ermənistanın sabiq ombudsmanı Larisa Alaverdyan "Sputnik Ermənistan"a müsahibəsində deyib ki, qarabağlı uşaqlara qarşı zorakılığın səbəblərindən biri də dövlətin siyasi mövqeyi və ölkə vətəndaşlarının ailələrində formalaşmış stereotiplərdir.

L.Alaverdyan qeyd edib ki, bullinq dünyanın heç bir yerində qəbul edilmir. Lakin elm və təhsil naziri Janna Andreasyanın məsələyə münasibəti təəccüb doğurur: "Nazir məktəblərdə zorakılıq təzahürlərini istisna etmədiyini deyəndə, o, buna dözmək lazım olduğunu göstərdimi? Halbuki, Andreasyan Qarabağdan olan uşaqlara qarşı zorakılıqları dərhal pisləməli idi".

Sabiq ombudsmanın sözlərinə görə, bullinqin bir təzahür kimi kökündən kəsilməsi üçün Qarabağdan olan həmyaşıdlarına qınaqla yanaşan uşaqlarla söhbətlər aparılmalı, izahat işləri görülməlidir.

Qeyd edək ki, Ermənistan hökumətinin noyabrın 23-də keçirilən iclasında ölkə məktəblərində Qarabağdan gəlmiş uşaqlara qarşı bullinqin təzahürlərinin olduğu qeyd edilib. Problemi daha əvvəl keçirilmiş tədbirdə dəvət edilmiş uşaqlardan biri qabardıb. Azyaşlını 1989-cu il noyabrın 20-də BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin ildönümü münasibətilə keçirilən tədbirə dəvət ediblər. Onun bullinqlə bağlı sualına cavab olaraq elm və təhsil naziri Janna Andreasyan məktəblərdə zorakılığın baş verməsini və belə halların aşkarlanmasının çox çətin olduğunu istisna etməyib.

Göründüyü kimi, ötən əsrin 80-ci illərinin sonlarında öz dövlətlərinə qarşı çıxan, separatizm, xəyanət yolu tutan Qarabağ erməniləri hazırda, necə deyərlər, öz əkdiklərini biçməkdədirlər. Onları qızışdıran, xəyanətə sövq edən "Qarabağ klanı" üzvlərinə heç nə olmadı. Nə oldusa, sadə ermənilərə oldu. Bu miskinlikdən nə vaxt yaxa qurtaracaqları isə onların özlərindən asılıdır. Azərbaycan dövlətinin mövqeyi və siyasi iradəsi ortadadır. Onun nədən ibarət olduğunu isə Qarabağ erməniləri çox yaxşı bilirlər.

*Səxavət HƏMİD*
*XQ*

## Ekspert rəyi



**Rizvan HÜSEYNOV,**
**siyasi şərhçi**

– Azərbaycan antiterror tədbirləri zamanı mülki şəxslərə çox böyük həssaslıqla yanaşırdı. Təşviş yaradan və Qarabağ ermənilərini köçməyə məcbur edən elə Ermənistan tərəfi özü və onun arxasında dayanan qərbli tərəfdaşları – Fransa və ABŞ idi. Burada bir neçə məqsəd güdülürdü. Sözsüz ki, bunlardan biri Qərbin sonradan Azərbaycanı suçlamaq üçün bəhanə əldə etmək istəyi idi. İkincisi, Qarabağ ermənilərinin məcburən köçürülməsi Rusiya sülhməramlı missiyasının çökməsi anlamına gəlirdi. Əgər Qarabağda ermənilər yoxdursa, rus sülhməramlı missiyasının mənası itir. Faktiki olaraq Rusiya sıxışdırılaraq regiondan çıxarılır. Bu da Qərbin işinə yarayır. Bunun ardınca Fransa və ABŞ tərəfdən gedən rus sülhməramlılarının ardınca Qərb kontingenti – BMT-nin "mavi dəbilqələr"i Qarabağa girsin. Yəni, burada siyasi məqsədlər var. Sözsüz ki, Azərbaycan buna imkan verməyəcək.

Qarabağ erməniləri isə bu siyasi oyunlarda qurbana çevrildilər. Onlar Ermənistanda heç kimə lazım deyillər. 1990-cı illərdə Azərbaycandan köç edən ermənilərin əksəriyyəti Ermənistanda qalmadı. Üçüncü ölkələrə köçüb getdilər. Həmin aqibət də Qarabağ ermənilərini üçün hazırlanıb. Deyilənə görə, artıq onların 20 faizi Ermənistanı tərk edib. Onların sayı hər gün artır. Nəticə etibarilə Qarabağ ermənilərinin əksəriyyəti Rusiyanın cənubuna, Qara dəniz bölgəsinə köçüb gedəcək. Bu gün Qarabağ ermənilərinin başlarına gələnlər bəzi Qərb ölkələrinin çirkin oyunlarının nəticəsidir.

# "Qərbin diktəsi" İrəvanı sülh prosesindən yayındırır

**İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan Cənubi Qafqazda sülh və əməkdaşlığı təşviq etdiyi halda, Ermənistan regionu müxtəlif güclərin geosiyasi qarşıdurma meydanına çevirmək yolunu tutur. Ermənistanın destruktiv mövqedən çıxış etməsi, həlledici qərarlar qəbul etmək məqamında lazımi siyasi iradə göstərə bilməməsi, əslində, bizim üçün heç də yenilik deyil.**



İrəvanın danışıqlar prosesini son üç ildə imitasiya xatirinə davam etdirməsi Azərbaycan Ordusunun bu il sentyabrın 19-20-də lokal antiterror tədbirlərinə başlamasına, Qarabağdakı xunta rejiminin özünü buraxmağa məcbur edilməsinə və Ermənistanın tam hərbi-siyasi məğlubiyyətinə gətirib çıxarıb. Lokal antiterror tədbirlərindən sonra regionda formalaşan yeni geosiyasi reallıq hazırda beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunur. Qarabağdakı xunta rejiminin süqutu fonunda işğalçılıq planları tam iflasa uğrayan Hayastan erməniəsilli şəxslərin Qarabağdan könüllü köçü ətrafında qaldırdığı saxta kampaniya da faktiki olaraq nəticəsiz qalıb.

Proseslərin Azərbaycanın xeyrinə işlədiyini yaxşı başa düşən Ermənistan sülh danışıqlarını "tormozlamaq" yolunu seçib. Bunun əsas səbəblərindən biri də Hayastanın Rusiya və Qərb arasında tədricən geosiyasi rəqabət meydanına çevrilməsidir. Xüsusilə Fransa və ABŞ Cənubi Qafqazda sülhün tez bir zamanda bərqərar olmasını Rusiyanın maraqlarına cavab verən proses kimi dəyərləndirir, buna mane olmaq üçün İrəvana təsirlərini gücləndirməyə çalışırlar.

ABŞ və Fransa 30 ilə yaxın müddətdə ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələr kimi, Ermənistanın işğalçılıq siyasətinə son qoyulması, beynəlxalq hüquq normalarının, haqqın-ədalətin bərpası istiqamətində real addım atmayıblar, əksinə, "status-kvo"nun olmasına cəhd ediblər.

Onu da xüsusi olaraq vurğulamaq lazımdır ki, bu dövlətlər İkinci Qarabağ müharibəsindən, eləcə də lokal antiterror tədbirlərindən sonra regionda formalaşan yeni geosiyasi reallıqları həzm edə bilmirlər. Azərbaycanın 30 ildən çox davam edən münaqişəyə və işğal faktına birdəfəlik son qoyması, regionda sülh gündəliyini diktə etməsi Ermənistanın himayədarlarını ciddi narahat edir. Azərbaycan və Ermənistanın arasında "vasitəçi" roluna iddialı olan ABŞ və Fransanın beynəlxalq hüququn normalarından və indiyədək əldə olunmuş razılaşmalardan çıxış etməmələri, tərəf tutmaları tamamilə yolverilməzdir.

ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynın noyabrın 15-də Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin Avropa üzrə altkomitəsində keçirilən dinləmələr zamanı ölkəmiz əleyhinə səsləndirdiyi qərəzli fikirlər, eləcə də Fransanın iftira kampaniyasını son aylarda daha da genişləndirməsi, Ermənistana silah satması Vaşinqton və Parisin Cənubi Qafqazdakı proseslərə obyektiv mövqedən yanaşmadıqlarını göstərir. ABŞ rəsmisi Ceyms O'Braynın qondarma "Dağlıq Qarabağ" ifadəsindən istifadə etməsi isə təkcə erməni separatizminə dəstək deyil, eyni zamanda, Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə açıq-aşkar hörmətsizlikdir.

ABŞ Konqresinin yuxarı palatasının noyabrın 16-da Azərbaycana yardımla bağlı səlahiyyətlərdən imtinanı nəzərdə tutan qanun layihəsini təsdiqləməsi də təəssüf doğurur. Bu layihə ilə ABŞ Prezidentinin Azərbaycana münasibətdə 907-ci düzəlişi dayandırmaq səlahiyyətinə son qoyulub. Qeyd edilənlər göstərir ki, ABŞ-ın Cənubi Qafqazda sülhdə maraqlı olması ilə bağlı bəyanatları qeyri-səmimidir.

Görünür, həm ABŞ, həm də Fransa regionda siyasi-hərbi gərginliyi yenidən alovlandırmaq istəyi ilə Ermənistana təsir imkanlarını genişləndirməyə, onu Rusiyaya qarşı yeni demarşlara təhrik etməyə çalışırlar. Ermənistanın yekun sülh sazişi imzalaması, regional əməkdaşlıq təşəbbüslərinə qoşulması, Türkiyə və Azərbaycanla münasibətlərini normallaşdırılması həmin ölkələrin regiondakı məkrli maraqlarına cavab vermir. Çünki Vaşinqton və Paris Ermənistanın hazırkı miskin durumundan sui-istifadə etməklə, bu ölkə vasitəsilə Cənubi Qafqazda nüfuz imkanlar əldə etməyə çalışırlar. Rəsmi İrəvanın son bir ildə Rusiyanın vasitəçiliyi ilə aparılan danışıqlardan imtina etməsinin əsasında da məhz bu amil dayanır.

Bu gün ABŞ Administrasiyasının Cənubi Qafqazdakı proseslərə münasibəti Fransadan o qədər də fərqlənmir. ABŞ və Fransa rəsmilərinin qərəz püskürən ritorikası fonunda bu ölkələrin vasitəçiliyinin obyektiv və səmərəli olacağı da ciddi şübhələr doğurur. Rəsmi Bakının Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin noyabrın 20-də Vaşinqtonda keçirilməsi planlaşdırılan görüşdən imtina etməsi bu baxımdan kifayət qədər əsaslı addım olub. Azərbaycan bu qətiyyətli diplomatik gedişi ilə ABŞ-a, Fransaya ölkəmizlə təhdid dilində danışmaq cəhdlərinin qəbuledilməz olduğunu göstərib, Cənubi Qafqaz regionunu geosiyasi rəqabət və qarşıdurma meydanına çevirmək planlarına qarşı etirazını ifadə edib.

Bakı ilə yekun sülh müqaviləsini imzalamaqdan müxtəlif bəhanələrlə yayınması, ölkəmizə qarşı absurd iddialarından əl çəkməməsi bu gün İrəvanın əleyhinə işləyir, onu ABŞ və Fransanın əlində alətə çevirir.

Qarabağdakı xunta rejiminin ləğvi, eləcə də İran ərazisindən keçməklə, Naxçıvanla Azərbaycanın əsas hissəsini birləşdirəcək yeni dəmir və nəqliyyat yollarının çəkilməsi barədə rəsmi Tehranla əldə olunmuş razılaşmalar fonunda Ermənistanın kənar təsir altına düşərək, yekun sülh sazişindən yayınması tamamilə absurd addımdır. Əksinə, indiki halda Azərbaycanla sülhün əldə edilməsi, regionda sabitliyin təmini, Türkiyə ilə əlaqələrin bərpası, kommunikasiya əlaqələrinin yaradılması Ermənistanı üzləşdiyi təcrid və dalan ölkə vəziyyətindən xilas edə bilər. Odur ki, İrəvan gec olmadan ABŞ və Fransanın diktəsi ilə davranmağın onun üçün hansı acı və fəlakətli nəticələrə səbəb olacağını düzgün qiymətləndirməlidir.

*İsaxan VƏLİYEV,*
*Prezident yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*hüquq kafedrasının müdiri,*
*professor*

# Ağdərə rayonu yenidən təşkil edilir

(əvvəli 1-ci səhifədə)

Əsasən dağlıq, şərq hissəsi isə düzənliklərdən ibarət olan rayon faydalı qazıntılarla – polimetal yatağı, əhəngdaşı və gipslə zəngindir. Ağdərə mühüm kənd təsərrüfatı rayonlarından idi, iqtisadiyyatında üzümçülük, taxılçılıq, tütünçülük və heyvandarlıq əsas yer tuturdu. Tərtər çayı dərəsi boyunca Azərbaycanın yuxarı və aşağı Qarabağını birləşdirən avtomobil yolları var idi.

Ağdərənin tarixi memarlıq abidələri və qədim körpüləri, müqəddəs ziyarətgahı Ulduztəpə piri də düşmən tapdağında qalmışdı. Memarlıq abidələrindən Vəngli kəndindəki məşhur Gəncəsər alban məbədi, Kolatağ kəndində müqəddəs İako məbədi (635-ci il), Talış kəndi yaxınlığında Urek məbədi (XII əsr), Tərtər çayının yuxarı axarında məbəd (XIII əsr), Hatəm Məlik qalası və bir çox qədim məbədlər və tarixən salınmış körpülər, eləcə də bütün abidələr Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb və mənimsənilib.

Ermənistan Ağdərəni işğalda saxladığı dövrdə rayonun sərvətləri talan edərək beynəlxalq hüquqa zidd əməllər həyata keçirdi. Tərtər çayı



üzərində salınmış Sərsəng su anbarı ilə əlaqədar yaranmış vəziyyətə görə ciddi narahatlıq Avropa Şurası Parlament Assambleyasının 2085 saylı qətnaməsində öz əksini tapdı. Həmin qətnamədə qəsdən süni ekoloji böhranın yaradılması "ekoloji təcavüz" kimi qiymətləndirildi, Sərsəng bəndinin baxımsızlığının xeyli sayda insan itkisi və yeni humanitar böhranla müşayiət olunan fəlakətlə nəticələnə biləcəyi vurğulandı. Bu qətnamədə Ermənistan silahlı qüvvələrinin Sərsəng bölgəsindən dərhal geri çəkilməsi, Ermənistan hakimiyyətinin su ehtiyatlarından münaqişə tərəflərinin yalnız birinin xeyrinə siyasi təsir, yaxud təzyiq vasitəsi kimi istifadə etməsini dayandırması tələb edildi.

Bu il sentyabrın 20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Ağdərə şəhəri separatçılardan təmizləndi. Prezident İlham Əliyev oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Dövlətimizin başçısı noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradakı çıxışında bununla bağlı dedi: "Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz–həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün". Beləliklə, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın suverenliyi tam şəkildə bərpa edildi.

Ağdərə rayonunun yenidən yaradılması ilə bağlı qanun layihəsi Milli Məclisin Regional məsələlər komitəsində müzakirəyə çıxarılıb. Qanun layihəsinə əsasən, inzibati ərazi vahidi kimi 1992-ci ildə ləğv olunan, ərazisi Kəlbəcər, Tərtər və Ağdam rayonları arasında bölüşdürülən Ağdərə rayonunun ərazisinin əvvəlki qaydada təşkil olunması, Suqovuşan qəsəbəsinin də yenidən Ağdərə rayonunun tərkibinə verilməsi və rayonun mərkəzi isə Ağdərə şəhəri olması qərara alınıb.

Layihədə Kəlbəcər rayonunun ərazisindən 735,84, Tərtər rayonundan 851,25, Ağdam rayonundan isə 73,74 kvadratkilometr sahənin Ağdərə rayonunun inzibati ərazisinə verilməsi təklif olunub.

*XQ*

# “Multikultural cəmiyyətdə kitabxanaların rolu”





**Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında (MEK) ulu öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində “Multikultural cəmiyyətdə kitabxanaların rolu” mövzusunda I Beynəlxalq Elmi Konfrans keçirilir. İkigünlük elmi məclisdə Türkiyə, Rusiya, Qazaxıstan, Özbəkistan, Moldova və digər ölkələrdən gəlmiş qonaqların iştirakı ilə mövzuya dair məruzələr dinlənilir, müzakirələr aparılır.**

Konfrans iştirakçıları əvvəlcə kitabxana və Ümummilli liderin xalqa xidmətdə keçmiş həyatını və zəngin dövlətçilik fəaliyyətini əks etdirən kitablardan ibarət sərgi ilə tanış olublar.

Məclisi giriş sözü ilə açan MEK-in direktoru, professor Məmməd Əliyev Ulu öndərin 100 illik yubileyi ilə bağlı AMEA-da silsilə tədbirlərin keçirildiyini diqqətə çatdırıb, indiki konfransa isə Azərbaycanın 13 universitetindən, 5 kitabxanasından və 11 elmi qurumundan 122 məruzə daxil olduğunu qeyd edib. MEK-in yubiley tədbirlərində yaxından iştirak etdiyini vurğulayan ev sahibi söyləyib ki, kitabxananın elektron resurslar şöbəsinin “Heydər Əliyev – 100” layihəsinin materiallarını internetdə yerləşdirilib. “Heydər Əliyev İli”nə töhfə olaraq yubiley təqvimi və “Ulu öndərin müdrik fikirləri” audiodisi hazırlanıb.

Bildirilib ki, MEK-in təşkilatçılığı ilə respublika konfransı, sərgilər, kitab təqdimatları, “Heydər Əliyevin hərb siyasətinin Zəfəri” lektoriyası keçirilib. Ulu öndərin zəngin siyasi irsini özündə əks etdirən biblioqrafik göstərici nəşrə hazırlanıb. Nəhayət, Azərbaycanda multikulturalizm ənənələrinin formalaşması və bu modelin yaradılmasında Heydər Əliyevin xidmətlərini beynəlxalq müzakirəyə çıxarmaq üçün bügünkü məclis təşkil edilib.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli daim kitaba və mütaliəyə xüsusi diqqət yetirən Ulu öndərin yubileyi çərçivəsində kitabxanada belə bir tədbirin keçirilməsinin milli dəyərlərimizin himayədarının ölməz xatirəsinə layiqli töhfə oldiğunu vurğulayıb.

Plenar iclasda AMEA Azad Həmkarlar İttifaqının sədri, hüquq üzrə elmlər doktoru, professor Habil Qurbanov, akademik Vaqif Abbasov, BDU-nun informasiya və sənəd menecmenti fakültəsinin dekanı, dosent Ələmdar Cabbarlı və həmin universitetin professoru Zahid Cəfərov müzakirə edilən mövzunun öməmini qeyd edərək mülahizə və təkliflərini söyləyiblər.

Türkiyə Böyük Millət Məclisi kitabxanasının rəhbəri Arif Şayık, bu ölkənin İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutunun rəhbəri, professor Mustafa Lətif Əmək, Rusiya Elmlər Akademiyası Sibir bölməsi Elmi-Texniki Kitabxanasının direktoru, tarix elmləri doktoru İrina Lizunova dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin multikultural təliminin beynəlxalq kitabxanalar şəbəkəsində öyrənilməsi və yayılması ilə bağlı zəruri tədbirlərdən söz açıblar.

Gənc alim Günel Məlikli “Azərbaycan Respublikasının mədəniyyətinin inkişafında Heydər Əliyev fenomeni” adlı məruzə ilə çıxış edib.

Beynəlxalq konfrans bu gün bölmə iclasları ilə davam edəcək.

***Ramilə QURBANLI***
***XQ***

Tahir Salahov – 95

# Həyatın sərt üzünü görən rəssamın “Sərt üslubu”



**Xalq rəssamı, professor Tahir Salahovun 95 illik yubileyi münasibətilə görkəmli sənətkarın Ev-muzeyində tədbir keçirilib.**

Azərbaycan Milli Konservatoriyası tərkibindəki İncəsənət Gimnaziyası, “Aytam” Nərimanov rayonun uşaqları mədəni maarifləndirmə birliyi və KamaləArt qalereyasının birgə təşkil etdiyi mərasimdən əvvəl iştirakçılar Xalq rəssamının xatirəsinə həsr edilmiş sərgiyə baxıblar. Onun həyat və yaradıcılığını əks etdirən video-çarx nümayiş olunub. Ardınca gimnaziyanın şagirdləri və “Aytam” birliyinin uşaqları konsert proqramı təqdim ediblər.

Tahir Salahovun hələ özünün sağlığında yaratdığı Ev-muzeyinin direktorunun dediyinə görə, bura əvəllər rəssamın yaradıcılıq emalatxanası olub.

Ailələrində ondan başqa dörd uşaq böyüyürdü: iki qardaş, üç bacı. Sovet hökumətinin bütün varidatını əlindən aldığı atası əvəzində, onlardan iş istədi. İşlə təmin etdilər, amma 1938-ci ilin iyulunda gecə ilə “xalq düşməni” damğası ilə evdən apardılar. Ailə zülm-zillət içində qaldı.

Tahir Salahov Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini, sonra isə Moskva Surikov adına Rəssamlıq İnstitutunu bitirir. Orada oxuduğu vaxt atasının bəraət almasına çalışır. Nəhayət, buna nail olur.

Gələcək rəssam hələ 3-cü kursda oxuyanda Bakıda açılan respublika təsviri sənət sərgisində “Ləpə” və “Estakada” adlı əsərlərini nümayiş etdirir. Diplom işi isə “Növbədən qayıdanlar” tablosu olur. O vaxt Moskvada çıxan “İskusstvo” jurnalı yazırdı: “Tablo çox koloritlidir”.

Sənətşünasların fikrinə görə, Tahir Salahov məhsuldar işləyən rəssam olub. Onun əsərlərində çox böyük sadəlik, səmimilik var. Bu da sənətkarın ustalığından irəli gəlir. Ən adi tamaşaçı belə, o əsərlərdən nə isə götürə bilər.

Onun rəsm əsərlərinin adlarına fikir verin: “Təmirçilər”, “Səhər qatarı”, “Rezervuar parkı”, “Pəncərə”, “Neftçi portreti”, “Quraşdırıcılar”. Hər birində sovet rejiminin sifarişi olsa da, insan amilinə üstünlük verilib. SSRİ Dövlət mükafatına layiq görülmüş Tahir Salahov portret janrında da gözəl əsərlər yaradıb. Onun “Anamın portreti”, “Aydan”, “Qara Qarayev”, “Mirzə Ələkbər Sabir”, “Fikrət Əmirov”, “Rəsul Rza” və sair əsərləri bu qəbildəndir.

Rəssam öz ailə həyatını da tabloları ilə, sanki, tərcümeyi-hal kimi yaradıb. Qızına və həyat yoldaşına həsr etdiyi “Alagöz–Şərqin əfsanəsi”, “Aydan–Şərqin uldizu”, “Varya qırmızı divanda”, “Varya qırmızı papaqda”, “Varya Pikasso paltarında” əsərləri buna misal ola bilər.

Tahir Salahov Azərbaycan Rəssamlar Birliyində katib, Azərbaycan Dövlət İncəsənət Universitetində müəllim, Moskva Dövlət Universitetində kafedra müdiri, SSRİ Rəssamlar Birliyində birinci katib vəzifələrində işləyib. 1997-ci ildə Rus Rəssamlıq Akademiyasının vitse-prezidenti seçilib. Əsərləri dünyanın bir çox ölkələrində nümayiş etdirilib.

O, “Sosialist Əməyi Qəhrəmanı” adı alıb. Azərbaycan, Bolqarıstan, Polşa, Monqolustan və başqa ölkələrin orden, medal və mükafatlarına layiq görülüb. “Ölməzlər Akademiyası” adlanan Fransa Zərif Sənətlər Akademiyasına SSRİ-dən seçilən 3 nəfərdən biri Tahir Salahov olub. O, həm də Amerika Birləşmiş Ştatlarının bir neçə şəhərinin və Montana ştatının fəxri vətəndaşı olub.

Sanki, bütün bu həyat hekayəti 3 mərtəbəli Ev-muzeyinin divarlarına yazılıb. Səadət xanım bizə bələdçilik edir:

–10 il ərzində Tahir müəllimlə gəzmədiyimiz, sərgi keçirmədiyimiz ölkə qalmadı. Xalçalarını, rəsm əsərlərini özü sərgiləyirdi. Çox maraqlı şəxsiyyət idi. Biz ondan çox şey öyrəndik. Sevinirəm ki, bu gün onun bizə yadigar qoyduğu ev-muzeyini rəssamın adına layiq inkişaf etdiririk.

Dünyaca tanınmış azərbaycanlı rəssam 2 il öncə 92 yaşında vəfat edib. Bakıda Fəxri xiyabanda dəfn olunub. Dəyəri əsərlərində, xatirəsi ürəklərdə yaşayır.

***R.QURBANLI***
***XQ***

Təqvim yada salır

# Böyük “Əkinçi”nin ölməz xatirəsi

**Dünən Azərbaycan milli mətbuatının və ölkədə peşəkar teatrın əsasını qoymuş, mədəni tərəqqi yolunda bir sıra sivil özüllər yartmış Həsən bəy Zərdabinin əbədiyyətə qovuşmasının 116-cı ildönümü günündə keçirilən anım mərasimlərində böyük maarifçi-demokratın işıqlı xatirəsi dərin ehtiramla yad edildi, tarixi xidmətlərinə qədirbilənliklə nəzər salındı.**





Paytaxtın və Həsən bəyi xalqımıza bəxş etmiş Zərdab rayonunun bir qrup zərdabisevər gəncinin Nizami kino mərkəzində təşkil etdiyi mərasimdə Media Agentliyinin sifarişi ilə İctimi Televiziyanın ərsəyə gətirdiyi “Əkinçinin doğru sözü” bədii-sənədli filminə baxış keçirildi. Ssenari müəllifi Müqədəs Şahbazov, rejissoru İlkin Şirinli və operatoru Orxan Qurbanlı olan yeni ekran əsərində xalqımızı XX əsrin istiqlal savaşına hazırlamış böyük mütəfəkkirin mübarizələrlə dolu həyat yolu, sonsuz Vətən sevgisi, müqəddəs amalının əhatəli əksi gənc nəslin təmsilçilərində geniş bilgi və unudulmaz təəssürat yaratdı.

**Mərasimin təşkilatçısı zərdabisevər Ramil Mediyev və zərdabişünas Eldəniz Həsənov** filmin nümayişindən sonra orijinal ekran əsərini azadlıq və tərəqqi aşiqi olmuş Zərdabinin kinoda mükəmməl bədii obrazının yaradılmasına doğru atılmış uğurlu addım kimi dəyərləndirdilər.

Sonra mərasim iştirakçıları Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və böyük xalq xadimi Həsən bəy Zərdabinin məzarlarını ziyarət etdilər. Ölkəmizdə doğru sözün and yerinə çevrilmiş Həsən bəyin əbədi məkanında çıxış edən zərbabişünas jurnalistlər Tahir Aydınoğlu və Akif Aşırlı milli mətbuatımızın banisinin azərbaycançılıq məfkurəsinin əsaslarının yaradılmasında müstəsna xidmətlərini qeyd etdilər, bu misilsiz şəxsiyyətin həyat və mübarizəsinin yeni nəsillər üçün mükəmməl bir örnək olduğunu vurğuladılar.

Anım mərasimində bildirildi ki, Zərdabinin Azərbaycanın müstəqil və sivil bir məmləkət olması ilə bağlı ən böyük arzuları çağdaş dövrdə Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin tarixi səyləri ilə gerçəkləşib. Bu tarixi nailiyyət xalqının bəlalı taleyi ilə bağlı həyatdan nakam və narahat köşmüş Həsən Bəy Zərdabinin ruhuna ən böyük rəhmətdir.

***Tahir RÜSTƏMLİ***
***XQ***

REGİON XƏBƏRİ

# Yaxşı toxum bol məhsul deməkdir

## *Tovuzda Aqrar İnnovasiya Festivalı keçirilib*

**Tovuzda Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə keçirilən ənənəvi toxum sərgi-satış yarmarkasında Qazax, Ağstafa, Şəmkir, Gədəbəy, Göygöl, Samux rayonlarının DAİM rəhbərləri və 1500 fermer, toxumçular, ictimaiyyətin nümayəndələri və rayon sakinləri iştirak ediblər.**



Tədbiri giriş sözü ilə açan Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov çıxış edərək deyib ki, kənd təsərrüfatının bütün sahələrində olduğu kimi, toxumçuluğun inkişafına da diqqət yetirilir. Bu gün rayonda keçirilən toxum sərgi-satış yarmarkası rayon və ətraf bölgələrdən olan fermerlərə keyfiyyətli toxum almaq üçün böyük imkanlar yaradır. Çünki məhsuldarlığı artırmaq üçün fermerlər keyfiyyətli toxuma üstünlük verməlidirlər. Rayon rəhbəri “gərək toxumu elə seçəsən ki, sonradan peşimançılıq çəkməyəsən” deyərək fermerləri diqqətli olmağa çağırıb.

Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov qeyd edib ki, bu gün toxum istehsalında müasir innovasiyalardan istifadə olunur, müxtəlif iqlim şəraitinə uyğun toxumlar yetişdirilir. Ən əsası fermerlərin sərbəst seçim etmək imkanı var və regionlarda keçirilən yarmarkalar belə imkanlardan biridir.

Festivalda aqrar sahədə fəaliyyət göstərən şirkətlərin, həmçinin nazirliyin və digər dövlət qurumlarının mütəxəssisləri tərəfindən fermerlər üçün aqrar sığorta, bitkiçilik və heyvandarlıq, dəqiq əkinçilik, “ağıllı” kənd təsərrüfatı sistemləri, ən yaxşı qabaqcıl kənd təsərrüfatı təcrübələri, kənd təsərrüfatının inkişaf etdirilməsinə hədəflənən prioritet istiqamətlər barədə məlumatlar verilib.

Sonra aqrar sahədə innovativ məhsul, avadanlıq və texnologiyalar nümayiş etdirilib, toxum sərgi-satışı, kənd təsərrüfatı təyinatlı texnikalar, müasir suvarma metod və texnologiyaları, gübrə, pestisid nümunələri və aqrar sahəyə məxsus digər məhsullar sərgilənib.

Fermerləri maraqlandıran suallar cavablandırılıb, müvafiq məsləhət və tövsiyələr verilib.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Tovuz**

# Klassik poeziya və musiqimiz – Şərqin mədəni “İpək yolu”



**Dünən Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Səfiəddin Ürməvinin 825, Əbdülqadir Marağayinin 670, Mir Möhsün Nəvvabın 190 illiyinə həsr olunmuş “İslam dünyasının və Azərbaycanın klassik poeziyası və musiqisi mədəniyyətlərarası səsləşmənin “ipək yolu” kimi” mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**

Muzeyin direktoru, akademik Rafael Hüseynov anadan olmasının 100 illiyi ölkəmizdə və xaricdə il boyu geniş qeyd olunan ümummilli lider Heydər Əliyevin Azərbaycanın görkəmli klassiklərinin yubileylərinin yüksək səviyyədə qeyd edilməsinə xüsusi diqqət və qayğı ilə yanaşdığını bildirib. Bu ənənənin davamı olaraq Azərbaycanın üç böyük şəxsiyyətinin – Səfiəddin Ürməvi, Əbdülqadir Marağayi və Mir Möhsün Nəvvabın yubileylərinin ölkəmizdə qədirbilənliklə qeyd edilməsinin önəmini vurğulayan akademik bildirib ki, onların risalələrində orta əsr musiqi mədəniyyətinin, ifaçılığının yüksək inkişaf səviyyəsi açıqlanıb, Azərbaycan musiqisinin nəzəri problemləri ilkin olaraq işlənilib.

Bildirilib ki, XIII–XV əsrlərdə Yaxın və Orta Şərqin musiqi-nəzəri fikrinin inkişafı məhz Azərbaycanın iki böyük alimi və musiqiçisi Səfiəddin Ürməvi və Əbdülqadir Marağayinin adları ilə bağlıdır. Ürməvinin yazdığı “Kitab əl-Ədvar” və “Şərəfiyyə” risalələrində Azərbaycanda musiqi elminin əsası qoyulub və onun gələcək inkişafı üçün zəmin yaradılıb. Mir Möhsün Nəvvab isə Qarabağ ədəbi-mədəni mühitinin inkişafında özünəməxsus rolu olmuş ensiklopedist, zəngin ədəbi irs müəllifidir.

Mərasimdə akademik Rafael Hüseynovun “Müsəlman Şərqi ədəbiyyatı və musiqişünaslığında Azərbaycan məktəbləri”, professor Şəfəq Əlibəylinin “Məhəmməd Füzuli nəzmində musiqi alətləri akustik obrazlarının funksional-stilistik xüsusiyyətləri”, Bakı Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Əsmətxanım Məmmədova “Səs təqlidi leksemlər və idiofonlar söz yaradıcılığı müstəvisində”, filologiya üzrə fəlsəfə doktoru Gülnar Əqiq “Əbdülqadir Marağayinin əsərlərinin müasir musiqişünaslıqda tətbiqi” məruzələri dinlənilib. Professor Kamil Allahyarov İslamda musiqinin qadağan olunma səbəblərini açıqlayıb.

Beynəlxalq konfrans işini bölmələr üzrə davam etdirib.

***Qabil YUSİFOĞLU***
***XQ***

Beynəlxalq həyat

# HƏMAS – İsrail müharibəsi: atəşkəs 2 gün də uzadılıb

**HƏMAS ilə İsrail arasında müharibəyə nə vaxt son qoyula bilər? Bu suala birmənalı cavab vermək çətindir. Hər halda bölgədə sülhə olan ümidlər artır. Dünən Qətər dövlətinin rəsmisi Qəzzada atəşkəsin daha iki gün uzadılacağını bəyan edib. Bu barədə BBC məlumat yayıb.**

Qeyd edək ki, dördgünlük atəşkəs bazar ertəsi başa çatmalı idi və İsrailin daha çox fələstinli məhbusu, HƏMAS-ın isə daha çox girovu azad edəcəyi gözlənilirdi. Hələlik hər iki tərəf öhdəliklərini tam yerinə yetirməyib.

Məlum olduğu kimi, altı həftəlik müharibədən sonra qüvvəyə minən ilkin razılaşmada HƏMAS tərəfindən 50 girovun azad edilməsi, İsrailin isə 150 fələstinli məhbusu



sərbəst buraxması nəzərdə tutulurdu. Eləcə də bu müddət ərzində bütün hərbi əməliyyatlar dayandırılmalı idi.

Qəzzada döyüşlər, həqiqətən, dayandırılıb. Amma yuxarıda qeyd etdiyimiz kimi, girov və əsirlərlə bağlı vədlər tam yerinə yetirilməyib. Bunun səbəbləri açıqlanmayıb.

Fakt budur ki, BMT nümayəndəsi bazar günü axşam saatlarında, ümumilikdə, 39 israillinin, 117 fələstinlinin və 19 xarici vətəndaşın azad edildiyini bildirib. HƏMAS-ın girovluqdan azad etdiyi şəxslər arasında amerikalı qız da var.

Yeri gəlmişkən, ABŞ Prezidenti Co Bayden oktyabrın 7-də HƏMAS-ın İsrailə hücumu zamanı valideynləri öldürülən 4 yaşlı amerikalı qızın azad edilməsini alqışlayıb. Qlobal mediada bu barədə çox sayda şərhlər var.

Dünən ABŞ və İsrail liderləri telefonla regiondakı vəziyyəti müzakirə ediblər. Ağ evin bununla bağlı bəyanatında deyilir ki, Prezident Co Bayden və Baş nazir Binyamin Netanyahu girovların azad edilməsindən danışıblar. Onlar Qəzza zolağına əlavə humanitar yardımın artırılması məsələsini də müzakirə ediblər.

Xatırladaq ki, HƏMAS ilə İsrail arasında son cümə günündən başlanan müvəqqəti dördgünlük atəşkəs HƏMAS-ın oktyabrın 7-də İsrailə qəfil hücumu nəticəsində 1200 nəfərin ölümü və 240-a yaxın insanın girov götürülməsindən sonra başlanan müharibədə ilk fasilədir.

Fələstinlilərin itkiləri isə qat-qat çoxdur. Belə ki, silahlı qarşıdurmada 14 mindən çox Qəzza sakininin həyatını itirdiyi bildirilir. Yaralananların sayının isə 30 mini keçdiyi ehtimal olunur.

Qəzzada silahlar hələlik sussa da, regionda müharibə faktiki olaraq davam edir. Dünən İsrailin döyüş təyyarələri Dəməşq Beynəlxalq Hava Limanına ağır zərbələr endiriblər.

Bu barədə xəbərdə həmçinin deyilir ki, İsrail qırıcıları Dəməşq Beynəlxalq Hava Limanı və Suriyadakı bir sıra hərbi obyektləri hədəfə alıblar. Suriya rəsmiləri itkilər barədə məlumat verməyib, lakin qarşı tərəfin bütün təyyarələrinin "məhv edildiyini" açıqlayıb.

Bu arada, Qətərin paytaxtı Dohada İsrailin Kəşfiyyat və Xüsusi Tapşırıqlar İdarəsinin (MOSSAD) rəhbəri David Barneanın ABŞ-dan olan həmkarı Bill Börnslə görüşdüyü barədə məlumat yayılıb. Tərəflər Yaxın Şərqdəki müharibəni, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

Görüşdə Misirin rəsmi nümayəndəsinin də iştirak etdiyi bildirilir. Lakin bu tədbirdə Misiri kimin təmsil etdiyi açıqlanmayıb.

Türkiyə dövləti isə fələstinlilərə humanitar yardımlarını davam etdirir. Bu arada, türkiyəli mütəxəssislərdən ibarət nümayəndə heyətinin Qəzzada səhra xəstəxanasının qurulması üçün hazırlıq işləri aparmaq məqsədilə bölgəyə gəldiyi məlum olub. Türkiyəli diplomat bildirib ki, rəsmi Ankara xəstəxananı tez bir zamanda istifadəyə verməyi planlaşdırır. Məlumatı TASS agentliyi yayıb.

Qeyd edək ki, HƏMAS-la müharibə İsrailə baha başa gəlir. Bu ölkənin Mərkəzi Bankının hesabatında qeyd edilir ki, İsrail HƏMAS-la müharibəyə artıq 198 milyard şekel (53 milyard ABŞ dolları) xərcləyib.

Daha əvvəl isə qeyd edilmişdi ki, İsrail ordusunun HƏMAS-a qarşı gündəlik hərbi əməliyyatlarına təxminən 260 milyon ABŞ dolları həcmində vəsait xərclənir. Yəni İsrail üçün bu müharibəni davam etdirmək heç də sərfəli deyil.

Rəsmi Təl-Əviv isə HƏMAS-ı sonadək cəzalandırmaq niyyətində olduğunu bildirir. Bununla yanaşı, sülh danışıqları ilə bağlı hər iki tərəfə təzyiqlər artırılır.

***M.HACIXANLI***
***XQ***

Qadın zorakılığına son!

# Zərif məxluq güclü olmağı bacarmalıdır

**Təhsildən, maddi təminatdan asılı olmayaraq qadınlara qarşı zorakılıq halları dünyanın hər yerində geniş yayılıb. Bu problemin qabardılması üçün 1999-cu ildə Birləşmiş Millətlər Təşkilatı noyabrın 25-ni rəsmi olaraq Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü elan edib. BMT-nin tövsiyəsi ilə hər il noyabrın 25-dən dekabrın 10-dək – 2 həftə ərzində qadınlara qarşı zorakılıq halları ilə bağlı, demək olar ki, dünyanın hər yerində tədbirlər təşkil edilir, maarifləndirmə işləri aparılır.**



Qlobal hesab olunan bu problemin aradan qaldırılması üçün mental dəyərlər, adət və ənənələr, eləcə də min illər ərzində qəlibləşmiş düşüncələrdə müsbət dəyişiklik olmalıdır.

Bəs Azərbaycanda vəziyyət necədir? Ümumiyyətlə, Şərq təfəkkürünə görə oğul düşmən çəpəri hesab olunub, bir çox hallarda qıza ailədə ikinci dərəcəli övlad kimi baxılıb. Yurda, ocağa sahib çıxmaq baxımından da ailədə oğlan uşağı arzulanıb. Xalqımız üçün də ənənəvi olan bu düşüncələr, təəssüf ki, yeni nəslə ötürülür.

Adını müəyyən səbəblərdən çəkmək istəmədiyim tanışlarımdan birinin kədərli həyat hekayəsi bugünümüzün acı reallığıdır:

**– 6 qızım var. O vaxtlar uşağın cinsini müəyyən etmək o qədər də rahat deyildi, özü də kənd yerində. Qızlarım dünyaya gəldikcə o qədər sıxıntı keçirirdim ki... hazırda qızım məndən də dəhşətli əzab və işgəncə içindədir. İlk hamiləliyində övladının qız olduğunu bilən qaynanası və həyat yoldaşının təkidi ilə uşağı doğulmadan məhv etdilər. Ən dəhşətlisi də budur ki, sonradan qızımın ana olmayacağını dedilər.**

Bu söhbətin üstündən təxminən 7 il keçir, amma o xanım hələ də ana ola bilməyib. Bəlkə də, heç vaxt olmayacaq. Bugünümüzdə, ilk qız övladının belə narazılıqlara, hətta boşanmaya səbəb olması hallarına hələ də rast gəlirik. Buna görə, qadının həyat yoldaşı və onun valideynləri tərəfindən faktiki qətl hadisəsi olan selektiv aborta məcbur edilməsi ilə bağlı müdhiş faktlar var. Azərbaycan artıq uşaqların cins seçiminə görə dünyada birinci yerdədir. Bu hal cəmiyyətimizdə böyük narahatlıq doğurub.

**"Azərbaycan Qadınları Respublika Cəmiyyəti" İctimai Birliyinin sədri Bahar Qasımova XQ-yə müsahibəsində bildirdi ki, qadın zorakılığına qarşı mübarizə cəmiyyəti düşündürən ən həssas mövzulardandır:**

–Təəssüf ki, bu sahədə görülən işlər istədiyimiz səmərəni vermir. Təbii ki, bunun da bir sıra obyektiv və subyektiv səbəbləri var. Bu mübarizəni hər qadın, ana əvvəlcə öz ailəsində aparmalıdır. Qızlarımız cəmiyyətə nümunə kimi böyüdükcə, kökləri çox dərinə gedən bu problemin həllinə nail ola bilərik. Bu günlər qurum olaraq biz də bir çox tədbirlər keçiririk ki, onların hər birində daha çox qadın və qızların iştirakına nail oluruq. Biz nəinki bu 2 həftə ərzində, əslində, il boyu tədbirlərdə maarifləndirmə işləri aparırıq. Keçirdiyimiz tədbirlərdə təhlükə anında insanların müraciət edə biləcəkləri müvafiq təşkilatların qaynar xətt və əlaqə nömrələrini nəzərə çatdırır, eyni zamanda, televiziya, KİV-lər vasitəsilə cəmiyyətə çağırışlar edirik.



**Bahar xanım sonra dedi:**

–Bu il həyat yoldaşları tərəfindən fiziki, həmçinin psixoloji zorakılığa məruz qalmış qadınların ailələrindən kəkələməyə görə 40, qorxu, özünə qapanma, həyəcana (mutizm) görə 60-dan çox uşaq təmənnasız müalicə alıb. 50-dən çox ana və uşaq isə psixostom xəstəliyindən əziyyət çəkdiyi üçün onlara yardım göstərilib. Son 3 il ərzində Sumqayıtda Reabilitasiya Mərkəzində 150-dən çox insan müalicə alıb. Bu işlərin görülməsində qurumun rəhbər və idarə heyətinin üzvlərindən Şəfiqə Nağıyeva, Ətrabə Gül, Vəfa Abbasova, İradə Hacıyeva, Məlahət Qəhrəmanova, Esmira Qafarova, Zenfira Mustafayeva və başqaları böyük kömək göstərirlər.

Bahar Qasımova narkomaniya və digər zərərli vərdişlər olan yerlərdə məişət zorakılığı hallarına daha çox rast gəlindiyini vurğuladı. O qeyd etdi ki, bu ilin sentyabrında Masallı, İsmayıllı və Abşeronda narkomaniya, məişət zorakılığı halları ilə bağlı geniş tədbirlər təşkil edilib. Bakının 41 məktəbində erkən nikah və boşanmalarla bağlı keçirilən maarifləndirici tədbirlər böyük marağa səbəb olub.

Qadına qarşı zorakılıqlar bir çox hallarda boşanmaya gətirib çıxarır ki, bu da tək ailənin yox, həm də cəmiyyətin faciəsidir.

**İctimai Birliyinin sədri boşanmalarda bəzən qadınların da günahının olduğunu söylədi:**

–Keçən ilə nisbətən boşanmaların sayı 2 dəfə çoxalıb. Son vaxtlar cənub və şimal zonasında, o cümlədən Quba və Qusarda boşanma ilə bağlı müraciətlər artıb. Apardığımız araşdırmalar nəticəsində bəlli olub ki, qadınlar, əsasən 27-28 yaşlarında, kişilər isə 55-60 yaşlarında boşanma üçün müraciət edirlər. Alimentlərin uşaqlara verilməsi məsələsində boşluqlar var. Bəzi problemli ailələrdə qadınlar zəiflik göstərir, çatışmazlıqları aradan qaldırmaq əvəzinə boşanmağa üstünlük verirlər. Düşünürlər ki, boşanacaqları təqdirdə, hər uşağa 220 manat aliment ala bilərlər. Elə kişilər də var ki, alimentə görə uşaqları özlərində saxlamaq istəyirlər.

Bahar Qasımovanın sözlərinə onu da əlavə etmək istəyirik ki, məhz qadınların zəifliyi, həm onların özlərinin, həm də azyaşlı övladlarının zorakılığa məruz qalmasına səbəb olur. Qanunla qadağan olunan erkən nikah halları da qadına qarşı zorakılığın açıq təzahürüdür. 15-17 yaşlı gənc anaların dünyaya gətirdikləri uşaqların sayı 2019-cu ildə 2320, 2021-ci ildə 1650 olubsa, ötən il bu rəqəm 2011-ə yüksəlib. Erkən nikaha məcbur edilən gənc qızlar bəzən intihardan başqa yol tapa bilmirlər.

Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayevin sözlərinə görə, son dövrdə ali təhsil almaq üçün müraciət edən qızların sayı oğlanların sayını üstələməyə başlayıb. Ümid edək ki, məhz təhsilin üstünlüklərindən istifadə etməklə həyatdakı yerini və rolunu yaxşı dərk edəcək qızlarımızın sayı çoxaldıqca böyük bəlalara səbəb olan bu problem də aradan qalxacaq. Bunun üçün də qadınlarımız güclü olmağı bacarmalıdırlar.

***Leyla QURBANOVA***
***XQ***

# UNESCO "köçəri sivilizasiyası"nı himayə edir

**UNESCO-nun bugünlərdə Parisdə keçirilən tarixi 42-ci sessiyasında Monqolustanın təqdim etdiyi layihə - UNESCO-nun himayəsi altında "Köçəri sivilizasiyaların tarixi" adlı yeni kolleksiyanın yaradılması təsdiq edilib.**

"Planet Today"in məlumatına görə, bu təşəbbüs köçəri xalqların mədəniyyətləri və sivilizasiyaları haqqında bilikləri genişləndirmək və onların bəşər tarixinə töhfələri haqqında anlayışımızı dərinləşdirmək məqsədi daşıyır.

Layihə "Monqol çöllərində köçərilər: köçəri imperiyaların beşiyi" adlı cilddən başlayır. Bu cildin müzakirəsi zamanı UNESCO-ya üzv ölkələr Monqolustanın təşəbbüsünü dəstəklədiklərini bildiriblər. Onlar, həmçinin proqrama fəal qoşulmaqla və öz mütəxəssislərini alimlərin işində iştiraka dəvət etməkdə maraqlı olduqlarını vurğulayıblar.

UNESCO-nun "Köçəri sivilizasiyalar "tarixi" kolleksiyası dünyada sosial əlaqələrin və mədəniyyətlərarası dialoqun gücləndirilməsi üçün əsas resurs olacaq.

***XQ***

İdman

# Ayanın beynəlxalq şahmat karyerasında yeni mərhələ

**Bu günlərdə İtaliyanın Montesilvano şəhərində müxtəlif yaş qrupları üzrə keçirilən dünya çempionatında təmsilçimiz Ayan Allahverdiyeva 18 yaşadək qızlar arasında qızıl medal qazanmaqla idman tariximizi daha bir nailiyyətlə zənginləşdirib. Azərbaycan şahmat məktəbinin nümayəndəsinin qazandığı bu uğur ölkəmizdə yeni nəsil intellektual zəka sahiblərinin yetişməsinin daha bir bariz nümunəsidir.**

Yeniyetmə və gənclərdən ibarət yığmanın baş məşqçisi Fərid Abbasov XQ-yə müsahibəsində bu il yeniyetmə və gənc şahmatçıların parlaq qələbələr qazandığını, həmin nailiyyətlərin sistemli hazırlıq nəticəsində əldə edildiyini bildirdi:

– Azərbaycan yarışda müxtəlif yaş qrupları üzrə 11 şahmatçı ilə təmsil olunurdu. Dünya birinciliyində Ayan, hazırkı Avropa çempionu Rüstəm Rüstəmov və digərlərindən medallar gözləyirdik. İndiyədək 3 dəfə Avropa çempionu olan Ayan Allahverdiyeva gözəl oyun nümayiş etdirdi. Şahmatçımız 2022-ci ildə dünya birinciliyində gümüş medal qazanmışdı. Bu il Avropa çempionatında da ikinci yeri tutmuşdu. Yarış gərgin keçdi, çünki turnirdə rəqabət böyük idi. 92 ölkədən 1000-ə yaxın şahmatçının iştirak etdiyi dünya birinciliyində müxtəlif kateqoriyalarda, ümumilikdə, 6 qızıl medal qazanıldı ki, onlardan da birinə Azərbaycan təmsilçisi sahib oldu. Ayan dünya çempionluğunu qazanmaqla Özbəkistanda keçiriləcək qadınlar arasında blits və rapid üzrə dünya çempionatına vəsiqə də əldə edib. Əsas hədəflərdən biri bu yarışda yüksək nəticələr qazanmaqdır.

Fərid Abbasovun sözlərinə görə, komandamızın üzvü Rüstəm Rüstəmov da yaxşı oyunlar nümayiş etdirib və qələbəyə çox yaxın olub. 14 yaşlılar arasında mübarizə aparan şahmatçımız reytinqinə görə 31-ci olsa da, yekun nəticədə 7,5 xalla 11-23-cü sırada qərarlaşıb. Komandamızın digər üzvü Tunar Davıdov da eyni nəticə göstərib. Əsas isə odur ki, yeniyetmə şahmatçılarımız bir daha güclü potensial ortaya qoydular.



Ayan Allahverdiyeva indiyədək karyerasının ən böyük nailiyyətini qazandığını bildirdi:

–Bu qələbə ilə şahmat karyeramın yeni mərhələsi başlayır. Əminəm ki, daha böyük uğurlara çatacağam. Çox sevinirəm ki, axır ki, dünya çempionluğunu qazana bildim. Yaşıdlarım arasında dünyanın güclü şahmatçısı olmaq ən böyük arzularımdan biri idi. Qələbəyə hər zaman yaxın olsam da, potensialımdan tam istifadə edə bilmirdim. Ötən il dünya çempionatında ikinci yerə çıxmışdım. Ümumiyyətlə, bu yarışa qədər həmişə çempionluğa yaxın olmuşam. Yeniyetmələr arasında son yarışımda fəxri kürsünün ən yüksək pilləsinə ucalmaqla, nəhayət, istəyimə nail oldum.

11 turdan 3-də heç-heçə edən, qalanını qələbə ilə başa vuran A.Allahverdiyeva bəzi rəqiblərlə oyunların gərgin keçdiyini dedi. Bildirdi ki, Qazaxıstan, Ukrayna, Rusiya, Amerika şahmatçıları güclü oyun nümayiş etdiriblər. Şahmatçımız növbəti hədəfin qadınlar arasında blits və rapid üzrə dünya çempionatında medal qazanmaq olduğunu vurğuladı.

Ayan Allahverdiyevanı qarşıda daha nüfuzlu yarışlar gözləyir. Son illər yeniyetmə və gənc şahmatçılarımız Avropa və dünya birinciliklərində nəticələri ilə güclü şahmatçı nəslinin yetişdiyini bir daha sübut edir. Elə bu il gənc şahmatçılarımız Gövhər Abdullayeva və Məhəmməd Muradlı 20 yaşadək şahmatçılar arasında qızıl dubl ediblər. Heyətində Gövhər Abdullayevanın da yer aldığı qadın millimiz tarixində ilk dəfə gümüş medal qazanıb. Bu nailiyyətlər daha böyük qələbələrdən soraq verir.

***L.QURBANOVA***
***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan süzgəclərin satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslərwww.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il dekabrın 7-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012)404-37-00, daxili: 1263.

Ünvan-Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

BİLDİRİŞ

Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC tərəfindən Bakı şəhərinin, Nərimanov rayonu, Vaqif prospekti ilə Ceyhun Hacıbəyli küçəsinin kəsişməsindən Nəsib bəy Yusifbəyli küçəsi istiqamətində istirahət parkında tikinti-quraşdırma işlərinin həyata keçirilməsinin satın alınması üçün keçirilən açıq tenderin şərtlər toplusunda iddiaçının müraciəti əsasında dəyişiklik edilmiş, təkliflərin qəbulu və zərflərin açılışı tarixləri müvafiq olaraq 30 noyabr 2023-cü il saat 17.00-a və 1 dekabr 2023-cü il saat 11.00-a dəyişdirilmişdir. Dəyişikliklə bağlı iddiaçılara məlumat verilmişdir.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 260 (30376) 29 noyabr 2023-cü il, çərşənbə


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Teatr

# “Qırmızı papaq” Şuşada

**Dekabrın 2-də Şuşa Dövlət Musiqili Dram Teatrının səhnəsində balacalar üçün “Qırmızı papaq” tamaşası nümayiş olunacaq. Bu barədə Şuşa Dövlət Musiqili Dram Teatrından məlumat verilib.**




Bildirilib ki, uşaqlara maraqlı anlar bəxş edəcək səhnə əsəri balacaların bədii-estetik zövqünün formalaşması, eyni zamanda, onlarda kiçik yaşlarından yaradıcı sənətə məhəbbət və maraq aşılamaq məqsədilə hazırlanıb.

**XQ**

İdman xəbərləri

# Taekvondoçularımız 2 qızıl medal qazanıblar

**Azərbaycanın taekvondo komandası Sarayevoda keçirilən “Balkan Cup”da 2 qızıl medal qazanıb.**




Bosniya və Herseqovinanın paytaxtında keçirilən yarışda qızıl medala Qaşım Maqomedov (63 kq) və Milad Beigi Harçeqani (+87 kq) sahib olublar.

Mübarizəyə 1/8 finaldan başlayan Qasım Maqomedov ardıcıl olaraq bolqarıstanlı, ispaniyalı və albaniyalı rəqiblərinə qalib gələrək finala yüksəlib. Həlledici görüşdə italiyalı idmançını da məğlub edən təmsilçimiz fəxri kürsünün ən yüksək pilləsində yer alıb.

Dünya çempionu Milad Beigi Harçeqani isə Xorvatiya, Şimali Makedoniya və İspaniya taekvondoçularına qalib gələrək birinci yeri tutub.

# “Stadionlar səssiz olanda”

**Nizami Kino Mərkəzində “Qarabağ”ın baş məşqçisi Qurban Qurbanova həsr edilmiş “Stadionlar səssiz olanda” filminin təqdimat mərasimi olub.**



Filmdə 51 yaşlı mütəxəssisin XX əsrin 80-ci illərindən başlayaraq həyatı, futbolçu karyerası və Ağdam klubu ilə Çempionlar Liqasının qrup mərhələsinə yüksəlməsinə qədər məşqçilik fəaliyyəti əks etdirilib.

Qeyd edək ki, Gənclər və İdman Nazirliyinin dəstəyi ilə ərsəyə gələn film noyabrın 30-dan etibarən bütün kinoteatrlarda nümayiş etdiriləcək.

# “Qarabağ” – “Hakken” biletləri satışda

**“Qarabağ”ın UEFA Avropa Liqasının qrup mərhələsinin sonuncu - VI turunda evdə İsveçin “Hakken” klubuna qarşı keçirəcəyi oyununun biletləri satışa çıxarılıb. Qiymətlər müvafiq olaraq 5, 20, 40 və 100 manat təşkil edir.**




Biletləri t.az-ın satış məntəqələrindən (iticket.az-da onlayn satış), Park Bulvardakı “Qarabağ” FK-nın Fan-Şopundan, Tofiq Bəhramov adına Respublika stadionunun və Heydər Əliyev sarayının kassalarından əldə etmək mümkündür. ”Changan Azerbaijan”da isə VVIP, VIP və CAT 1 biletlər satılacaq.

Görüş dekabrın 14-də saat 21:45-də Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək.

*Leyla SABİRQIZI*
**XQ**

Kosmos

# “Ürək dumanlığı”nın foto-əksi

***Yerdən 7 min 500 işıq ili uzaqlıqda, Kassiopeia bürcündə Qalaktikanın Perseus qolunda məşhur “Ürək dumanlığı” (Heart Nebula) yerləşir. 3 noyabr 1787-ci ildə məşhur astronom Uilliam Herscel tərəfindən kəşf edilmiş bu dumanlığın aydın fotosunu çəkmək olmurdu.***



Bu yaxınlarda NASA ən modern texnologiyaların sayəsində, nəhayət ki, “Heart nebula”nın arzu edilən şəklini çəkib. Fotoda heyrətamiz bir ürək rəsmi var. Dumanlıq parıldayan ionlaşmış hidrogen qazı və tünd toz zolaqlarından yaranıb.

NASA bu şəkli 2024-cü il 14 Fevral Sevgililər Gününə “astronomik hədiyyə” adlandırıb.

*Ayan SƏMƏDQIZI,*
*tələbə-jurnalist*

Sağlamlıq

# “Daban mahmızı”na çarə – türkəçarə

**El arasında çoxları “daban mahmızının çarəsi yoxdur” – fikri ilə razılaşırlar. Çünki belə insanlar müxtəlif müalicə götürüb nəticə görməyəndən sonra əllərini üzürlər. Mütəxəssislər bildirirlər ki, daban mahmızının (şporu) müalicəsi üçün yaxşı təsir edən türkəçarələr var. Onlardan biri də kartofla hazırlanan məlhəm reseptidir.**



Bunun üçün kartof, təmiz bal və kələm götürülür. Kartofun qabığı soyulmadan dabana qoyulacaq formada halqa-halqa doğranır. Kiçik kələm yarpağı bıçaqla müxtəlif yerlərdən deşilir, üzərinə bir çay qaşığı bal sürtülür.

Karfof dilimi dabana qoyulur, ballı kələm yarpağı ilə üstü örtülür. Ayağa salafan torba keçirib, üstündən sıxan, dar yun corab geyilir ki, kartof tərpənməsin.

Bütün gecə dabanda qalır və səhər götürülür. Bu müalicə üsulu mütləq 10 gün təkrarlanmalıdır. Müalicənin sonunda mahmızın yumşaldığı, ağrının azaldığı müşahidə edilir.

*Z.HÜSEYNLİ*
**XQ**

Hava




**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 29-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gecə və axşam bəzi şəhərətrafı ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Cənub-qərb küləyi əsəcək, arabir güclənəcək. Gecə 5-8°, gündüz 12-16° isti olacaq. Atmosfer təzyiqi 769 mm civə sütunundan 763 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında, əsasən, yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 1-6°, gündüz 10-15° isti, dağlarda gecə 4-9° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

*Q.QASIMOV*
**XQ**

Elm




# Xanım soydaşımız Oksford qalibidir

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) elmi fəaliyyətin təşkili şöbəsinin müdiri, Xanım Tədqiqatçılar Şurasının rəhbəri Nərgiz Hacıyeva Birləşmiş Krallığın Oksford Universiteti ilə Qallen Simpoziumunun “Qlobal liderlik çağırışı” adlı birgə proqramının liderlərindən seçilib.**

UNEC-dən bildirilib ki, 50 ölkə üzrə 100 liderdən biri seçilən Nərgiz Hacıyeva Azərbaycanı müvafiq proqramda təmsil edəcək. “Qlobal liderlik çağırışı” proqramı dünyada fərq yaradan liderliyi inkişaf etdirmək məqsədilə 50-dən çox ölkədən 100 gənc lideri bir platformada toplayıb, öz sahələri üzrə təcrübəli ekspertlərlə çalışaraq BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri üçün birgə təsir layihələri hazırlayır.

**XQ**

Hadisə

# Ayılara restoran qonaqlığı...

**Qış yuxusuna gedə bilməyən ayılar Uludağda (Türkiyə) yerləşən turizm məkanlarından birinə hücum ediblər. Görünür, meşədə yemək tapa bilməyən heyvanlar ərazidə yerləşən Sarıalan yaşayış məntəqəsinə gələrək yemək axtarmağa başlayıblar.**



Bunu görən sakinlər heyvanların hərəkətlərini lentə alıblar. Ayılardan biri onların videosunu çəkən adamlara hücum edib. Həmin görüntülər sosial şəbəkələrdə paylaşılıb. Sağ olsunlar, ərazidəki restoran sahibləri ayılara yemək veriblər.

Qeyd edək ki, adətən, yeddi aya qədər qış yuxusuna gedən ayılar bu dəfə hansısa səbəblər üzündən yatmağı “unudublar”.

*FİDAN*
**XQ**

*✓ “Az Agromila” MMC-yə məxsus ĞİL seriyalı, 156301-dən 156700 nömrəyə qədər olan kassa mədaxil orderi və kassa mədaxil orderinin qəbzi itdiyi üçün etibarsız sayılır. VÖEN- 1702533441.*

# ALLAH RƏHMƏT ELƏSİN

Vəfadar Misirov və İqbal Babayev əzizləri

**NAZİM İBRAHİMOVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev və universitetin kollektivi Fikrət Əzizova qardaşı

**ELŞAD ƏZİZOVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4756
SİFARİŞ 3118
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00